Xalqın qəzeti!

# Xalq qəzeti

№ 109 (30513) 25 may 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Azad edilmiş kəndlərimiz bayrağımızın kölgəsində




Səhifə ➪ 5

# Möhtəşəm yüz gün



Səhifə ➪ 3

## Qazaxın geri alınmış torpaqları sərhədçilərimizin nəzarətində



**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin işğaldan azad olunmasını təmin etmək məqsədilə 2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın 8-ci görüşünün Protokolu imzalanıb.**

Qeyd olunan Protokolun həyata keçirilməsi məqsədilə sərhəd xəttinin koordinatları üzrə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirmə aparılıb və müvafiq sərhəd xəttinin keçməsinin Protokol-təsvirini özündə əks etdirən birgə çöl işlərinin nəticələri haqqında Texniki Protokol tərtib olunub.

2024-cü il mayın 15-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə komissiyaların növbəti - 9-cu görüşü keçirilib, sözügedən Texniki Protokol razılaşdırılıb və bu barədə komissiyaların müvafiq Protokolu imzalanıb.

Delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib. Bununla da Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrımın, Aşağı Əskiparanın, Xeyrımlının və Qızılhacılının ərazilərinin (6,5 kvadratkilometr) Azərbaycana qaytarılması təmin edilib.

Dünən Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.

***XQ***

## Balanslı siyasət Azərbaycanın uğur modelidir



Səhifə ➪ 3



## Kostanın ermənipərəstliyi və Blinkenin Cənubi Qafqazda sülh məntiqi

Səhifə ➪ 4

## Anlamamaq azarı



Səhifə ➪ 6

# MDB və “rəngli inqilablar” – Bortnikovun “həyəcan təbili”

### Qərbin qlobal dəyişiklik planlarına Rusiya baş kəşfiyyatçısının baxışı



**Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovun dilə gətirdikləri heç də adi məsələ sayıla bilməz. Söhbət onun Qərbin MDB ölkələrində “rəngli inqilablar” üçün şərait yaratmağa çalışması ilə bağlı açıqlamasından gedir. Cənab Bortnikov bunu MDB-yə üzv Dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının Qırğızıstanın paytaxtı Bişkekdə keçirilmiş iclasında deyib.**

Əslində, ilk baxışdan, dünyada “rəngli inqilablar” dövrünün geridə qaldığını düşünmək mümkündür. Çünki hazırda bunun reallaşdırılmasına lazım olan ənənəvi alətlərdən, demək olar, hər kəs xəbərdardır və milli dövlətlər özlərində müqavimət formalaşdırıblar. Yəni, mövcud istiqamətdə qabaqlayıcı zəruri vərdişlərə yiyələniblər. Artıq “rənqli inqilablar” dalğasının yaşandığı 2000-ci illər deyil. Eyni zamanda, sonrakı zaman kəsiyinin “ərəb baharı” ssenarilərinin gerçəkləşməsi üçün istifadə edilən texnoloji imkanlar barədə də hər kəs yaxşı məlumatlıdır. Bəs, Bortnikov nəyə görə belə danışır? Səbəb çox sadədir. Çünki Qərb dairələri artıq “rəngli inqilablar”a bir qədər fərqli yanaşırlar.

Kəşfiyyat xidməti rəhbərinin sözlərinə görə, Qərb mərkəzləri MDB ölkələrində vəziyyətin pisləşdiyi və kütləvi iğtişaşlar baş verəcəyi təqdirdə, hakimiyyəti ələ keçirmək üçün “mühacirətdə olan hökumətlər” formalaşdırırlar. Bu fikri Rusiya FTX-sinin rəhbəri yox, digəri bildirsəydi, çox güman, üzərində dayanmağa ehtiyac yaranmaz, elə düşünülərdi ki, adam özünün siyasi fantaziyasına güc verib. Yəni, sırf “mühacirətdə olan hökumətlər” deyiminə görə belə qənaətə gəlmək mümkündür.

Ancaq Bortnikov məlumatlı şəxsdir və çox güman, ona agah olanların heç də hamısını diqqətə çatdırmır, yalnız ümumi ab-havadan söz açır. Məsələn, o, Qərbdəki siyasi dairələri daxili böhranlara şərait yaratmaqda günahlandırır. Vurğulaylr ki, bu məqsədlə təsir agentləri, nəzarət edilən müxalifət partiyaları və hərəkatları, qeyri-kommersiya təşkilatları və psevdomüstəqil mediadan istifadə olunur.

Bəli, tədricən görünür ki, cənab Bortnikov, əslində, tanış mənzərə barədə düşüncələrini bölüşür. Elə hazırda Gürcüstanda yaşananlara diqqət yetirmək kifayətdir ki, onun sözlərinin nə qədər doğru məntiqə söykəndiyini anlayasan. Ancaq söhbət təkcə “rəngli inqilablar” baxımından zəruri siyasi ab-havanın mövcudluğundan getmir. Deyək ki, Gürcüstanda nümayişçilər xarici agentlər haqqında qanuna etiraz edirlər. Yəni, bu, haradan baxsan, siyasi çalardır. Bortnikov isə Qərbin inqilab ritorikası baxımından iqtisadi amillərin ön planda olduğunu vurğulayır. O deyir ki, ABŞ və Böyük Britaniya Rusiyanın tərəfdaşlarına qarşı sanksiyalar adı altında MDB məkanında ticarət və maliyyə əməliyyatları üzərində total nəzarət qurmaq istəyirlər.

Deməli, Rusiyanın baş kəşfiyyaçısının toxunduğu məqamın ciddilik parametri fərqlidir. Diqqət yetirək, MDB siyasi olmaqla yanaşı, həm də ayrıca iqtisadi sistemdir. Hələ bu sistemin Avrasiya İqtisadi İttifaqı deyilən qeyri-rəsmi alt sistemi də var. Bir anlıq təsəvvürə gətirək ki, otuz ilə yaxın müddətdə formalaşmış hazırkı düzən sıradan çıxır. Deməli, MDB-yə üzv dövlətlərin iqtisadiyyatları zərər görəcək. Zərərlərin aktuallaşdığı dövrdə yaşamaq uğrunda mübarizə başlayacaq. Mübarizə çərçivəsində isə siyasi tərəfdaşlığı və mənəvi bağı deyil, iqtisadi faydanı əsas götürüb Qərbə meyillənənlər qurtulacaq. Digərləri, yəni əyilməyənlər isə daxili təbəddülatlar fonunda sıradan çıxacaqlar. Beləliklə, cənab Bortnikovun barəsində ehtiyatlanırmış kimi söz açdığı ssenari gerçəkləşəcək.

*(ardı 6-cı səhifədə)*

## “Üç dənizin əfsanəsi”nin xeyir-dua günü



Səhifə ➪ 7

# İ.D.Abasovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə İsmət Dursun oğlu Abasov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 may 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələrin və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısı”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 208 (Cild I) ilə təsdiq edilmiş “Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissədə “xüsusi tapşırıqlar üzrə nümayəndəsi, xüsusi nümayəndəsi” sözləri “Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi” sözləri ilə əvəz edilsin.

**2.** 3-cü hissəyə “xidmət rəisinin müavinləri,” sözlərindən sonra “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavinləri,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 may 2024-cü il**

# Xarici diplomatlar Laçında



**Mayın 24-də Laçın şəhərində Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin - səfirlərin, hərbi attaşelərin və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə Laçın İqlim Fəaliyyəti Dialoqu keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, ölkəmizdə akkreditə olunan diplomatik korpusun təmsilçiləri, eləcə də digər rəsmi şəxslər iştirak ediblər.

Tədbir çərçivəsində COP29-la əlaqədar təqdimat mərasimi olub.

Təqdimatda çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət Hacıyev** Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Cənubi Qafqaz bölgəsində yeni reallıqların yarandığını vurğulayıb. Hazırda laçınlı keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqlarını, Laçının və Azərbaycanın işğaldan azad olunmuş digər ərazilərinin dirçəldiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: “Təbiət bu füsunkar diyarı öz rəngləri ilə mükafatlandırıb, hər künc-bucaq yaşıllıqlarla, çiçəklərlə bəzədilib. Bu gün biz Azərbaycanın COP29 gündəliyinin başqa bir unikallığı olan sülh quruculuğu prosesində də baş verən iqlim fəaliyyətindən danışacağıq. Bu, Ermənistan və Azərbaycan arasında sülh quruculuğu prosesi nəticəsində yaranıb. Laçın şəhərinə aparan yol Ermənistan sərhədinə çox yaxındır. Həkəri çayının qarşı tərəfində ermənilərə məxsus dirək və bayraqları görürük. Azərbaycan Ermənistanla mülki sərhəd, normal sərhəd qurmaq niyyətindədir”.

Azərbaycanın qarşıya qoyduğu məqsədlərə nail olmağı hədəflədiyini və bunun üçün bütün səyləri gücləndirmək niyyətində olduğunu deyən Hikmət Hacıyev bildirib ki, yaşıl enerjinin müsbət cəhəti hər yerdə istehsal oluna bilməsi ilə bağlıdır. Lakin bunun üçün yatırımlara, innovasiyalara ehtiyac var. Buna isə yalnız tərəfdaşlıq və əməkdaşlıq sayəsində nail olmaq olar. Biz bu məqsədə bir-birimizi dəstəkləyərək nail ola bilərik. Əgər biz COP29-un ev sahibi kimi uğurlar qazansaq, bu, bütün dünya üçün faydalı olar.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi **Məsim Məmmədov** bildirib ki, Ermənistanın işğalı nəticəsində bu regionda bütün infrastruktur tamamilə dağıdılıb. Laçının bir çox yerində isə tank və piyada əleyhinə minalar basdırılıb. Bu minalar mülki vətəndaşların ölümünə səbəb olub. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) Laçında və ətraf ərazilərdə minatəmizləmə əməliyyatlarını davam etdirir.

Laçının Azərbaycanın ən gözəl şəhərlərindən biri olduğunu vurğulayan M.Məmmədov deyib: “2023-cü ilin sentyabrından bəri Laçında 700-dən çox ev və yaşayış kompleksi yenidən qurulub. Biz Laçının Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilməsi ilə qürur duyuruq”.

Laçınlı keçmiş məcburi köçkünlərin artıq doğma evlərinə geri qayıtdıqlarını qeyd edən xüsusi nümayəndə deyib: “Bir il əvvəl keçmiş məcburi köçkünlərin ilk hissəsi Laçına qayıtdı və burada Prezident İlham Əliyev yeni evlərin açarlarını onlara təqdim etdi. Bu gün 730 ailə - 2766 nəfər Laçın rayonuna qayıdıb. Laçın şəhərində, Zabux və Sus kəndlərində keçmiş məcburi köçkünlər üçün qısa müddətdə hər cür şərait yaradılıb. 2026-cı ilin sonuna qədər 12 min insanı öz evlərinə qaytarmağı düşünürük”.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti **Muxtar Babayev** COP29-a hazırlıq prosesində əməkdaşlığın önəmini vurğulayaraq bildirib: “Biz sizi COP29 ilə bağlı bütün hazırlıqlarda məhsuldar olmağa və bu tədbirin gündəliyini fəal şəkildə hazırlamaq üçün dəvət edirik. Düşünürəm ki, müzakirə olunacaq məsələlər çoxdur”.

Bu mötəbər tədbirə hazırlıq işlərindən danışan Muxtar Babayev deyib: “Bizim komandamız artıq bir neçə aydır ki, COP29 üçün hazırlıqlar görür. Bugünkü tədbir isə sizin təkliflərinizi dinləmək üçün bir fürsətdir. Ümidvarıq, bütün ölkələr COP29 ilə bağlı anlayış və həmrəylik göstərəcəklər. Onlar öz səylərini birləşdirərək bir-birinə daha yaxın olacaq, bu da məsələləri həll etməyimizə kömək edəcək”.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini **Yalçın Rəfiyev** qeyd edib ki, ötən il Dubayda keçirilən COP28 tədbiri bütün ölkələr üçün əlverişli olub. İndi isə Azərbaycan həmin səyləri artıq konkret fəaliyyətə çevirməyə başlayıb. Azərbaycanın əsas məqsədi COP hədəflərinə nail olmaq üçün hərəkətə keçmək və daha da irəliləməkdir.

Nazir müavini bildirib: “Bizim Birləşmiş Ərəb Əmirlikləri və Braziliya ilə mühüm danışıqlarımız olub və bu sahədə bir çox irəliləyiş əldə etmişik. İtaliyanın G7 prezidentliyi də bizi danışıqlar aparmaq üçün dəvət edib. Konkret fəaliyyət olmadan hədəflər dəyişə bilməz”.

Energetika nazirinin müavini, “COP29 Azərbaycan” üzrə baş icraçı direktor **Elnur Soltanov** vurğulayıb ki, COP29 beynəlxalq ictimaiyyətin dəstəyi olmadan həyata keçirilə bilməzdi. “Azərbaycanın bu məsuliyyəti öz üzərinə götürməsi təqdirəlayiqdir. Bizə dəstəyinə, fikir mübadiləsinə, o cümlədən mütəxəssislərin göndərilməsinə görə beynəlxalq təşkilatlara təşəkkür edirik”, – deyə E.Soltanov vurğulayıb.

Qarabağ və Şərqi Zəngəzurun Azərbaycan Prezidenti tərəfindən yaşıl enerji zonaları elan olunduğunu vurğulayan nazir müavini qeyd edib ki, buradakı bütün infrastruktur yaşıl enerjiyə keçid üçün uyğunlaşdırılaraq tikilir.

COP29-un BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu **Nigar Arpadarai** Azərbaycanın bu mötəbər tədbirə qısa müddətdə hazırlıq görməsi üçün zəngin təcrübəsinin və imkanlarının olduğunu deyib: “Azərbaycanın COP29-a hazırlığı üçün cəmi bir neçə ay vaxtı var. Adətən ölkələrin bu prosesə ev sahibliyi etməsi üçün daha çox zamanı olur”. O, COP29 inklüzivlik və bərabərlik platforması olacağına əminliyini ifadə edib.

COP29-un iqlim üzrə gənclər çempionu **Leyla Həsənova** iqlim hərəkatının kollektiv hərəkata keçidlə başladığını qeyd edərək bildirib ki, hər kəs bunu öyrənməyə, tətbiq etməyə evdən başlamalıdır. Bu məsələlərdə geniş maarifləndirmə işinin aparılmasının önəmini vurğulayan L.Həsənova bu istiqamətdə müvafiq işlərə başlanıldığını, gənclərin məlumatlandırıldığını qeyd edib.

Azərbaycan Turizm Bürosunun Beynəlxalq bazarlar və işgüzar tədbirlər departamentinin direktoru **Sevda Əliyeva** çıxışında COP29 ilə əlaqədar ölkəmizə gələcək qonaqların yerləşdirilməsi imkanlarından danışıb. “Biz qonaqların qalacaqları məkanların təşkili üzərində fasiləsiz çalışırıq. Burada 100-dən çox bina var. Qonaqlama prosesini yüksək səviyyədə təmin etmək çox vacibdir. “Çox şadıq ki, dünən bu barədə platforma istifadəyə verildi. COP29-un qonaqlama platforması var. Ölkədəki bütün otellər bu platformada qeydə alınmaq üçün xüsusi yoxlamadan keçib”, - deyə S.Əliyeva vurğulayıb.

Tədbirdən sonra diplomatik korpusun nümayəndələri Zerti Aqro-Sənaye Parkında olublar.

Diplomatlara Zerti Aqro-Sənaye Parkındakı heyvanlar, yem istehsalı, həmçinin göyərti və pomidor becərilməsi üçün konteyner tipli təsərrüfatlar barədə məlumatlar verildi.

Bildirilib ki, burada fəaliyyət göstərən bütün müəssisələr ən müasir texnologiyalarla təchiz olunub. Laçınlılar xaricdən dəvət edilmiş mütəxəssislərdən dərs alaraq həm işlə təmin olunur, həm də peşəkar vərdişlərə yiyələnirlər. Bu mənada Aqro-Sənaye Parkında fəaliyyət göstərən hər bir müəssisə həm də tədris-təlim mərkəzi sayıla bilər.

Diplomatik korpusun nümayəndələri sonra “Hoçazfilm” studiyasına gəliblər. Məlumat verilib ki, çoxşaxəli yaradıcılıq məkanı olan “Hoçazfilm”in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir. Pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur.

Diplomatlar Qarabağ və Şərqi Zəngəzur ərazisində ekosistemin bərpasına töhfə vermək məqsədilə Həkəri çayının Laçın rayonu ərazisindən keçən hissəsinə forel balıqlarının buraxılması prosesini də izləyiblər.

Sonra 28 May – Müstəqillik Gününə həsr olunan “Xalça belə yarandı” sərgisinin açılışı olub. Sərgidə milli xalçalarla yanaşı, müxtəlif dizaynlarda hazırlanmış sənət nümunələri də nümayiş etdirilib.

Azərbaycanda akkreditə olunan diplomatik korpus təmsilçilərinin Laçına səfəri başa çatıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva cüdoçu Zelim Kotsoyevi təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva cüdoçu Zelim Kotsoyevi Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında qızıl medal qazanması münasibətilə təbrik edib.**



Birinci vitse-prezident bununla bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: “İdmançımız Zelim Kotsoyev Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında Azərbaycana növbəti – 2-ci qızıl medalı qazandırdı! Dünya çempionunu səmimi-qəlbdən təbrik edir, ona güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!”.

# Nazirlər Kabinetində Naxçıvan müzakirəsi

**Mayın 24-də Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun rəhbərliyi ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı iclas keçirilib.**



Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanların rəhbərlərinin müavinləri və digər məsul şəxslərin iştirak etdikləri iclasda Dövlət Proqramının 2023-cü il üzrə monitorinqinə və 2024-cü ildə yerinə yetirilmiş işlərin cari vəziyyətinə dair hesabatlar təqdim edilib. Habelə Dövlət Proqramının 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planının layihəsinin hazırlanması ilə bağlı məsələlər müzakirə olunub.

Müzakirələrdə Dövlət Proqramının icrası çərçivəsində həyata keçirilən layihələr diqqətə çatdırılıb, icra prosesində müşahidə edilən əsas çətinliklər və onların aradan qaldırılması üçün görülməli olan tədbirlər vurğulanıb.

Aparılan müzakirələr nəticəsində Dövlət Proqramının icrasının səmərəliliyinin daha da artırılması ilə əlaqədar aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

# TBMM-in komissiya sədri XİN-də

**Mayın 24-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Böyük Millət Məclisinin Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmut Özərin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə qardaş Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinin ən yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib, münasibətlərin əsasında xalqları birləşdirən ortaq dil, tarix, din və milli-mənəvi dəyərlərin dayandığı vurğulanıb. Gələcək əməkdaşlıqlara və həmrəyliyə təkan verən, Şuşa Bəyannaməsi ilə taclandırılan və xalqlarımızı birləşdirən strateji münasibətlərin Cənubi Qafqaz regionunda dayanıqlı sülh və inkişafın təmin edilməsində əsas amil olduğu, Azərbaycan və Türkiyə əməkdaşlığı nəticəsində regional və qlobal ölçülü layihələrin həyata keçirildiyi qeyd edilib.

Nazir müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərin daha da gücləndirilməsinə töhfə verdiyini vurğulayıb. O, Azərbaycan Türkiyə əməkdaşlığının dünyada bənzəri olmayan münasibətlər olduğunu, hər iki ölkə rəhbərinin siyasi iradəsi nəticəsində hazırda bu əlaqələrin ən yüksək tarixi zirvəyə çatdığını vurğulayıb

Ceyhun Bayramov, həmçinin təhsil sahəsində iki ölkə arasında mövcud əməkdaşlığın Azərbaycan-Türkiyə Universitetinin yaradılması ilə daha da gücləndiriləcəyinə əmin olduğunu qeyd edib.

***XQ***

# Ceyhun Bayramovun alman həmkarı ilə telefon danışığı

**Mayın 24-də xarici işlər naziri Ceyhun Bayramov ilə Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok arasında telefon danışığı aparılıb.**




Telefon danışığı zamanı Azərbaycan-Almaniya ikitərəfli münasibətlərinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesi müzakirə olunub.

Almatı şəhərində 10-11 may tarixlərində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında keçirilmiş görüş barədə qarşı tərəfə ətraflı məlumat verilib. Ümumilikdə, sülh prosesi çərçivəsində fikir ayrılıqları olan məsələlər nəzərdən keçirilib, danışıqların davam etdirilməsinin zəruriliyi vurğulanıb.

Son zamanlar Azərbaycanla Ermənistan arasında baş tutan razılaşmalar və etimad quruculuğu tədbirləri, xüsusilə də delimitasiya komissiyaları tərəfindən əldə edilmiş razılığa əsasən, Azərbaycana məxsus 4 kəndin geri qaytarılması və sərhədin bir hissəsinin delimitasiya olunması sülh prosesi çərçivəsində əhəmiyyətli tədbirlər kimi qeyd edilib.

Telefon danışığı zamanı ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi çərçivəsində “Petersberq İqlim Dialoqu” formatında Azərbaycan və Almaniya həmsədrliyi ilə tədbirin əhəmiyyəti vurğulanıb, bundan sonra da iki ölkə arasında COP29 çərçivəsində əməkdaşlığın vacib olduğu qeyd edilib.

***XQ***

# Möhtəşəm yüz gün

**Bəli, “illər görməmişdik, bu illər kimi…” 1993-cü ilin yayında başlanan xilakarlıq missiyası, milli dövlətçiliyin qorunub saxlanılması cəhdləri, ölkə daxilində sabitlik yaratmaq əzmi, beynəlxalq aləmdə gənc müstəqil dövlətimizə nüfuz qazandırmaq üçün atılan addımlar öz müsbət nəticələrini verdiyinə görə xalq 2003-cü ilin payızında da həmin siyasəti dəstəkləmiş və Heydər Əliyev strategiyasını davam etdirə biləcək şəxsə etimad göstərmişdi. Həmin siyasi ekspertin indi az qala, 21 yaşı var.**

*İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.*

***Azərbaycan Prezidenti İlham Əliyevin***
***14 fevral 2024-cü il tarixli andiçmə mərasimindəki nitqindən***



Ancaq Azərbaycan Prezidentinin, ordumuzun və xalqımızın 2020-ci ilin payızından sonra yaratdığı yeni reallıqlar, beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslərin sonu bilinməz axarı, ölkəmizin regiondakı mövqeyi, dövlətimizin türk dünyasında, İslam aləmində formalaşmış nüfuzu, COVID-19 pandemiyası dövründə həyata keçirdiyimiz tədbirlərin yaratdığı yeni reytinqimiz, xüsusən, dövlət başçımızın əvvəlki andiçmələrdə vəd etdiyi bütün məram və məqsədlərin gerçəkləşdirilməsi bizim yeni dövrə qədəm qoyduğumuzdan xəbər verirdi. Bəli, cansız faktlar insan kimi danışır və deyirdi ki, yeni dövrün tələblərinə cavab verən daha qətiyyətli addımlar atılmalıdır. Həmin addımların brincisi isə yeni prezident seçkilərinin keçirilməsi idi. Dövlət bu addımı atdı və xalq iki onillik boyu uğurla yol yoldaşlığı etdiyi siyasi kursa və sınaqlardan alnıaçıq və üzüağ çıxmış liderinə növbəti dəfə səs verdi.

Cənab Prezidentin bu ilin 14 fevralındakı andiçmə mərasimində dediyi kimi, onun 2003-cü ildə verdiyi bütün vədlər yerinə yetirilmişdir. Dövlət başçımız yenə də təvazökarlıq edərək xatırlatdı ki, əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun öz liderinə göstərdiyi inam, vahid amal ətrafında birləşmə bacarığıdır. Cənab Prezidentin fikrincə, biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan və əsaslı şəkildə həll edirik.

Builki prezident seçkiləri ərəfəsində “ekspert”lərdən biri maraqlı arqumentlə çıxış etmişdi. Onun fikrincə, builki seçkilərdən sonra reallaşdırılacaq elə bir tədbir yoxdur ki, son beş ildəki uğurlarımızla müqayisə edilsin: “Onun ( İlham Əliyevin – İ.M.) əvvəlki illərdə verdiyi vədlərin hamısı yüksək səviyyədə yerinə yetirilmişdir. Xüsusən, ölkəmizin ərazi bütövlüyünün bərpasına, işğalçı dövlətin ordusunu darmadağın edərək liderlərinin diz çökdürülməsinə nail olmuşuq. Şuşaya, Ağdama, Xankəndiyə, Xocalıya bayraq sancmışıq. Bunlardan böyük uğur təsəvvür etmək mümkün deyil. Ona görə də bizim 2024-cü il seçkilərindən sonra nəzərəçarpacaq fəaliyyətimiz nədən ibarət olacaq?”

Soydaşımızın həmin arqumentini bayraq edənlər də tapılmışdı. Sadəlövhcəsinə deyirdilər ki, bu seçkilərdən sonra nə işlə məşğul olacağıq, nəyə çatmağa çalışacağıq? Dövlət başçımız sanki o cür düşünənlərin olacağını bilirdi. Odur ki, seçkidən dərhal sonra, andiçmə mərasimində dedi ki, indi bizim qarşımızda daha böyük vəzifələr dayanır: “Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik… Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir”.

Yadımdadır, ulu öndər bir dəfə demişdi ki, müstəqilliyin qorunub saxlanılması onu əldə etməkdən çətindir. Fikrimcə, həmin məntiqi işğaldan azad edilmiş torpaqlarımızın bərpasına, həmin ərazilərə həyat gətirilməsinə, yeni şəhərlərin salınmasına, tamamilə dağıdılmış və ya yandırılmış infrastruktur layihələrinin icra edilməsinə, kənd və şəhərlərimizin sakinlərinin öz ata-baba yurdlarına qaytarılmasına tətbiq etsək, onda görərik ki, indiki dövrdə çatmalı olduğumuz məqsədlərin miqyası 2020-ci ildən əvvəlki məqsədlərdən heç də az deyil. Mən may ayının əvvəlində Füzuli və Şuşa şəhərlərində oldum və gördüklərimə, sadəcə, mat qaldım. İlahi, bu regionda nə qədər tikinti-quruculuq işləri aparılır?

Etiraf etməliyik ki, Prezident İlham Əliyevin son 100 gündə həyata keçirdiyi tədbirlər, reallaşdırdığı layihələr saymaqla qurtaran deyil. Onun uzaq xaricdə Azərbaycanın dostlarının çoxaldılması, yaxın qonşularımızla münasibətlərin normallaşdırılması istiqamətində qazandığı uğurlar nəinki xalqımız, beynəlxalq aləmdəki dostlarımız tərəfindən də alqışlanır. Ermənistanla sərhədlərin delimitasiya (müəyyənləşdirmə) və demarkasiya (sərhəd göstəricilərini tətbiq edilməsi) proseslərinin aparılması, Qazaxın dörd kəndinin heç bir hərbi əməliyyat aparmadan və ya güc tətbiq etmədən Azərbaycana qaytarılması, hələ də düşmən əlində qalan digər kəndlərimizin taleyinin həll edilməsi üçün danışıqların intensivləşdirilməsi son 100 günün uğurları sırasındadır.

Ancaq mənə elə gəlir ki, son 100 günün ən möhtəşəm uğurları sırasında cənub qonşumuz İran İslam Respublikası ilə münasibətlərin normal məcraya yönəldilməsi də var. Doğrudur, bəzi ekspertlər yazırlar ki, 44 günlük İkinci Qarabağ müharibəsi dövründə Ermənistana və Qarabağa yanacaq, silah-sursat göndərən Tehranın Azərbaycanla münasibətlərdə belə tezliklə kurs dəyişməsi beynəlxalq aləmdəki proseslərlə bağlıdır. Amma yanılırlar. Çünki beynəlxalq aləmdə gedən indiki proseslər 44 günlük müharibə dövründə də mövcud idi. Sadəcə, Prezident İlham Əliyevin sözünə və imzasına olan inam Tehranın haqq yoluna qayıtmasını təmin etmişdir.

Xatırladaq ki, mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimi olmuş və orada çıxış edən İran lideri olduqca xoşməramlı fikirlər səsləndirmişdi:

“Biz Qarabağın Azərbaycanın ərazisi olduğunu səlis formada, tam açıq şəkildə bildirən ilk ölkələrdən biri olmuşuq. Bu bölgədə, Qarabağda dirçəliş proqramı əsasında əməkdaşlığımızı hər zaman göstərməyə hazır olduğumuzu bir daha bildirmək istəyirəm. Kəlalə – Ağbənd bölgəsində 140 kilometr uzunluğunda dəmir yolu və avtomobil yolunun üzərində tikilən körpülər də strateji layihələrdir. Bu layihəni biz çox sürətlə davam etdiririk. Buraya gələrkən mən oraya baş çəkdim. Orada altı istiqamətdə işlər çox intensiv şəkildə davam etdirilir. Mən əməkdaşlarıma və şəhərsalma nazirinə də təkidlə tapşırdım ki, biz bu layihəni vaxtından əvvəl - 36 aydan da tez bitirib istismara verməliyik. Çünki bu, iki ölkə arasındakı əlaqələrdə çox önəmli bir dəhlizdir”.

Bundan başqa, fevral ayından sonra Azərbaycana səfər edən dövlət başçılarının sayı, Prezident İlham Əliyevin xarici səfərlərinin statistikası, COP29-a hazırlıqla bağlı ölkəmizdə və xaricdə reallaşdırılan tədbirlər sübut edir ki, yeni dövrdə dövlətimizin qarşısında duran vəzifələr qətiyyən əvvəlki illərdəkindən az deyil.

Sonda xatırladaq ki, dövlət başçımız builki andiçmə mərasimindəki nitqinin sonunda demişdi: “Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək”.

Mən isə həmin andiçmədən 100 gün keçəndən sonra əlavə edirəm: “Biz bu gün həm də Qazaxın Azərbaycana qaytarılmış kəndlərindəyik”. Əminəm ki, daha yüz gün keçəndən sonra bunlardan az əhəmiyyət kəsb etməyən növbəti uğurlarımızı qeyd edəcəyik.

Növbəti dəfə qazandığınız möhtəşəm etimadın yüz günü mübarək, cənab Prezident. Siz bu xalqa son 20 ildə çox böyük töhfələr vermisiniz. Amma mən bilən, ən böyük töhfəniz “Dəmir yumruq”dur. Yumruğumuz həmişə təsirli olsun, İnşallah!

***İ.QAÇAYEV***

# Balanslı siyasət Azərbaycanın uğur modelidir

## COP29-un ölkəmizdə keçirilməsi beynəlxalq tələblərə uyğun imkanlarımızın dəyəridir

**Üç il altı ay bundan əvvəl Qarabağ problemini kökündən həll edən Azərbaycan hazırda dünyanın ən təhlükəsiz və sabit ölkələrindən biridir. Qarabağda artıq Rusiya sülhməramlı kontingenti yoxdur. Bu addım Bakı ilə Moskva arasında nəinki münasibətlərin korlanmasına səbəb oldu, əksinə, əməkdaşlığın genişlənməsinə, yeni birgə layihələrinin həyata keçirilməsinə münbit zəmin yaratdı.**



Ermənistanın əzəli müttəfiqləri (Rusiya, Belarus) və okeanın o tayındakı faktiki himayədarı (ABŞ-ın Azərbaycandakı səfiri) Qarabağa səfər etdilər. Uzun fasilədən sonra Azərbaycanla İran arasındakı münasibətlərdə mülayimləşmə başladı, Araz çayı üzərində müştərək bəndlər istismara verildi. Açılış mərasimində iki ölkənin prezidentlərinin səmimi görüşü baş tutdu. Ermənistanla sərhədin bir hissəsində delimitasiya və demarkasiya işləri həyata keçirildi, Almatıda vasitəçisiz dialoqun startı verildi. Sadaladıqlarımız Azərbaycanın son bir ayda əldə etdiyi uğurların siyahısıdır. İndi ölkəmiz sözünə və əməlinə inanılan, etimad göstərilən regional güc statusuna malikdir. Azərbaycanın həm də Qoşulmama Hərəkatında beynəlxalq körpü rolunu oynamaqda böyük təcrübəsi var. Bakı hərəkata sədrlik etdiyi dörd il ərzində 120 ölkə ilə ikitərəfli münasibətlər qurmağa və inkişafa nail oldu.

Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir, Bakıdan dünyaya qlobal mesajlar verilir, gələcək faydalı əməkdaşlığa hesablanan transmilli layihələrə imza atılır. Eyni zamanda, Azərbaycan daha möhtəşəm tədbirlərə evsahibliyi etməyə hazırlaşır. Onlardan biri cari lin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasıdır (COP29). COP 29-a ölkəmizin evsahibliyi etməsi o deməkdir ki, qarşıdakı bir neçə il ərzində dünyanın qlobal iqlim çağırışlarına, “yaşıl” gündəliyinə məhz Bakı istiqamət verəcək. Hazırda BMT-nin ətraf mühitlə bağlı planetin bir nömrəli probleminin müzakirə ediləcəyi ən nüfuzlu tədbirinə hazırlıq işləri yüksək səviyyədə davam edir.

* * *

Ölkəmizin uğur paradının son tablosunu təsvir etməkdə məqsədimiz oxucuların diqqətini son vaxtlar bölgədə hiss olunan sabitlik və təhlükəsizlik qurşağına yönəltməkdir. Bu amil COP 29-un BMT-nin bütün standartlarına və qaydalarına uyğun formada keçəcəyini şərtləndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı “Euronews” telekanalına verdiyi müsahibədə bir sıra maraqlı məqamlarla yanaşı, COP29 mövzusuna da toxunub. Dövlətimizin başçısı müsahibədə qarşıda bizi gözləyən tədbir barədə bəzi məsələlərə aydınlıq gətirib. Azərbaycanda təminatlı təhlükəsizlik barədə danışan cənab Prezident COP29 zamanı Azərbaycanda bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühitin yaradılacağını əminliklə vurğulayıb.

Yuxarıda da qeyd etdiyimiz kimi, sülhün və əməkdaşlığın carçısı olan Azərbaycan “böyük güclər”lə ölçülü–biçili, balanslı siyasət aparır. Elə bunun nəticəsidir ki, Azərbaycanı istəməyən, onun uğurlarına sevinməyi bacarmayan bədxahların məkrli planları nəticəsiz qalır. Bizi müxtəlif oyunlara çəkmək istəyən bölgədənkənar güclər heç nə əldə edə bilmirlər. Buna nümunə olaraq, Fransanı, eləcə də Avropanın digər dövlətlərini göstərmək olar. Artıq onların özləri də Azərbaycanla hesablaşmağın onların öz xeyirinə olduğunu yaxşı dərk ediblər. Elə Ermənistanın özü də sülh üçün vasitəçisiz hərəkət etməyin vacibliyini anlayıb. Artıq İrəvan birmənalı şəkildə başa düşüb ki, onun gələcəyi də, inkişafı da Azərbaycanla münasibətlərindən asılıdır.

* * *

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** diqqəti Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin əsasının Heydər Əliyev tərəfindən qoyulduğuna yönəltdi: “Azərbaycanın milli maraqlarına tam cavab verən, ona uğur gətirən bu siyasət bu gün də davam etdirilir. Onu da qeyd etmək lazımdır ki, qazandığımız uğurlarda balanslaşdırılmış xarici siyasətlə yanaşı, Azərbaycanın güclənməsinin də payı var. Məhz güclü Azərbaycan həmin balansı milli maraqlara söykənən müstəqil siyasət konfiqurasiyasında qurub. Bu isə təbii ki, beynəlxalq müstəvidə ölkəmizin sözünün, mövqeyinin çəkisini artırır, həm də ona hörmət gətirir”.



Deputat, həmçinin onu da xüsusi olaraq qeyd etdi ki, son iyirmi il ərzində Prezident İlham Əliyevin apardığı balanslı, ardıcıl və prinsipial xarici siyasətin nəticəsində Azərbaycanın beynəlxalq platformada əlaqələri daha da genişlənir, təhlükəsizliyi möhkəmlənir.

Bu gün Azərbaycan özünün Qərb tərəfdaşları, Avropa İttifaqı və NATO ilə yanaşı, Rusiya, İran və Çinlə qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa söykənən xarici siyasətini uğurla davam etdirir. Eyni zamanda, ölkəmiz özünün xarici əlaqələrində bütün siyasi və hərbi bloklardan, şübhəli inteqrasiya təşəbbüslərindən məsafəli, balanslı diplomatik xəttinə sadiqdir. O cümlədən qonşuları, Cənubi Qafqaz ətrafı ölkələrlə münasibətlərini qarşılıqlı faydalı əməkdaşlıq prinsipi əsasında inkişaf etdirməyi, ikitərəfli və çoxtərəfli münasibətlərdə siyasi mütənasibliyi təmin etməyi özünün prioriteti sayır. Bu həssas mütənasiblik Azərbaycanın uğurlu xarici siyasət kursunun mahiyyətidir və bu xəttin yaxın gələcəkdə də davam etdiriləcəyini əminliklə söyləyə bilərik.

Yazımızın sonunda oxuculara 26 il bundan əvvəl iştirakçısı olduğumuz bir tədbiri xatırlatmaq istərdik. 1998-ci il sentyabrın 7-8-də Azərbaycan Prezidenti, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 ölkədən nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Tədbirin yekunu olaraq Avropa İttifaqının TRACECA proqramı əsasında “Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalandı və Bakı Bəyannaməsi qəbul edildi.

Bəli, ümummilli liderin sağlam bünövrə üzərində inşa etdiyi Azərbaycan adlı təhlükəsizlik binası bugünədək müxtəlif səmtlərdən əsən güclü küləklərə, tufanlara sinə gərməyi bacardığı kimi, bundan sonra da bütün sınaqlardan uğurla çıxacağına heç kəsin şübhəsi olmasın.

***İ.HƏSƏNQALA***
***XQ***

# Erməni kilsəsi və Paşinyan hakimiyyətinə qarşı demarş

## II Qareginin bəyanatında hədə-qorxu tonu

**Durum gərgindir. Söhbət Erməni apostol kilsəsi ilə Ermənistan hakimiyyəti arasındakı münasibətlər fonundakı vəziyyətdən gedir. O vəziyyətdən ki, getdikcə daha çox gərginləşmə ehtimalı var. Bütün ermənilərin katolikosu II Qareginin başçılığı ilə keçirilmiş toplantı və onun yekunları ilə bağlı verilmiş bəyanat da fikrimizin təsdiqidir. Belə qənaət formalaşır ki, həmin sənəd Erməni apostol kilsəsinin baş nazir Nikol Paşinyana qarşı müqavimət əzminin məhsuludur.**



Kilsə Paşinyan və komandası qarşısında geri çəkilməyəcəyinə dair mesaj verir. Mesajın konkret nədən ibarət olduğundan söz açacağıq. Ancaq əvvəlcə Eçmiədzindəki məclislə bağlı diqqətçəkən bir məqamı vurğulayaq. Tədbiri əks etdirən fotolarda II Qareginin yanında Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın yer aldığı görünür. Elə bu görüntülərə nəzərən kilsənin mesajının kifayət qədər aydın olduğunu söyləyə bilərik. II Qaregin Ermənistanı gələcəyə özü kimi keçmişin qalıqları ilə daşımaq niyyəti güdür.

Erməni apostol kilsəsinin ölkənin əvvəlki hakimiyyətinin təmsilçilərinə siyasi sərmayə yatırması reallıqdır. Arxiyepiskop Baqrat Qalstanyan kimilərinin ortaya atılması "planın" tərkib hissəsidir və aysberqin görünən tərəfidir. II Qareginin "arsenalında" daha fərqli kaliberli baqratların olması şübhə doğurmur. Ancaq bir məsələ də var ki, Ermənistan iqtidarı həmin baqratlar üçün mübarizə çəmbərini xeyli daraldır. Necə? Çox sadə şəkildə – kilsəni cəmiyyətin gözündən salmaqla.

Əslində, Erməni apostol kilsəsi daxilində baş verən proseslər, mənəvi aşınma halları cəmiyyətə çoxdan, özü də yaxşı bəllidir. Sadəcə, cəmiyyətin müəyyən kəsimi bu barədə danışmır, ümumən din amilinin həssaslığını nəzərə alaraq, mövzudan uzaq durur. Paşinyan və tərəfdarları isə tabuları sındırmaqda israrlıdırlar. Görünür, olanlardan nəticə çıxarırlar.

Bolşevizmin lideri Lenin deyirdi ki, bir quruluşu sıradan çıxarmaq istəyirsinizsə, ilk növbədə onun üzündəki müqəddəslik maskasını yırtıb atmalısınız. Hazırda Paşinyanın komandası məhz bu işlə məşğuldur. Məsələn, Nikolun jurnalist dostları müxtəlif sosial şəbəkə profillərində II Qaregin barədə son dərəcə alçaldıcı faktları tirajlayırlar. Baş katolikos uşaqbazlıqdan tutmuş kilsə əmlakının talanmasına, dövlətə vergi verməkdən boyun qaçırmaya və insan alverinədək bir çox nalayiq hərəkətlərdə günahlandırılır. Belə təəssürat yaranır ki, Ermənistanda əməlli- başlı kilsə monopoliyası hökm sürür.

Əslində, bu, təəssürat yox, aşkar reallıqdır. Sadəcə indiyədək onun barəsində söz açan yox idi, Paşinyan və tərəfdarlarının sayəsində, necə deyərlər, buzlar əriməyə başlayıb. Proses müqəddəslik maskalarını yırtır. Erməni apostol kilsəsinin keçirdiyi tədbir və tədbirin yekunları ilə bağlı bəyanat isə haqqında söz açdığımız tendensiyaya qarşı müqavimət hissini formalaşdırmaq məqsədi daşıyır.

Baş nazir Nikol Paşinyan bir müddət əvvəl hiddətlə sual vermişdi ki, nəyə görə ümumerməni hərəkatına rəhbərliyi din xadimi etməlidir? Hökumət rəhbərinin sualında bir çox mətləblər var idi. II Qareginin rəhbərliyi ilə gerçəkləşmiş toplantının gündəliyi də onu deməyə əsas verir ki, kilsə özü üçün "vətənin qarşısında duran vəzifələrə, cəmiyyətə təsir göstərən problemlərə", eləcə də özünün missiyası ilə bağlı məsələlərə dair iş aparmaq səlahiyyətləri qondarıb. Yəni, o, dövlət içində dövlətdir, ayrıca sistemdir. Elə bir sistem ki, özünü dünyəviliyin pərdəsi arxasında gizlədərək fəaliyyət göstərir. Elə tarixən də belə olub.

Bəli, II Qaregin və başının dəstəsi Ermənistan hakimiyyətinin erməni kilsəsinə qarşı irəli sürdüyü ittihamları müzakirə predmetinə çevirib. Toplantının bəyanatında bildirilib ki, Tavuşda birtərəfli ərazi güzəştlərinə qarşı ictimai üsyanın baş qaldırdığı günlərdə erməni hakimiyyət orqanlarının müxtəlif nümayəndələri, o cümlədən baş nazir delimitasiya və demarkasiya məsələsindəki məqamlardan istifadə edərək, yenidən Erməni apostol kilsəsinə hücuma keçir, müxtəlif yalan və həqiqətləri əks etdirməyən məlumatlar yayır. Guya, bunlar kilsənin tarixi missiyası və müasir fəaliyyətinə dair həqiqətlərdən uzaq nəzəriyyələrdir.

Sən demə, Paşinyan və onun komanda üzvlərinin kilsə tərəfindən vergilərin ödənilməməsi xüsusundakı ittihamları öz yerində, II Qareginin "şayka"sını daha çox qayğılandıran Nikolun bu günlərdə səsləndirdiyi fikirlər imiş. Baş nazir demişdi ki, erməni kilsəsi həm keçmişdə, həm də hazırda təsir agenti funksiyasını yerinə yetirib. Bəyanatda bununla bağlı deyilir: "Təəssüf hissi ilə bildiririk ki, hazırkı hakimiyyət təhdid, təzyiq və dezinformasiyadan istifadə edərək, kilsə ilə dövlət arasında mövcud olan problemləri ləyaqətsiz şəkildə şişirdir".

Doğrudur, Nikol və tərəfdarları erməni kilsəsinə və onun başında dayanan II Qareginə qarşı, belə demək mümkünsə, qurşaqdan aşağı zərbələr vurmaqla mübarizə aparır və hazırkı durum həqiqətən rəzil mənzərə formalaşdırmaqdadır. Ancaq görünür, başqa yol yoxdur. Mübarizədə bütün üsulların keçərliliyini əsas götürən indiki erməni iqtidarı onu devirmək istəyən qüvvəni neytrallaşdırmağa köklənib. Buna nə dərəcədə nail olur və tam şəkildə qarşıya qoyduğu vəzifənin öhdəsindən gələ biləcəkmi? Gedişatı zaman göstərəcək.

Nəzərə alsaq ki, Erməni apostol kilsəsinin keçirdiyi toplantı və verdiyi bəyanat Paşinyana və komandasına qarşı müqavimət göstərmək əzmidir. Burada hədə-qorxu və xəbərdarlıq motivlərinin mövcudluğu təəccüblü sayılmamalıdır. Belə dəst-xətt kilsənin məkrli demarşından, terrorçu mahiyyətindən qaynaqlanır. Baxın, II Qaregin durumu daha da gərginləşdirəcəyinə dair eyham vurur, faktiki olaraq, geri çəkilməyəcəyini bildirir. Bəyanatdakı fikirlər də gəldiyimiz qənaətin doğruluğunun sübutudur: "Ermənistan hakimiyyətinin nümayəndələri xalq və vətən qarşısında məsuliyyətlərini dərk edərək, ölkə konstitusiyasında təsbit olunmuş kilsənin tarixi vətənpərvərlik və millətçilik rolu haqqında düşünməli, öz siyasətlərinə yenidən baxmalıdırlar".

Sonda onu da deyək ki, Erməni apostol kilsəsinin bəyanatındakı fikirlər onun Ermənistan hakimiyyətinə qarşı barışmaz mövqeyini davam etdirəcəyinin ifadəsidirsə, deməli, Paşinyanın daha qətiyyətli tədbirlərə əl atmasının vaxtı gəlib çatıb. Başlıca vəzifə qətiyyətli davranmağı bacarmaqdır. Nəzərə alaq ki, Nikol parlamentdə bir neçə gün əvvəlki çıxışında ölkəni məhvə sürükləyən amilləri sadalayarkən, mayın əvvəlindən start götürmüş hərəkat barədə də danışmışdı. Doğrudur, Paşinyan hərəkatın məqsədinə çatmadığını dilə gətirmişdi. Bu, həqiqətən də, belədir. Çünki zaman keçdikcə B.Qalstanyan kartının populyarlıq qazanmadığını gördük. Yəni, özü kənarda dayanmış II Qareginin həmləsi uğurlu alınmadı. Onun toplantı keçirməsi də bundan xəbər verir. Düşünmək mümkündür ki, yaxın günlərdə həmin toplantının ictimaiyyətə açıqlanmayan tərəfləri ilə bağlı "fəaliyyət" gerçəkləşdiriləcək. O zaman baş nazir və komandası hansı cavab tədbirləri görəcək? Bu da maraqlıdır. Hər bir halda, Ermənistanda cərəyan edən siyasi proseslər fonunda ortada aydın mənzərə var: hakimiyyət–kilsə qarşıdurması. Bu qarşıdurmanın yekun nəticəsindən Azərbaycan–Ermənistan sülhünün perspektivi asılıdır. Ermənistan adlı dövlətin gələcək varlığı da həmçinin.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Milli Məclisdə müzakirələr

**Mayın 24-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi.**

Əvvəlcə deputatlar cari məsələlərdən danışdılar. Çıxış edənlər Ermənistanda ictimai-siyasi gərginliyin davam etməsindən və bunun əsas təşkilatçısının keşiş Baqrat Qalstanyan adında keşişin olduğunu bildirdilər. Qeyd edildi ki, o, yenidən "izdihamlı" mitinqlər təşkil etməyi planlaşdırır.

Deputatlar İkinci Qarabağ müharibəsində erməni keşişlərin əlində silah gördüklərini və tarix boyu azərbaycanlılarla ermənilərin dinc şəraitdə yaşamasına mane olan əsas qurumlardan birinin də erməni kilsəsi olduğunu diqqətə çatdırdılar. Kilsə bu gün də eyni siyasəti davam etdirir. Əslində, dinlərin əsas vəzifələrindən biri də xalqlar arasında sülhü və barışı təmin etmək olub. Heç bir din insanlığı müharibəyə və düşmənçiliyə çağırmayıb. Ancaq keşiş Baqrat Qalstanyan erməni cəmiyyətinə sülhün alternativinin müharibə olduğunu deyir və insanları müharibəyə çağırır.



Qeyd edildi ki, müharibədən bezmiş erməni xalqı bu saxtakar keşişə və onun arxasında qorxaqcasına gizlənən köhnə rejimin qalıqlarına öz yerini göstərməlidir: "Ermənistanın yeganə çıxış yolu Azərbaycan və Türkiyə ilə normal münasibətlərin qurulmasından keçir. Bunu erməni cəmiyyətinin böyük əksəriyyəti başa düşdüyündən baqratların arxasınca getmir və onları dəstəkləmir" – deyə çıxışlarda bildirildi.

Sonra S.Qafarova iclasda 7 qanun layihəsinin müzakirəsinin planlaşdırıldığını diqqətə çatdırdı. Birinci məsələ – Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2023–cü ildə fəaliyyəti haqqında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova məlumat verdi.

O, Dövlət Komitəsinin 2023-cü ildə öz əsasnaməsində müəyyən edilmiş istiqamətlər üzrə vəzifələrini uğurla həyata keçirdiyini bildirdi. Dedi ki, komitə il ərzində bütün dövlət orqanları ilə səmərəli əməkdaşlıq edib, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə birgə layihələr həyata keçirib, 2023-cü ildə normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində önəmli addımlar atılıb: "2023-cü il ərzində Dövlət Komitəsinin Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən erkən nikah, məişət zorakılığı, sağlam həyat tərzi və reproduktiv sağlamlığın, milli-mənəvi dəyərlər və vətənpərvərlik, insan hüquqlarının təbliği, eyni zamanda, dövlət proqramları və milli fəaliyyət planlarının müvafiq bəndlərinin icrası məqsədilə bir sıra tədbirləri keçirilib. Komitə yerli icra hakimiyyətləri orqanları ilə səmərəli əməkdaşlıq əlaqələri qurub. Komitənin tövsiyəsi ilə bütün bələdiyyələrdə Gender Komissiyaları yaradılıb".

Hesabatla bağlı çıxış edən deputatlar illik məlumatı yüksək qiymətləndirib, sənədin peşəkar səviyyədə tərtib olunduğunu, bütün sahələr üzrə detallı təhlillərin aparıldığını qeyd etdilər və hesabat qənaətbəxş hesab olundu.

Təklif edildi ki, Əmək Məcəlləsinə ailəli və uşaqlı qadınların işə 1 saat gec gəlib, 1 saat tez getməsi ilə bağlı maddə salınsın.

Sonra gündəlikdəki qanun layihələri müzakirə olunaraq müvafiq qərarlar qəbul edildi.

Spiker iclasın sonunda çıxış edərək 4 gündən sonra may ayının 28-də ölkəmizdə Müstəqillik Gününün qeyd ediləcəyini bildirdi . O dedi ki, 106 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xalqımızın zəngin dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi idi. Demokratik və dünyəvi dövlət quruculuğu yolunda atılan inamlı addımlar təkcə ölkəmizin deyil, bütün müsəlman Şərqinin siyasi təkamülündə mühüm rol oynayıb. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnərək 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmişdir.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi, Azərbaycan sistemli böhrandan çıxıb ardıcıl inkişaf yoluna qədəm qoydu. Ümummilli liderimizin inkişaf strategiyasını layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı gələcəyə inamla baxan, geniş bir bölgədə söz sahibi olan qüdrətli dövlətə çevirmişdir".

Sonra Milli Məclis Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanı 28 May Müstəqillik Günü münasibətilə təbrik etdi. S.Qafarova təklif etdi ki, bununla bağlı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya Milli Məclis adından təbrik məktubu göndərilsin.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Kostanın ermənipərəstliyi və Blinkenin Cənubi Qafqazda sülh məntiqi

## ABŞ Dövlət katibinin konqresmenə cavabı nə oldu?

**ABŞ-da bəzi konqresmenlərin aşkar ermənipərəst mövqe tutmaları, Azərbaycana qarşı qərəzli fikirlər səsləndirmələri adi hal alıb. Artıq bu məsələdə baş verənlərə bir o qədər təəccüblənmirik. Görünür, Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarının dirijor çubuğu ilə hərəkətə gələnlərin kökü kəsilməyəcək. Elə konqresmen Cim Kosta da belələrindəndir. Ancaq adamın kökü kəsilmirsə, kələyini kəsək. Hərçənd, bu kəsimin müvəqqətiliyini də bilirik.**

Əslində, Kosta ənənəvi anti-Azərbaycan xətti yürüdən Bill Kesedi kimilərin sırasında təzəcə qərarlaşıb. Ola bilər, "marafona" yeni qoşulub. Qoşulan kimi də ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenlə söz güləşdirmək fikrinə düşüb. Yazımızda Kostanın dövlət katibinə nə dediyini və hansı cavabı aldığını diqqətə çatdıracağıq. Hələlik isə konqresmenin daha əvvəl nələri bildirdiklərindən söz açaq.

Beləliklə, C.Kosta ABŞ dövlətini ittiham edərək soruşub ki, nə üçün Vaşinqton "Ermənistanla bir çox razılaşmaları pozan zaman" Azərbaycan üzərindəki təsir rıçaqlarından istifadə etməyib? Yeri gəlmişkən, Kosta bu sualı Konqresin Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin dinləmələrində səsləndirib. O dinləmələrdə ki, orada Blinken də iştirak edirdi.

"Düşünmürəm ki, biz Azərbaycan Ermənistanla bir çox razılaşmaları pozarkən, ona təsirimizdən istifadə etməmişik. Onlarla müdafiə müqaviləsini nəzərdə tuturam. Hesab edirəm ki, Azərbaycanın etdikləri qınaq obyektidir", - deyə Kosta sərsəmləyib. Lakin konqresmenin cəfəng fikirləri yalnız bundan ibarət olmayıb. O, dünya ermənipərəstlərinin ənənəvi anti-Azərbaycan təbliğatındakı motivləri gündəmə gətirib. Məsələn deyib ki, Bakı Qarabağda etnik təmizləmə aparıb. Ən əsası isə Kosta vəziyyəti dramatik tərzdə təqdim edib. Sən demə, Azərbaycanın Qarabağın köklü əhalisi olan ermənilərə qarşı etdikləri bütün mənəviyyat ideyalarından kənara çıxırmış...

Klassik bir deyim var ki, ABŞ-da birinci qanunlar yaranıb, sonra ona uyğun əxlaq formalaşıb. Bu deyim qanunların mental stereotiplər qarşısında güclü xarakterə malikliyinin göstəricisidir. Yəni, əxlaq fərdidir, qanunların yaratdığı durum isə ictimai mahiyyət daşıyır. Deməli, Birləşmiş Ştatların seçkili hakimiyyətində təmsil olunan şəxslər də qanunların, o cümlədən beynəlxalq hüquq normalarının aliliyi prinsipinə söykənməlidirlər. Lakin indiki halda Kosta özünün ermənipərəstliyə əsaslanmış siyasi əxlaqsızlığı ilə beynəlxalq hüquq normalarını, obrazlı desək, gilyotinə çəkməklə məşğuldur. Bu şəxsin "Qarabağın köklü əhalisi olan ermənilər" ifadəsi isə sırf spekulyasiya yüklü tərbiyəsizliyin bariz göstəricisidir. Yəni, bütün mənəviyyat normalarını aşan onun özüdür, ölkəmiz yox!

Kosta nəzərə almır ki, Azərbaycan Qarabağ ermənilərini evlərindən qovmayıb, ikincilər özləri belə bir qərarı qəbul ediblər. O qərarı ki, erməni avantürizminə perspektiv qazandırmaq mahiyyəti daşıdığı aydındır. Bu "mahiyyətdə" ölkəmizin yurisdiksiyasını heçə saymaq cəhdlərinin mövcudluğunu da görmüşük. Yəni, Qarabağ erməniləri Azərbaycan vətəndaşlığı ilə qəbullanmaq istəmədiklərindən, bölgədən uzaqlaşıblar. Gerçəklik budur.



Konqresmen Kostanın aşkar ermənipərəst kurs götürdüyünü sübuta yetirən daha bir məqama diqqət yetirək. O deyib ki, Birləşmiş Ştatlar Qarabağdan didərgin düşmüş insanlara yardım üçün nəzərdə tutulan dəstəyi 15 milyon dollardan 65 milyon dollara yüksəldib. Sən demə, bu, az imiş. Niyə? Ona görə ki, Ermənistan hakimiyyəti əlavə 200 milyon dollar da tələb edibmiş. Ən əsası isə rəsmi İrəvanın bu istəyinə görə Konqresin Erməni İşləri Komitəsi dövlət katibinə məktub göndəribmiş. Görünür, məktubun aqibəti məlum olmadığından, Kosta məsələ barədə Blinkendən açıq formada soruşmaq qərarına gəlib.

Konqresin Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsindəki dinləmələrlə əlaqədar məlumatlarda Blinkenin Kostaya sözügedən məktub xüsusunda nələri dediyi məchuldur. Dövlət katibi konqresmenin cəfəngiyyatlarını ümumi tərzdə, xeyli dərəcədə konseptual nöqteyi-nəzərdən yanaşaraq cavablandırıb. Deyib ki, baş verə biləcək ən yaxşı şey Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinə dair razılaşmadır. Dövlət katibi bu razılaşmanın hər iki ölkəyə, bütövlükdə, regiona ən yaxşı təsirini göstərəcəyini bildirib. Kostanın əsl isteriyası da Blinkenin diqqətə çatdırdığımız fikrindən sonra başlayıb. Konqresmen ali dövlət rəsmisi ilə mövqeyinin fərqli olduğunu vurğulayıb: "Cənab dövlət katibi, düşünürəm ki, bizim bu məsələdə fərqli mövqelərimiz var. Mən Azərbaycana etibar etmirəm".

İndi isə əvvəldə anons etdiyimiz kimi, A.Blinkenin Kostaya hansı cavabı verməsinə diqqət yetirək. Bu barədə söz açmazdan əvvəl deyək ki, dövlət katibinin cavabındakı saymazyanalıq tonu onun Kostanın kimin sifarişlərini yerinə yetirməsindən xəbərdarlığının göstəricisidir. Məlumdur ki, konqresmen ümumən Azərbaycana inanmamağın, ölkəmizi erməni avantürası üçün qurbana çevirməyin tərəfdarıdır. Rəsmi Vaşinqton isə hazırda Cənubi Qafqaz siyasətində rasional davranır. ABŞ-da yaxşı bilirlər ki, regionda Azərbaycanın iradəsi mütləq şəkildə nəzərə alınmalıdır. Son dövrlər baş verən proseslər də bunun sübutudur. Yəni, heç bir halda ölkəmizə Ermənistan məsələsində nələrsə diktə edilə, hansısa ermənipərəst gündəm sırına bilməz. Rəsmi Bakı özündə bu kimi mənfi təmayüllərə qarşı immuniteti çoxdan formalaşdırıb və illər ərzində bu immunitet xeyli möhkəmlənib. Görünür, ermənipərəstliyə yenicə start vermiş Kostanın durumdan xəbəri yoxdur. Əslində, Blinkenin ona cavabındakı saymazyanalıq da ikincinin naşılığından qaynaqlanır. Dövlət katibi Birləşmiş Ştatların Azərbaycana inamını bircə cümlə ilə ifadə edib: "Bir zamanlar kiminsə dediyi kimi: güvən, amma yoxla".

Sonda onu da deyək ki, Azərbaycan dünyada etimad qazanmış idarəçilik sisteminə malik dövlətdir. İndiki halda ölkəmizin yoxlanılmasına, özü də Kosta kimi saxta mahiyyətli ermənipərəstlərin sözlərinə görə təftişinə ehtiyac və zərurət əsla yoxdur. Heç şübhəsiz, cənab Blinkenə də bu həqiqət yaxşı bəllidir. Ancaq o, sərsəm Kostanı başından eləmək üçün nə isə deməlidir və deyir də. Bizə isə ABŞ-a kostalarsız konqresmenlər arzulamaq qalır. Dedikləri və söylədikləri ilə Birləşmiş Ştatlara dünyada inam və etimad yaradacaq şəxsləri arzulamaq da həmçinin. Axı ölkənin hazırda belələrinin - mütərəqqi ruhlu, hadisə və proseslərə real yanaşan, obyektiv münasibət göstərən tərəfsiz siyasət adamlarının azlığından əziyyət çəkdiyi ortadadır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İlham Əliyev: postmüharibə dövrünün memarı

## V məqalə

***Dünya həmişə o kəslərə hörmət edəcəkdir ki, onun üçün prinsiplər siyasətdən, həqiqət diplomatiyadan daha əhəmiyyətli olsun.***

***Tomas B.MAKOLEY***

### 2 geosiyasi trendin sintezi

Azərbaycan Prezidentinin postmüharibə dövrünün ilk mərhələsində əldə etdiyi nailiyyətlərdən biri geosiyasi əhəmiyyəti olan iki tendensiyanı davamlı trendə çevirməsi ilə bağlıdır. Birincisi, Cənubi Qafqazdan kənarda olan güclərin regiona təsirlərinin minimuma endirilməsidir. İkincisi, trend regional güclərin (Rusiya, Türkiyə və İran) Cənubi Qafqaz kontekstində əsas olaraq barış, sülh, əməkdaşlıq və təhlükəsizlik istiqamətlərində fəaliyyət göstərmələridir.

Postmüharibə dövrünün geosiyasi strukturlaşmasına vurğulanan iki trendin qarşılıqlı əlaqəsində baxılması zərurətini izah etmək olar. Məsələ ondan ibarətdir ki, öncəki tarixi mərhələlərdə Cənubi Qafqazda geosiyasi destruktivlik məhz həmin iki aspektin ziddiyyətlərindən qaynaqlanmışdır. Regiondan uzaq olan böyük güclər yerli şəraiti və xalqların maraqlarını nəzərə almadan özləri üçün faydalı konseptual modellər yaratmış və bunu bütün dünyanın adı ilə Qafqaza tətbiq etməyə çalışmışlar.

Onların niyə tam dünya adından davranmaları ayrı mövzudur. Fakt ondan ibarətdir ki, yaratdıqları geosiyasi nəzəri modellərdə aparıcı yeri özlərinə hansı modelin xeyirli olması mövqeyi mərkəzi yer tutmuşdur. İndi tədqiqatçıların maraqla real geosiyasi-nəzəri baza təlimlər kimi istifadə etdikləri "Hartland" nəzəriyyəsi (H.Makkinder), Z.Bzejinski, H.Kissincer, C.Nay (kiçik) və digərlərinin baxışları bu qəbildəndir.

Əlbəttə, dünyanın böyük güclərini ümumiyyətlə, inkar etmək olmaz. Lakin indi elə bir dövrdür ki, region dövlətlərinin maraqları ön sırada olmalıdır. Kənarda olanlar həmin maraqlara uyğun münasibətlər qurmağa məhkumdurlar. Bu baxımdan əsrlərdir Cənubi Qafqazda "hartlandçı"lardan tutmuş, başqa iddialı geosiyasi güclərə qədər hər bir kənar qüvvənin təsir nisbəti dəyişməli idi. İlham Əliyev buna nail olmuşdur. Bu, tarixi yenilikdir.

Həmin kontekstdə regiondan kənarda olan geosiyasi güclərin təsirlərinin minimuma endirilməsi vacibdir. Buna görə də həm ABŞ-dan qaynaqlanan, həm də Avropa İttifaqına aid olan təşkilatların Cənubi Qafqazda rolu regionun sülh, əməkdaşlıq və təhlükəsizlik maraqlarına ya uyğunlaşdırılmalıdır, ya da ümumiyyətlə, sıfırlanmalıdır. Bu baxımdan İlham Əliyevin Aİ-nin burada münaqişə ilə bağlı uzun illərdir "fəaliyyət" göstərən qurumlarının ləğv edilməsi təklifi regional miqyasda irəliyə doğru atılmış əhəmiyyətli bir addımdır.

Məsələnin ABŞ və Avropadan qaynaqlanan və təhlükəsizliklə əlaqəli çox tərəfləri mövcuddur. Bura ideoloji, informasiya, təxribatçı, kriminal, terror, suiqəsd, dövlət çevrilişləri və s. kimi müxtəlif faktorlar daxildir. Məsələn, "rəngli inqilablar"ın okeanın o tayından qaynaqlandığı haqqında KİV-də kifayət qədər informasiyalar getmişdir. Bu "inqilablar"ın əsasən informasiya, şantaj və kriminal dairələrin fəallaşdırılaraq yerli hakimiyyətin "antidemokratik" və "antixalqçı" obrazını süni surətdə yaratmaqla, onu cəmiyyətin gözündə tam legitimləşdirmək yolu ilə həyata keçdiyi aydın olan faktdır.

İndi bu aspektdə vəziyyət elə də dəyişməmişdir. Ukraynada "rəngli inqilab"ın "bəhrələri"ni Ukrayna xalqı hələ də "dərir" – faciələr və fəlakətlər bu gözəl ölkəni tərk etmir. Gürcüstan "rəngli inqilab"ın bir mərhələsini keçdi, lakin indi dövlətçilik baxımından daha təhlükəli ikinci mərhələsinə qədəm qoymuşdur. Onun iki əlaməti özünü göstərir. Birincisi, Gürcüstan dövlətçiliyi üçün vacib töhfələr vermiş M.Saakaşvili hələ də məhbus həyatını yaşayır. İkincisi, indiki Gürcüstan hökümətini isə... inanmayacaqsınız, Qərbin siyasi dairələri hədələyirlər. Baş nazir İ.Kobaxidze son günlər açıq bəyan etmişdir ki, Avropa İttifaqının komissiyalarından birinin sədri açıq dillə onu da hədələmişdir ki, Slovakiyanın baş nazirinin başına gələnlərdən nəticə çıxarım. Məlumdur ki, Slovakiyanın Baş naziri Robert Fisoya qarşı terror törədilmişdir.

Başqa bir nümunə son zamanlar Qırğızıstanda baş verənlərdir. Orada da kriminal elementlərin (əsasən narkobaronların) əli ilə dövlət çevrilişi etməyə cəhd olmuşdur. Kənardan olan təsirlər nəticəsində xarici tələbələrlə yerli gənclər arasında toqquşma yaranmışdır. Lakin qırğız xüsusi xidmət orqanları peşəkar davranmışlar və bu plan da baş tutmamışdır.

Bu faktlardan aydın görünür ki, sorosçular da daxil olmaqla, "rəngli inqilab" aşiqləri hələ də postsovet məkanından əl götürmürlər. Onlar hətta yeni cəhdlər göstərir və bura informasiya təxribatları, diversiyalar, yerli hökumətlərə qarşı sui-qəsdlər, terror və iğtişaşlar daxildir. Şübhəsiz ki, Cənubi Qafqaz da bu kimi silkələnmələrə həssasdır.

### Liderin dörd məqamı

Bunların fonunda Azərbaycan Prezidentinin fəaliyyətinin dörd məqamına baxmaq maraqlıdır:

Birinci məqam, İlham Əliyevin İranla münasibətləri yeni səviyyəyə yüksəltməsi ilə bağlıdır. İran kimi böyük regional dövlətlə əlaqələri inkişaf etdirmək, bütövlükdə, Cənubi Qafqazda bir çox riskləri önləmək deməkdir.

İkinci məqam, Ermənistan rəhbərliyinin delimitasiya istiqamətində irəliyə doğru addım atması ilə əlaqəlidir. Rəsmi İrəvan getdikcə daha qətiyyətli şəkildə Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərə uyğun olaraq regional miqyasda fəaliyyət göstərir. Təbii ki, proses hələ tamamlanmamışdır, lakin Azərbaycan rəhbərinin həlledici rolu aydındır.

Üçüncü məqam, Belarus Prezidenti A.Lukaşenkonun İlham Əliyevin regionun aparıcı, müəyyənedici və nəzarətedici lideri adlandırmasıdır.

Nəhayət, dördüncü məqam Tacikistan Prezidenti İ.Rəhmonun Azərbaycana səfəri zamanı strateji xarakterli razılıqların əldə olunmasıdır.

Bunlardan başqa, İlham Əliyevin Türkiyə, Rusiya və Qərb istiqamətində fəaliyyətini nəzərə alsaq, mənzərə tamamlanar. Rəsmi Moskva Azərbycanla münasibətlərin tam konstruktiv və qarşılıqlı anlaşma xarakterində olduğunu dəfələrlə bəyan etmişdir. Türkiyə Prezidenti növbəti dəfə açıq bəyan etmişdir ki, "hər zaman olduğu kimi can Azərbaycanın yanındayıq". Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin ABŞ-a son səfərini iki ölkə arasında əlaqələrdə yeni dönüş məqamı kimi qiymətləndirirlər. Bunu Amerika tərəfinin ritorikasını müsbətə doğru yeniləşdirməsi fonunda ifadə edirlər. Aİ sərhəd delimitasiyası prosesini alqışlamaqla yanaşı, Azərbaycanın yeni səviyyədə enerji təhlükəsizliyinin təminində mühüm rol oynadığı haqqında fikirlər ifadə edir. Bu kontekstdə Bolqarıstan Prezidentinin Azərbaycana səfəri maraqlı təəssürat yaratmaqdadır.

### Region dövlətlərinin təhlükəsizliyi

Prezident İlham Əliyevin yuxarıda vurğulanan siyasi-diplomatik fəaliyyətini vahid məntiq çərçivəsində bütöv regional kontekstdə ümumiləşdirsək, ifadə etdiyimiz tezisin təsdiqi üçün olduqca maraqlı mənzərə alarıq. Konkret şəkildə aydın olur ki, İlham Əliyev məharətlə kənar qüvvələrin regiona mənfi təsirini minimuma endirmişdir və buna paralel olaraq regionun böyük dövlətlərinin "Cənubi Qafqazın geosiyasi qalxanı" funksiyasını yerinə yetirmələri istiqamətində bir addım da irəli atmalarını stimullaşdırmışdır. Bu bağlılıqda İlham Əliyevin regionun postmüharibə dövrünün arxitektoru kimi daha dolğun obrazı yaranmaqdadır. Vurğulanan faktlar fonunda bu obrazın fəlsəfi anlamı, hesab edirik ki, politoloji əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti artıq bütün region dövlətlərinin maraqlarını yüksək səviyyədə qoruyan liderdir! Ermənistan və Gürcüstanla bağlı baş verən son hadisələr və böyük güclərin Azərbaycanla münasibətlərində görmək istədikləri məzmunu bunu təsdiq edir. Çox əhəmiyyətlidir ki, İlham Əliyev güclü dövlətlərlə münasibətləri cəsarətlə regionun sülh, əməkdaşlıq və təhlükəsizlik maraqlarını bütöv nəzərə alan məcraya yönəldə bilmişdir. Bu, müasir Avrasiyanın geosiyasi tarixində ilk hadisədir. Onun nəzərə alınması artıq ən müasir geosiyasi təlimlər üçün zərurət olmuşdur!

Bunlar Azərbaycan Prezidentinin postmüharibə dövrünün memarı kimi fəaliyyətinin regional miqyasda güclü təsirinin mövcudluğunu ifadə edir. Deyə bilərik ki, İlham Əliyevin vurğulanan aspektdə liderlik fəaliyyətinin fəlsəfi anlamının digər cəhəti böyük güclərin Cənubi Qafqazda maraqlarını yeni nisbətdə tarazlaşdırmaqla bağlıdır. Liderliyin bu aspekti postmüharibə dövrü üçün olduqca əhəmiyyətli yenilikdir. Nəyə görə?



Məsələ ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikasının xarici siyasətində böyük güclərin maraqlarının tarazlaşdırılması ərazi bütövlüyünün təmini kontekstində idi. Həmin mərhələdə Ulu öndər yüksək zəkavi səviyyədə milli ideyanın reallaşması üçün davamlı addımları müəyyən etmişdi və onun sayəsində konkret siyasi və geosiyasi məqsədlərə çatmaq nəzərdə tutulmuşdu.

Birincisi, Azərbaycan Respublikası dövlətinin müstəqilliyi və suverenliyini tam təmin edə bilən dövlət olduğunu beynəlxalq aləmə nümayiş etdirməkdən ibarət idi.

İkincisi, milli ideyanın ərazi bütövlüyünü təmin etməkdən ibarət məzmununun tam reallaşmasından sonra Azərbaycan Respublikasının hüquqi demokratik dövlət kimi daha geniş miqyasda və əhatəli geosiyasi məkanda fəaliyyətini uğurla davam etdirmək qüdrətində olduğunu sübut etdirməkdir.

Üçüncüsü, Azərbaycan Respublikası dövlətinin geosiyasi mənada özünün yeni tarixi mərhələsini müəyyən edərək, qarşısına qoyduğu məqsədlərə regional və dünya miqyasında çatmaq qüdrətində olduğunu sübut etməkdir.

Sonuncu tezisi bir qədər geniş izah etməyə ehtiyac vardır. Müstəqil dövlətin konsepsiya ilə yanaşı, praktiki olaraq qarşısına qoyduğu məqsədlərə çatmaq qabiliyyətində olduğunu realpolitika çərçivəsində konkret fəaliyyətlə təsdiq etməsi mütləq şərtdir. Gözəl məqsədlər müəyyən etmək və ona uyğun məntiqi ziddiyyəti olmayan nəzəriyyələr yaratmaq olar. Lakin onların praktiki reallaşma mexanizmləri dəqiq, işlək və nəticəverici olmasa, dövlətçilik yerində saymış olur, cəmiyyət isə özünü yüksək ideallarla aldadır. Deməli, nəzərdə tutulan işlərin reallaşması sonucda liderin kimliyini və dövlətin taleyini müəyyən edir.

Azərbaycan Respublikası XXI əsrdə dövlətçilik baxımından yeni təsir dairəsinə yüksəlmək üçün ilk mərhələdəki nailiyyətləri yenidən düzgün təhlil edib, real vəzifələri müəyyən etməli idi. Xarici siyasətdə bu, başqa məqamlarla yanaşı, yeni şərtlər daxilində böyük güclərin geosiyasi maraqlarını milli marağımıza nisbətən müəyyənləşdirməyi tələb edirdi. Bu da siyasi-diplomatik praktikada, birincisi, regional miqyası aşan və sistemüstü şəbəkə diplomatiyasını ifadə edən fəaliyyət kursunu müəyyənləşdirməyi tələb edir: İkincisi, regiona təsir göstərən hər bir geosiyasi güclə ayrılıqda və kompleks halında buradakı maraqlarını məharətlə tənzilləməyi ön sıraya çıxarır. Həm də bu prosesi hər bir geosiyasi oyunçunun maraqlarını nəzərə alan proqramların həyata keçməsi üsulu ilə reallaşdırmaq lazım gəlir. Çünki başqa halda, bu, ancaq yaxşı vəd olaraq qalır.

Bütün bunlar avtomatik surətdə üç mühüm vəzifəni ortaya çıxarır:

Birincisi, konkret strateji məqsədin müəyyən edildiyi yeni tarixi mərhələnin ümumi siyasi və geosiyasi konturlarını müəyyənləşdirmək.

İkincisi, həmin mərhələdə uğurlu olacaq yeni milli ideyanın məzmununu müəyyən etmək.

Üçüncüsü, yeni mərhələdə böyük güclərin maraqlarının yeni nisbətini Azərbaycanın uğurlu fəaliyyətinə dəstək verə biləcək aspektdə müəyyən etmək.

İlham Əliyev artıq bu vəzifələrdən ikisinin – yeni tarixi mərhələnin siyasi və geosiyasi konturlarını və böyük güclərin regional maraqlarının milli maraq fonunda yeni nisbətini müəyyənləşdirməyin öhdəsindən gəlmişdir. Şübhə yoxdur ki, yaxın zamanlarda Azərbaycan Prezidenti cəmiyyətin də ciddi müzakirəsindən sonra yeni milli ideyanın çox lakonik və real məzmununu bəyan edəcəkdir.

Bu məqamı postmüharibə dövrünün arxitekturasının mərkəzi punktu kimi təsəvvür etsək, Prezident İlham Əliyevin həmin prosesin memarı kimi liderlik fəaliyyətinin növbəti strateji məqamının fəlsəfi dərkinə baş vura bilərik. Konkret olaraq liderliyin hansı keyfiyyətini nəzərdə tuturuq?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Azad edilmiş kəndlərimiz bayrağımızın kölgəsində




**Mayın 24-ü Azərbaycan tarixinə düşəcək günlərdən biri oldu. Məhz dünən dövlət suverenliyimizin təmin olunması istiqamətində daha bir addım atıldı: Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü.**

## *Qazaxın işğaldan azad edilmiş 4 kəndində dövlət bayrağımızın ucaldılması Prezident İlham Əliyevin qətiyyətli siyasətinin və iradəsinin nəticəsidir*

Nəzarətə götürülən kəndlərdən Prezident İlham Əliyevə məruzə olundu. Dörd kəndin ərazisində Azərbaycan Bayrağı ucaldıldı.

Baş nazirin müavini Şahin Mustafayevin xidmətinin yaydığı məlumatda bildirildi ki, mayın 15-də iki ölkə arasında sərhəddə Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, habelə Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə komissiyanın növbəti 9-cu görüşü keçirilib. Delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilib və bununla ərazisi 6,5 kvadratkilometr olan Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılması təmin edilib.

Zənnimizcə, dörd kəndin işğaldan azad olunmasından bəhs edərkən, onların işğal tarixinə nəzər yetirmək də doğru olardı. Ötən əsrin 80-ci illərinin sonlarında başlanan Ermənistan–Azərbaycan münaqişəsinin ilkin mərhələsində Qarabağdan kənarda gərginlik yaşayan ilk sərhədyanı ərazilərdən biri Qazax rayonu idi. Azərbaycan və Ermənistan kəndlərinin qonşu olduğu Qazaxda unikal sərhəd vəziyyəti və bu kəndlərin bəzilərindən ermənilər üçün mühüm olan yolun keçməsi gərginliyin artmasına səbəb oldu. Sərhədin bu hissəsində ilk insident 1990-cı ilin martında Bağanıs Ayrım kəndində baş verdi. Ermənistanı Gürcüstanla birləşdirən yollardan biri, eləcə də Ermənistanın şimal-şərqindəki Tavuş bölgəsində bir neçə mühüm kəndi birləşdirən əsas yol boyunca yerləşən Bağanıs Ayrım qonşu kəndlərdə ermənilər tərəfindən potensial təhlükə hesab edilirdi. Buna görə də, erməni quldurları martın 4-də kəndə silahlı basqın edərək, iki nəfəri öldürüb, iki nəfəri isə yaralayıblar.

Bundan 20 gün sonra, yəni martın 23-dən 24-nə keçən gecə Bağanıs Ayrım kəndi əvvəlcədən qurulan plan əsasında hücuma məruz qalıb və martın 24-ü səhər saatlarında ermənilər tərəfindən işğal olunub. Bununla da Bağanıs Ayrım ermənilərin işğal etdiyi ilk Azərbaycan kəndi kimi tarixə düşüb. İşğal zamanı kəndin əli silahsız, mülki əhalisinə qarşı qətliam törədilib. Səkkiz soydaşımız qətlə yetirilib. Onlardan 5 nəfəri diri-diri yandırılıb. Yüzdən çox evi olan kənd talan edilib, əhalinin kənddən çıxara bilmədiyi ev əşyaları və mal-qara ermənilər tərəfindən aparılıb. Ümumiyyətlə, ermənilər Qarabağ müharibəsinə başlayarkən ilk qırğını Bağanıs Ayrımda törədiblər.

1992-ci ildə isə Qazaxın üç qeyri-eksklav (Xeyrımlı, Aşağı Əskipara və Qızılhacılı) və üç eksklav (Yuxarı Əskipara, Barxudarlı və Sofulu) kəndi də ermənilər tərəfindən işğal olunub. Xeyrımlı 1992-ci il martın 8-də, Aşağı Əskipara martın 12-də, Qızılhacılı mayın 11-də, Yuxarı Əskipara iyunun 8-də, Barxudarlı və Sofulu isə aprelin 27-də ermənilərin nəzarəti altına keçib.

Birinci Qarabağ müharibəsinin başa çatmasından sonra da şərti sərhədin bu hissəsi ən qeyri-sabit ərazilərdən biri olaraq qalmaqda idi. 1994-cü ildən 2020-ci ilədək davam edən və şərti olaraq "atəşkəs dövrü" adlandırılan müddətdə Müdafiə Nazirliyinin yaydığı məlumatlarda Ermənistan qoşunlarının sərhədin bu hissəsindən atəşkəsi pozduqlarına dair tez-tez xəbərlər eşidilirdi.

Kəndlərin bir güllə belə atılmadan, qan tökülmədən, danışıqlar yolu ilə qaytarılması, heç şübhəsiz, ölkəmizin növbəti uğuru, ardıcıl qələbələr qazanan Azərbaycanın və onun dövlət başçısının növbəti parlaq Zəfəridir. Azərbaycanın bir qarış torpağından, o cümlədən Qazax rayonunun işğal altındakı kəndlərindən də imtina etməyəcəyi hər kəsə aydın idi. Dövlətimizin başçısı qeyri-anklav kəndlərin qaytarılması məsələsini 2020-ci ildən qaldırmışdı və ötən müddət ərzində mövzu daim gündəlikdə saxlanılırdı. Bu istiqamətdə ardıcıl iş aparılırdı. Yada salmaq yerinə düşər ki, hələ 2023-cü il oktyabrın 7-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Prezident İlham Əliyevə zəngi zamanı dövlətimizin başçısı ölkəmizin 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulamışdı.

Prezident İlham Əliyev 2024-cü ilin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı məsələni yenidən gündəmə gətirərək demişdir: "Bizim mövqeyimiz çox ədalətli və məntiqlidir. Ya siyasi metodologiya əsas götürülməlidir, ya xronologiya götürülməlidir, ya da biz bütövlükdə heç bir xəritə əsasında işimizi qurmamalıyıq. Komissiya yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır.

O ki qaldı, işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. O kəndlər ki, anklav kəndlərdir, – çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, – həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir. Yəni, bizim mövqeyimiz bundan ibarətdir..."

2024-cü il martın 10-da, yəni sərhəd komissiyalarının yeddinci iclasından üç gün sonra, baş nazirin müavini Şahin Mustafayevin xidməti Ermənistandan Qazax rayonundakı dörd qeyri-anklav kəndi dərhal geri qaytarmağını tələb etdi. İki gün sonra baş nazir Nikol Paşinyan mətbuat konfransı keçirərək ölkənin de-yure sərhədini göstərmək üçün Ermənistan xəritəsinin maketini nümayiş etdirdi. O, yerli auditoriyaya Azərbaycanın tələb etdiyi kəndlərin Ermənistan ərazisi daxilində olmadığını izah edərək bildirdi ki, nə sovet dövründə, nə də postsovet dövründə Ermənistan ərazisində bu adda kəndlər heç vaxt olmayıb.

Nəhayət, aprelin 19-da Ermənistan tərəfi 30 ildən çox işğal altında saxladığı 4 kəndin qaytarılması razılaşdı. İki ölkə arasında yaradılmış komissiyaların səkkizinci görüşündə bununla bağlı razılığa gəlindi.

Mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev delimitasiya və demarkasiya prosesinə də toxundu. Dövlətimizin başçısı dedi: "Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar. Bu gün Qazaxın 1990-cı və 1992-ci illərdə işğal edilmiş torpaqları bir güllə atılmadan bizə qaytarılır. Delimitasiya, demarkasiya bizim şərtlərimiz əsasında həyata keçirilir və bu, bizim növbəti zəfərimizdir".

Bəli, Qazaxın kəndlərinin bir güllə atılmadan qaytarılması Prezident İlham Əliyevin qətiyyətli siyasətinin və iradəsinin nəticəsidir. Bu, 2016-cı ilin Aprel döyüşləri ilə əsası qoyulan, 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri ilə davam etdirilən zəfərlərimizin davamıdır. Bu hadisə Prezident İlham Əliyevin xalqımız və dövlətimiz qarşısında növbəti mühüm tarixi xidmətidir. Çünki məhz Prezident İlham Əliyevin hərbi və siyasi-diplomatik sahədə müəyyənləşdirdiyi xətt üzrə hərəkət edən Azərbaycan dövləti Ermənistanı beynəlxalq hüquqa hörmətlə yanaşmağa vadar etdi. Bu hadisə "Sözümüz imzamız qədər dəyərlidir" kəlamının müəllifi olan Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağı ilə bağlı hələ 2003-cü ildə doğma xalqına verdiyi sözə sadiqliyinin nümayişi oldu. Birmənalı şəkildə demək olar ki, cənab İlham Əliyev kimi dövlət başçısı olan bir ölkəni qarşıda yalnız yeni qələbələr gözləyir.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** "XQ"yə açıqlamasında bildirdi ki, Azərbaycan rəhbərliyi ötən müddət ərzində hələ də işğal altında qalan kəndlərin azad edilməsi istiqamətində iş aparırdı. Onun sözlərinə görə, dövlət başçımız bu istiqamətdə çox uğurlu adımlar atıb: "Prezident İlham Əliyev həm verdiyi müsahibələr, həm də keçirdiyi görüşlər zamanı bu məsələyə münasibət bildirib. Azərbaycan bu məsələdə prinsipial mövqe tutub və suveren ərazilərinin azad edilməsi məsələsinə xüsusi önəm verib. Bu hadisə özlüyündə Azərbaycanın iradəsindən, dövlət başçımızın qətiyyətindən xəbər verir".



F.Sadıxov onu da bildirdi ki, kəndlərin danışıqlar yolu ilə qaytarılması da əhəmiyyətə malik məqamdır. Qarşıdakı dövrdə Ermənistanın hələ də işğalda saxladığı qeyri-eksklav kəndlər də qaytarılmalıdır. Biz bu məsələdə də qəti addımlarımızı atmalıyıq.

***Səxavət HƏMİD***
***XQ***

**Dünyanın ən çətin işinin qanmazı qandırmaq olduğu barədə çox eşitmişik. Amma bu işin niyə mümkün olmadığının səbəblərini ağlımız dünyanın gərdişi-rəftarını tam dərk edəndən sonra anladıq. Amma uzun müddət məşhur detektiv Şerlok Holmsun "istənilən çətin vəziyyətdən mütləq bir çıxış yolu var" prinsipinə söykənərək, hətta qanmazı da bir yolla başa salmağın çətin olmadığını düşünürdük. Amma elə deyimiş. Bunu son otuz ildə Azərbaycan xalqı bütün duyğu üzvləri ilə hiss etdi, yaşadı və gələcək nəsillərin də heç vaxt unutmayacağı gerçəyin canlı şahidi oldu. Sağalmaz şovinizm xəstəliyinə yoluxmuş qonşu hayların bizə qarşı islaholunmaz düşmənçiliyini, torpaqlarımızdan "şizofrenikcəsinə" pay ummasını, murdar və bəd əməllərini boynumuza yükləmək həyasızlığını, sülhə gəlməməyin qatır tərsliyini görəndən sonra tam əmin olduq ki, dünyanın ən çətin işinə əncam çəkmək, doğrudan da, hünər və iradə xaricindədir.**

# Anlamamaq azarı

## yaxud itirilə biləcək fürsət

### Reallıqla tarixiliyin fərqi

İndi müşküllüyü qədər də ağır olan bu missiyanı yerinə yetirmək Ermənistan baş naziri Nikol Paşinyanın qismətinə düşüb. Ağır missiyadır, amma onu həyata keçirməkdən başqa seçimi qalmayan Paşinyan üçün bu, həm də "olum–qalım" məsələsinə çevrilib. Bəli, iki əsr boyu batmanla yeridilən azarı misqalla müalicə etmək asan deyil. Burada səbir və təmkinlə yanaşı, eyni zamanda, cəsarət tələb olunur. Paşinyanın qarşısında müharibədə məğlub olmuş, qıcığından "revanş zəncirini" çeynəyən və bu səbəbdən müalicəyə çətin gələn erməni cəmiyyətinin böyük əksəriyyəti durur.

Ermənistan və Azərbaycan arasında tərəflərin arzuladığı sülhün sərhədlərin delimitasiya və demarkasiyasından keçdiyi artıq heç kəsə sirr deyil. Bunu Hayastan isteblişmentinin də qəbul etdiyini səsləndirdikləri bəyanatlardan bilirik.

"İndi mən böyük əminliklə deyə bilərəm ki, təhlükəsizliyin legitimlikdən daha güclü və effektiv təminatı yoxdur". Ermənistan parlamentində təşkil olunmuş "hökumət saatı"ndakı çıxışında baş nazir Nikol Paşinyan belə deyib. O, hakim "Mülki müqavilə" partiyasından olan deputatın sərhədlərin delimitasiyası prosesinin hansı xəritələr əsasında aparıldığı barədə sualını cavablandırarkən bildirib ki, SSRİ-nin dağılması zamanı "de-yure" mövcud olan sərhədlər təkrar yerinə qaytarılır, yəni yeni sərhəd yaradılmır. "1988-ci ildə demarkasiya işləri ətrafında çox danışılır. Əvvəla, bir daha vurğulayıram: burada qeyd olunanlar tamamlanan işin nə vaxt və necə qüvvəyə minməsidir. Əlimizdəki sənədə görə, bu iş hüquqi prosedurlardan keçmədiyi üçün hələlik "de-yure" qüvvəyə minməmişdir. Yəni, onun heç bir hüquqi qüvvəsi yoxdur. İkincisi, bu iş əsasında xəritələr yaradılmayıb", – baş nazir deyib.

Sonra Paşinyan delimitasiyanın aparıldığı xəritələri parlamantarilərə nümayiş etdirib. Bunlar 1969-cu ilin xəritələrinə əsaslanan 1976-cı ilin inzibati xəritələridir. "Biz olduqca diqqətli iş apararaq xəritələrdə Ermənistanın sərhədlərinin bütün perimetrini əks etdirmişik. Bağanis, Voskepar, Kirants, Berkaber kəndlərində SSRİ dağılan zamanı mövcud olan sərhədlərin "de-yure" bərpası ilə bağlı hüquqi qüvvəyə malik xəritələr əsasında demarkasiya apardıq", – deyə Ermənistanın baş naziri bildirib.

### "Deyirsiniz ki, İrəvanı itirək?"

Daha sonra Paşinyan çıxışında bildirib ki, əvvəllər parlamentdə müxalifətlə müzakirələr olub, Ermənistanın suveren ərazisinin neçə kvadratkilometr olması ilə bağlı sual qaldırılıb, amma bu suala konkret cavab verilməyib: "İndi biz Ermənistan ərazisinin 29 min 743 kvadratkilometr olduğunu deyirik. Bu, indiki real Ermənistan anlayışıdır, tarixi Ermənistan təfəkkürünün daşıyıcısı olanlar bu məntiqi düzgün dərk etməlidirlər".

Ermənistan baş naziri ölkə parlamentində çıxışı zamanı onu da qeyd edib ki, "gələnlər deyirlər ki, guya, biz heç bir qarşılıq gözləmədən hərəkət edirik. Amma mən deyirəm ki, bu düşüncə birbaşa dövlətsizliyə, suverensizliyə, vətəndaşsızlığa gətirib çıxarır".

Paşinyanın bunun ardınca dediklərini separatçılara və revanşistlərə ismarıc kimi qəbul etmək olar: "İrəvanın mərkəzindəki kafedə oturub Qarsı xəyal edən insanlar yəqin ki, bununla İrəvanın özünü itirmək istəyirlər. Baxın, real və tarixi Ermənistan arasındakı fərq bundan ibarətdir. Həmin adamlar istəyirlər ki, real Qafanda oturan insanlar Zəngilan və ya, necə deyərlər, Sanasarı xəyal etsinlər və bunun sayəsində də tarixi Qafanı itirsinlər. Əslində, bu, konseptual məsələdir. Real Ermənistan gələcəklə bağlı məsələdir. Biz deyəndə ki, gələcək var, bu, elə gələcəkdir". Paşinyan əlində tutduğu xəritəni parlamentarilərə göstərib: "Bu, real Ermənistan konkretdir. Biz onun sərhədini bilirik və onun təhlükəsizliyini səhərdən-axşama qədər soruşmaqla deyil, qanuni mövqeyimizdə dayanmaqla təmin edirik".

Başqa sözlə, Nikol Paşinyan qanunverici orqanda təmsil olunanların nəzərinə çatdırır ki, Azərbaycanla sərhəd "Dağlıq Qarabağ münaqişəsi" başlayana kimi mövcud olan, işğala qədərki xətdən keçəcək. O, dolayısı ilə cəmiyyətə otuz il bundan qabaq başladılan münaqişənin və işğalın yanlış olduğunu anlatmağa çalışır. Özü də yaxşı bilir ki, bu həqiqəti hay cəmiyyətinə qəbul etdirmədən qonşuları Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq, sülh sazişini bağlamaq, eləcə də regional kommunikasiyaların açılmasına nail olmaq mümkün deyil.



### Labirintdən çıxış yolu

Ermənistan baş naziri hazırda iki cəbhədə "vuruşmağa" məhkumdur. Bu zaman onu da yaxşı bilir ki, ölkə daxilindəki çeşidli müxalif qüvvələrin hakimiyyəti devirmək cəhdlərinin qarşısının alınması nə qədər aktualdırsa, xaricdəki tərəfdaşlarının göstərişlərinə əməl etmək bir o qədər qəlizdir. Bakının təklif etdiyi "Qafqaz evi" ideyasını, "3+3" platformasını düşdüyü siyasi labirintdən qurtuluş yolu kimi görməyə başlayan baş nazir Azərbaycanla vasitəçisiz, birbaşa dialoqun real effektini nəzərə almaya bilməz. O, Tavuşda sərhədi müəyyənləşdirən protokolun iki ölkə arasında yekun sülh müqaviləsinə aparan ən doğru yol olduğunun da fərqindədir. Bu reallığı tərəflər kimi, sabiq vasitəçilər olan kənar aktorlar, dünənə qədər "tet-a-tet" təmasları qəbul etmək istəməyənlər də qəbul edir, dəstəkləyir, hətta alqışlayırlar. Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Almatı görüşünün yekunlarından razı qalanların arasında Parisin də olması artıq Cənubi Qafqazda yeni reallıqla barışmağın təzahürü sayıla bilər.

"Biz Ermənistanın da daxil olduğu "3+3" platforması vasitəsilə əməkdaşlığı davam etdirməyə sadiqik". Bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova iki gün əvvəl keçirdiyi brifinqdə deyib. Azərbaycan–İran münasibətlərinin yaxşılaşmasının bütövlükdə Cənubi Qafqaz və Xəzər dənizi regionunda vəziyyətə müsbət təsir göstərəcəyini vurğulayan Zaxarova Kremlin həm bölgə ölkələri, həm də onların qonşuları arasında regional layihələrin inkişafında böyük potensialı gördüyünü qeyd edib. "Xüsusilə, bu məntiq Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin genişləndirilməsi üzrə işimizdə öz əksini tapıb. Biz Bakı və Tehranla, o cümlədən Rusiya–Azərbaycan–İran formatı çərçivəsində, həmçinin "3+3" məsləhətçi regional platformada sıx əməkdaşlığı davam etdirməyə sadiqik", – deyən M.Zaxarovanın bu zaman Ermənistanın adını çəkməməsinin səbəbi Moskva ilə İrəvan arasındakı münasibətlərdə yaranmış müvəqqəti soyuqluqla bağlıdır.

Əslində, Rusiya XİN-in rəsmisinin üstünə fokuslandığı və Ermənistanın da yer aldığı "3+3" platformasın ona gətirəcəyi dividentlərə, yəqin ki, buna Paşinyanın özü də şübhə eləmir. Rusiya, İran, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstanın daxil olduğu "altılıq" kənar müdaxilə olmadan həm ikitərəfli, həm də regional təmaslarda aralarındakı mövcud anlaşılmazlıqları aradan qaldırmağa, daha sonra transmilli layihələrdə birgə əməkdaşlığa başlamağa qadirdir.

Bu fürsəti əldən qaçırmamaq üçün Nikol Paşinyan hakimiyyətinə qarşı daxili təhlükəni tezliklə tam aradan qaldırmalı, ikitərəfli dialoqu intensivləşdirməli və yekun sülh sazişinə imzasını atmalıdır. O ki qaldı cəmiyyətin onun qəbul etdiyi reallıqla barışmaq istəməyən kəsiminə, burada ən doğru variant "gec olar, güc olar" prinsipinə güvənməkdir.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**

**Əhməd QƏŞƏMOĞLU,**
**Tərəqqi və Demokratiya İctimai Birliyinin rəhbəri, sosioloq**



Paşinyan dünyada gedən prosesləri duyur və başa düşür ki, indi onun xalqının, dövlətinin yolu saxta tarixlə qonşulara torpaq iddiaları irəli sürməkdən deyil, onlarla səmimi münasibətdən və sülh yaratmaqdan keçir. Bu, onun müsbət cəhətidir. İntəhası, o, hazırda elə bir ictimai-siyasi şəraitdədir ki, hətta, həqiqəti deməyin özü çətindir. Doğrudan da, tarixi şəraitin elə bir məqamı olur ki, həqiqəti dilə gətirmək təhlükəyə çevrilir. Dünyanın obyektiv inkişaf dinamikasının, reallığın onun özündən və xalqından nəyi tələb etdiyini anlaması Nikol Paşinyanın üstünlüyüdür.

Problemi həll etmək üçün Ermənistan baş nazirinin müasir elmi metodlardan istifadə etməsinə ehtiyac var. O, qarşıya qoyduğu məqsədin vəziyyətdən çıxış yolu olduğuna inanır, amma xalq, kütlə bunu tam qəbul etmir. Bu şəraitdə sərt qərarların qəbulu ölkədaxili fəlakətli durumu daha da gərginləşdirə, onun özünün kürsüsündən məhrum olmasına gətirib çıxara bilər.

Bəli, Paşinyan xalqını sevən adamdır və hakimiyyətdə ona kömək etməkdən ötrü qalmaq istəyir. Amma ictimai fikri dəyişmədən, kütləni həmin həqiqətə inandırmadan bunu etmək çətin olacaq. Bunu bacarsa cəmiyyətin böyük əksəriyyəti dediyimiz məqsədə doğru özü gedəcək. Deməli, indi Paşinyanın əsas işi tərəfdarlarını birləşdirmək, onun həqiqətinə inanan cəmiyyətin potensialını üzə çıxarmaqdır.



# MDB və "rəngli inqilablar" – Bortnikovun "həyəcan təbili"

**(əvvəli 1-ci səhifədə)**

Ancaq Bortnikov MDB ölkələrindəki yeni "rəngli inqilablar" dalğasının əsl hədəfini açıqlamır. O, ümumən bu məkanın qayğısına qalan obrazındadır. Yəni, dediklərindən belə çıxır ki, Rusiya, bütövlükdə, MDB-nin maraqlarını düşünür. Əlbəttə, düşünür. Amma bir məsələ mütləq şəkildə nəzərə alınmalıdır. Əsl məsələ də elə bundadır. Baxın, Qərb dünyası Rusiyaya qarşı ən müxtəlif təsir vasitələrindən yararlanır. Amma nə edirsə, böyük ölçüdə bir o qədər effektiv nəticə yoxdur. Yəni, bu gün Rusiya dirəniş göstərərək ayaqda qalmağı bacarır. Deməli, ölkənin dayaqlarını sarsıtmaq lazımdır. Dayaq isə MDB məkanıdır. Və deməli, əgər MDB ölkələri iqtisadi baxımdan Rusiyaya köklənməmiş müstəqil iqtisadi struktur baxımından çıxış etsələr, Moskva avtomatik olaraq təcriddə qalacaq. Təsadüfi deyil ki, cənab Bortnikov "MDB ölkələrinə hərbi-siyasi və iqtisadi təzyiqlər və müdafiə sahəsində müxtəlif formatlı əməkdaşlıqların tətbiqi davam edir" kimi fikir işlədir.

Rusiya FTX-sinin rəhbərinin ehtiyatlandığı digər məsələ də var. Onun barəsində söz açdığı "rəngli inqilab" ssenariləri üçün regional münaqişələrin alovlandırılması məntiqi aktual əhəmiyyət daşıyır. Bortnikov MDB-nin cənub sərhədləri yaxınlığında silahlıların təlim düşərgələrinin yarandığını bildirir və bunu "anqlo-saksların Mərkəzi Asiyada hansısa şəkildə yer almaq və regiona təsir cəhdlərinin nəticəsi" hesab edir. O, regional münaqişələrin kənardan alovlandırılması tendensiyasından danışarkən, beynəlxalq terrorçu strukturların qidalanmaları naminə əlverişli şəraitin yaradıldığını da vurğulayır.

Bəli, əvvəldə də qeyd etdik ki, cənab Bortnikovun fikirləri adi sayıla bilməz. Bildirdiklərimiz fonunda belə qənaətə gəlmək mümkündür ki, Qərb dünyasında "rəngli inqilab" deyimi aktullığını yalnız keçmişin mübarizə nostalgiyası qismində saxlayır. Əslində isə "rəngli inqilablar" heç də vaxtilə Gürcüstanı və Ukraynanı silkələyən tərzdə nəzərdə tutulmur. Onu da düşünmək olar ki, keçmişin təcrübəsinin ən son sınaq meydanı 2018-ci ildə Ermənistan oldu və müxalif Nikol Paşinyan hakimiyyətə yiyələndi. Ancaq ölkədə yaşanan hazırkı proseslər fonunda Nikolu hakimiyyətə gətirən inqilabın gerçək iqtisadi bazasının mövcudsuzluğu görünür. Diqqət yetirək, inqilab etmiş Ermənistanın inkişafında əsas rolu MDB müstəvisindəki gəlirləri oynayır. Bunun nəyi oldu inqilab? Yalnız ona görə ki, baş nazir kreslosunda Qərbpərəst Paşinyanmı oturub? Sabah Rusiya gəlirlərə "stop" qoysa, Nikolun oturduğu yer ona dar olmayacaqmı? Əlbəttə olacaq...

Deməli, MDB platformasında, ilk növbədə, iqtisadi, yəni Rusiyadan tam kənar, Kremlin təcridinə yönələn sistem formalaşdırılmalıdır. Ayının min oyunu isə bir armudun başındadır. Yəni, məqsəd Rusiyanı çökdürməkdir. Bir daha bildirək ki, Bortnikov böyük ölçüdə məhz buna görə "həyəcan təbili" çalır. Ancaq bu həyəcan barədə MDB-yə üzv dövlətlərin düşünmələri şərtdir. Çünki hazırkı iqtisadi münasibətlər düzənini aradan qaldırmaq ağrılı proses təsiri bağışlayır. Ümumən isə istənilən inqilab ağrılarla, tələtümlərlə müşayiət olunur. Qərb dünyası məhz bu səbəbdən onu özü üçün qətiyyən yaxına qoymur. Özünə arzu etmədiyini başqalarına sırımaq isə həmin Qərb siyasətinin mahiyyətindən irəli gələn ikiüzlü yanaşma və riyakarlıqdan başqa şey deyil.

***R.ƏVƏZ***
***XQ***

# Samvel Babayanın Avropa İttifaqı qarşısında tələbi

## *"Rusiyanın getməsini istəyirsinizsə, Ermənistanın borclarını ləğv edin"*

**Kim danışsa da, gərək o danışmaya. Çünki təmsil etdiyi "dövlət" Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilməyəcəyini görəndə "özü özünü buraxaraq" dabanına tüpürüb qaçıb. Rəhbəri olduğu "ordu" isə bütün silah-sursatı dislokasiya yerində qoyaraq, "elliklə fərarilik" edib. Ona görə də bu adam dilini sakit saxlamalıdır. Amma, hələ də utanmır və gah Rusiyaya badalaq gəlməkdən danışır, gah Azərbaycanı üstələməkdən, gah da Avropa İttifaqı qarşısında şərtlər qoyur. Bu qədər həyasız olandan sonra danışmağa nə var ki?**



Söhbət gorbagor edilərək tarixin zibilliyinə atılmış uydurma "dqr"-in keçmiş komandanı Samvel Babayandan gedir. Onun "A1+" telekanalına müsahibəsinin mətnini "yüksək qiymətləndirən" erməni jurnalist Naira Badalyan bu düşüncəsiz və köntöy adamın fikirlərini "Arminfo. am" saytına olduğu kimi verib ki, həmi bu sabiq "nazirin" təfəkkür səviyyəsi ilə tanış olsun.

Mayın 21-də adıçəkilən saytda verilmiş "Moskva bu gün Ankara ilə ikinci cəbhəni açmaq gücündə olmadığına görə Qafqazdan getməyə hazırdır" adlı yazıda oxuyuruq: "Onlar (Rusiyanı nəzərdə tutur –N.B.) 2012– 2013-cü illərdən başlayaraq 2-3 dəfə yazmırdılar ki, saxlamaq (yəni qorumaq–N.B.) istəmirlər (yəni, Ermənistanın sərhədlərini –N.B.), əgər ermənilər istəyirlərsə, qoy götürsünlər və qorusunlar (Ermənistan – Türkiyə və Ermənistan – İran sərhədlərini – N.B.). Mən bu barədə dəfələrlə bəyanat vermişdim. Bizim bu imkanlarımız yoxdur. Çünki həm maliyyə, həm də şəxsi heyət resurslarımız azdır, peşəkarlar saxlamaq lazımdır, onlar isə yüksək əməkhaqqı tələb edirlər".

"Hətta bu gün ruslar xahiş edirlər ki, siz saxlayın (yəni sərhədləri qoruyun – N.B.) və çoxdan belədir. Əgər Ermənistan hakimiyyəti bunu səsləndirmirsə ... (üç nöqtə N.Badalyanındır – İ.M.). Bizim bu sahəyə məsul olan təhlükəsizlik xidmətimiz hələ 2012-ci ildən bu məzmunlu məktublar alır. Bununla belə rus sərhədçiləri "Zvartnots" aeroportunu Ermənistanın XAHİŞİ ( fərqləndirmə elementi bizimdir – İ.M.) ilə tərk ediblər, Ermənistan – Azərbaycan sərhədlərini isə Bakının TƏLƏBİ ilə".

Samvel Babayanın fikrincə, ermənilərin "Artsax"dan çıxmasından sonra həm Rusiya sərhədçiləri, həm də sülhməramlılar "Artsax"dan və Ermənistandan çıxmalı idilər. Ancaq onlar (sülhməramlılar –N.B.) daha bir neçə ay "Artsax"da qalaraq sonrakı proseslərdə azərbaycanlılarla birlikdə iştirak etdilər.

"Ermənistan ərazisindəki 102-ci Rusiya hərbi bazasına gəlincə, həmin baza 1995-ci il martın 16-da Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında imzalanmış müqavilə əsasında burada yerləşdirilmişdir və 2010-cu il 10 avqust tarixli razılaşma ilə onların mövcudluğu müddəti 2044-cü ilədək uzadılmışdır. Ona görə də baza məsələsinin rusların Ermənistandan getməsi prosesinə dəxli yoxdur (?! – İ.M.). Onlar ( Rusiya Federasiyası – N.B.) deyirlər – əgər istəyirsinizsə, biz teləsmədən gedə bilərik. Moskva regiondakı təsirini itirməkdən qorxmur".

Babayanın fikrincə, Moskvanın Gürcüstan və Azərbaycan üzərində təsirini itirməsindən sonra Kremlin Ermənistana təsir etməsi o qədər də asan olmayacaq: "Qarabağ müharibəsi bunun sübutudur. Rusiya bu gün həmin ərazilərə görə Türkiyə ilə ikinci cəbhə açmağa hazır deyil. O Türkiyə ilə ki, bu gün Qafqaza və Mərkəzi Asiyaya tam nəzarət edir".

Ermənistandakı Avropaya meyilli qüvvələrə üzünü tutan Samvel Babayan o məsələdə də gücü çatmayacaq daşı qaldırmağa cəhd edir: " Qoy onlar (Avropa İttifaqı – N.B.) Ermənistanın 12 milyardlıq dövlət borcunu ( həmin məbləğin dollar, avro, yaxud drama olduğunu deməyi unudur – İ.M.) da, Ermənistanın ödəməli olduğu 800 milyon dollar faiz borcunu da ləğv etsinlər. O zaman Ermənistanın sərhəd qoşunları respublikanın hüdudlarının bütün perimetrlər boyu qoruya bilərlər". Çox maraqlıdır, "hökumət üzvü" olmuş bir adam anlamır ki, Avropa İttifaqı onun tələbi ilə hansısa məbləği mənasız bir dövlətə bağışlamaz.

Nəhayət, bizim əlavəmiz. Bu gün Ermənistanda davam edən xaotik proseslərdən bezmiş, son dörd ildəki rüsvayçılıqlardan yorulmuş bəzi aydın düşüncəli adamların, astadan olsa da, səsi eşidilir: "Biz ölkəmizdən uzaqdakı "dostların" vədlərini bir kənara qoyaraq, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmalıyıq. Əks– təqdirdə erməni insanının həyatında problemlər çox olacaq".

Hətta ziyalılardan biri deyib ki, biz Ermənistana da "Artsax"ın taleyini yaşatmamaq üçün vəziyyəti açıq başla qiymətləndirməyi bacarmalıyıq.

Haqlı mövqedir. Ancaq biz bunu heç kəsə deyə bilmərik. Çünki dövlət başçımızın qənaəti olduqca aydındır: "Biz heç bir ölkənin daxili işlərinə qarışmayacağıq və kiminsə bizim daxili işlərimizə qarışmasına imkan verməyəcəyik".

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# “Üç dənizin əfsanəsi”nin xeyir-dua günü

## Mayın 25-də BTC-yə ilk neftin vurulmasının 19-cu ili tamam olur

**Xəzər regionundan dünyaya qapı açan Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac boru kəməri Azərbaycanla yanaşı, bir sıra ölkələrin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Ölkəmizi Cənubi Qafqaz regionunun liderinə çevirən bu nəhəng enerji dəhlizi 18 ildir ki, sabit və ahəngdar rejimdə fəaliyyət göstərərək xam nefti dünya bazarlarına çatdırır.**




Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin ideya müəllifi isə ümummilli lider Heydər Əliyevdir. Məlum olduğu kimi, Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqli ilə bağlı idi. Heç şübhəsiz, bu məsələdə ölkəmizin maraqlarının qorunması xüsusi aktuallıq kəsb edirdi. Məhz bunun nəticəsi idi ki, əsas ixrac boru kəməri ilə bağlı uzun müddət davam edən danışıqlar Azərbaycanın yeni neft strategiyasının banisi, ölkə Prezidenti Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti sayəsində ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi ilə yekunlaşdı.

Yeri gəlmişkən, Bakı–Tbilisi–Ceyhan xəttinin əsas ixrac kəməri kimi çəkiləcəyi ilk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə dəqiqləşdirilib. Bu, həm də sözügedən kəmərin reallaşmasına dair son siyasi qərarın verilməsi demək idi. Həmin il oktyabrın 29-da isə Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri, eləcə də ABŞ-nin energetika naziri tərəfindən Bakı–Tbilisi–Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsi ideyasını müdafiə edən Ankara Bəyannaməsinin imzalanması ilə bu layihəyə dair ilkin razılaşma əldə olunub.

Sonrakı dövrlərdə Heydər Əliyevin siyasi iradəsi nəticəsində həmin layihəni maraqlı tərəflərlə uzlaşdırıb razılaşdırmaq, beynəlxalq güc mərkəzlərinin dəstəyini qazanmaq, nəhayət, onu imzalamaq mümkün olub. Təsadüfi deyil ki, Ulu öndər 1999-cu il sentyabrın 20-də Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) “Əsrin müqaviləsi”nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdəki çıxışında demişdir: “Mən bu gün bəyan edirəm ki, Azərbaycan neftinin, Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün çox böyük əhəmiyyət daşıyan Bakı–Ceyhan neft kəməri tikilməlidir, istifadəyə verilməlidir.”

Nəhayət, Ümummilli liderin qətiyyəti sayəsində “Bakı-Tbilisi-Ceyhan” layihəsi həyata vəsiqə alıb. ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulun “Çırağan” sarayında “Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş” imzalanıb. Bununla da, “Üç dənizin əfsanəsi” adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı¬–Tbilisi–Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradılıb.

2002-ci il avqustun 1-də BTC neft kəmərinin tikintisini və istismarını həyata keçirmək üçün Kayman adalarında “BTC Co.” şirkəti təsis edilib. Sentyabr ayının 18-də isə Bakıda, Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulub. Kəmərin inşası üçün tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin aprel ayında tikinti işlərinə başlanılıb.

Ulu öndərin qalibiyyətli neft strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi üçün misilsiz xidmətlər göstərən Prezident İlham Əliyevin gərgin əməyi sayəsində 2005-ci ilin yazında tikintisi başa çatdırılmış BTC xam neftin nəqli üçün hazır vəziyyətə gətirilib. 2005-ci il may ayının 25-də Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin BTC-yə vurulmasına start verilib. Həmin gün terminalda quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. İyunun 4-də Ceyhan limanından 600 min barel həcmində Azərbaycan nefti ilə doldurulmuş ilk tanker (“British Hawthorn”) yola salınıb. Həmin ayın 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihələrindən sayılan BTC-nin təntənəli açılış mərasimi keçirilib.

Qeyd edək ki, BTC kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan dəniz terminalınadək 1768 kilometr məsafə qət edir. Onun 443 kilometri Azərbaycan, 249 kilometr Gürcüstan, 1076 kilometri isə Türkiyədən keçir. Kəmərin tikintisinə ümumilikdə, 110 milyon adam-iş saatı sərf olunub. Tikintinin ən intensiv dövründə, təqribən, 22 min adam işə cəlb olunub ki, onların da 80 faizə qədərini yerli əhali təşkil edib. İnşaat işlərinə 4 milyard ABŞ dolları xərclənib. 500 yaşayış məntəqəsinin ərazisindən keçən boru kəməri bütün marşrut boyunca torpağa basdırılıb. BTC-nin obyektlərinə 8 nasos stansiyası (Azərbaycanda 2, Gürcüstanda 2, Türkiyədə 4), 1 təzyiqazaltma və 2 aralıq ərsinburaxma stansiyası və 101 kiçik siyirtmə məntəqəsi daxildir.

Bu nəhəng infrastrukur layihəsinin tikintisi üzrə əsas podratçılar isə Azərbaycan ərazisində CCIC şirkəti, Gürcüstanda “Spi Petrofak” şirkəti, Türkiyə hissəsinin tikintisi üzrə əvvəlcədən təsbit edilmiş qiymətə “açar” təhvili müqaviləsi əsasında BOTAŞ şirkəti olub.

Gündəlik ötürmə gücü 1,2 milyon barel təşkil edən BTC ilə ən yüksək nəql göstəricisi isə 2010-cu ildə qeydə alınıb. Belə ki, həmin il iyulun 21-də kəmərlə 1 milyon 57 min barel xam neft nəql edilib. BTC ilə ən yüksək illik nəqletmə də məhz 2010-cu ildə qeydə alınıb: 286 milyon 214 min barel.

2023-cü ildə konsorsium iştirakçıları layihə ilə bağlı mühüm bir nailiyyəti qeyd ediblər. Belə ki, yanvarın 18-də BTC ilə neft ixracı 4 milyard barel həddinə çatıb. Bu ilin birinci rübündə isə BTC boru kəməri ilə, təqribən, 7 milyon ton xam neft və kondensat Ceyhan terminalında 72 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş boru kəməri vasitəsilə 2024-cü ilin birinci rübünün sonunadək 568 milyon tondan çox xam neft nəql edilib. Xam neft Ceyhanda 5629 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və “Şahdəniz” yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, kəmərlə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri) də nəql olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “AzerGold” ölkəmizə 1,2 milyard manat qazandırıb

**Azərbaycanın dağ-mədən sənayesində səmərəli fəaliyyəti ilə diqqətçəkən “AzerGold” qeyri neft-qaz sektorunun ümumdaxili məhsulda çəkisinin artırılması, ölkəmizin ixrac potensialının yüksəldilməsi istiqamətində fəaliyyətini uğurla davam etdirir.**



Bu sözləri “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov İçərişəhərdə Azərbaycanda zərgərlik sənəti və numizmatika nümunələrinə həsr edilən “Xəzinə” muzey ekspozisiyasının açılış mərasimində çıxış edərkən deyib.

Z.İbrahimov sözügedən sektor üzrə ixracatçı dövlət subyektləri sırasında lider mövqelərdə qərarlaşan “AzerGold”un bugünədək 412 min unsiya qızıl (12,8 ton), 785 min unsiya gümüşün (24,4 ton) ixracını həyata keçirdiyini, əlavə olaraq yerli bazarda 15 min unsiya (0,5 ton) qızıl və 100 min unsiya (3,1 ton) gümüş reallaşdırdığını, eyni zamanda, bu əməliyyatlar nəticəsində əldə edilən ümumi gəlirin 1 milyard 232 milyon manatı ötdüyünü diqqətə çatdırıb.

“AzerGold”un ölkəmizin dağ-mədən sənayesinin inkişafı istiqamətində fəaliyyətindən danışan Z.İbrahimov qeyd edib ki, şirkətin hasilat və istehsal fəaliyyəti fonunda yerli icmalarla iş, ətraf mühitin mühafizəsi, sosial-iqtisadi inkişaf kimi vacib sahələrə davamlı töhfələrin verilməsi də əsas məqsədlər sırasına daxildir.

“AzerGold” QSC İdarə Heyəti sədrinin sözlərinə görə, qurum tərəfindən “yaşıl” iqtisadiyyat, rəqəmsal transformasiya, innovativ həllərin tətbiqi, ekosistemin gücləndirilməsi istiqamətində bir sıra addımlar atılır və gələcəkdə də bir sıra yeniliklər nəzərdə tutulur.

# 20 ildə 4 qat inkişaf

**Mərkəzi Bank sədrinin I müavini Rəşad Orucov Bakıda keçirilən Katastrofik Risklərə Qarşı Dayanıqlı Maliyyə Sistemi Konfransında son 20 ildə Azərbaycan iqtisadiyyatının əhəmiyyətli inkişaf mərhələsi keçdiyini, 4 dəfədən çox böyüdüyünü bildirib.**



Rəşad Orucovun sözlərinə görə, artıq ölkəmiz özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, makroiqtisadi dayanıqlılıq, iqtisadi artımın inklüzivliyi təmin edilib, cəmiyyətin həyat səviyyəsi xeyli yüksəldilib, infrastruktur müasirləşdirilib, iqtisadiyyatımızın instusional mühiti yaxşılaşdırılıb. Azərbaycan maliyyə bazarları da son illər davamlı inkişafla müşahidə olunub.

# Nağdsız əməliyyatlar 1,9 dəfə artıb

**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari ilin aprel ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 6,147 milyon manat (keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə çox) təşkil edib.**



Həyata keçirilən nağdsız ödənişlərin 5,149 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 990 milyon manatı POS-terminallar, 8 milyon manatı isə özünəxidmət terminalları vasitəsilə gerçəkləşdirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 62 faizini təşkil edib.

***XQ***

# Süfrələrimiz çörəkli, anbarlarımız doludur



**Kənd təsərrüfatı sistemində idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı son illərdə həyata keçirilən mühüm tədbirlər sırasında aqroparkların yaradılmasına mühüm önəm verilib. Bu yöndə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə dövlət–özəl tərəfdaşlığı mexanizmləri əsasında ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalı, ilkin emalı və satışının mütərəqqi forması kimi bu cür aqrar müəssisələrin qurulması geniş vüsət alıb. Aqroparkların formalaşdırılması və fəaliyyəti çərçivəsində aqrobiznes sahələrinə sərmayə yatırımı da həm müvafiq infrastrukturun yaradılmasına dövlət tərəfindən investisiya qoyulması, həm də güzəştli kreditlərin verilməsi ilə stimullaşdırılıb.**

Respublikamızda aqroparklar ölkə rəhbərinin 2014-cü il aprelin 16-da imzaladığı “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanına əsasən yaradılıb. Yeni tipli aqrar müəssisələrinin yaradılmasında məqsəd ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və regionlarda işsizliyin aradan qaldırılmasından ibarətdir. Bu müəssisələr aqrar sahədə inkişafı sürətləndirməklə yanaşı, idxaldan asılılığın azaldılmasına, eləcə də ölkənin ixrac potensialının artırılmasına və milli brendlərin yaradılmasına mühüm töhfələr verir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyində ümumi dəyəri 35 milyon manat olan “Ağcabədi Taxıl Aqropark”ının yaradılması da ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılan uğurlu addımdır.

Agentlikdən verilən məlumata əsasən, Sahibkarlığın İnkişafı Fondu tərəfindən bu layihə üçün 9,8 milyon manat güzəştli kredit ayrılıb. Aqroparkın ərazisində bir sıra kənd təsərrüfatı bitkiləri, eləcə də arpa, buğda becərilməsinə başlanılıb. Təsərrüfatda suvarma mənbəyi kimi Yuxarı Qarabağ kanalından istifadə olunması, əkin sahələrinin suvarılmasında isə müasir metodlara üstünlük verilməsi diqqət mərkəzində saxlanılıb.

“Ağcabədi Taxıl Aqropark”ın fəaliyyətə başlaması, ümumilikdə, respublikada taxılçılığın inkişafına göstərilən xüsusi diqqətdən irəli gəlib. Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, son illər bu yöndə yaradılan aqroparklar, eləcə də taxılçılığın inkişafı istiqamətində reallaşdırılan layihələr nəticəsində ölkədə taxıl istehsalı 2003-cü illə müqayisədə 2022-ci ildə 1,5 dəfə artaraq 3 milyon tonu keçib. Bu dövrdə taxılın məhsuldarlıq göstəriciləri buğdada 21,8 faiz, arpada isə 20,5 faiz artımla qeydə alınıb. Ötən il dekabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 223 min ton və yaxud 2022-ci ilin eyni dövrünə nisbətən 2,9 faiz çox dənli və dənli paxlalı bitkilər yığılıb.

Taxılçılıqda istehsal və məhsuldarlıq göstəricilərinin artımını isə bir sıra amillər, məsələn, müasir texnologiyaların bu sahəyə tətbiq olunması şərtləndirib. Yaxud, pivot suvarma sistemlərindən istifadə nəticəsində, təqribən, 50 min hektardan çox iri taxılçılıq sahələrinin suvarılmasında yüksək göstəricilər əldə olunub. Bu sahədə işlədilən yüksək reproduktiv toxumlar hesabına isə keyfiyyət göstəriciləri daha da yaxşılaşdırılıb.

Prezident İlham Əliyev aprelin 16-da Hacıqabulda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında bildirib ki, rayonda yerləşən aqroparkda 4 mindən çox hektarda taxıl əkini aparılıb, məhsuldarlıq hər hektardan buğda üzrə 7 tona yaxın olub: “İndi müqayisə üçün deyim ki, ölkəmizdə orta məhsuldarlıq hər hektardan 3 tondan bir qədər çoxdur. Burada – Hacıqabulda heç vaxt o sahələrdə əkin aparılmamışdır – nə sovet vaxtında, nə müstəqillik dövründə. Çünki su yox idi və torpaq da o qədər münbit deyil. Su olanda, yeni texnologiyalar tətbiq ediləndə, texnika, dövlətin dəstəyi, özəl sektorun fəaliyyəti – bütün bu amillər birləşəndə, bax, biz bu nəticəni görürük –Hacıqabulda hər hektardan 7 ton. Amma torpağı daim münbit olan yerlərdə bu rəqəm daha da arta bilər”.

Son illərdə taxılçılığın inkişafını sürətləndirmək məqsədilə buğda istehsalının sürətli inkişafı ilə əlaqədar müxtəlif normativ–hüquqi aktlar imzalanıb, bu məsələyə dövlət proqramları və hökumət strategiyalarında geniş yer verilib. Eyni zamanda, Prezident İlham Əliyevin 2021-ci il 7 oktyabr tarixli fərmanı əsasında Dövlət Ehtiyatları Agentliyi publik hüquqi şəxsi yaradılıb. Bu quruma ölkəni strateji əhəmiyyətli mallarla, o cümlədən ərzaqlıq buğda ilə təchizatının dayanıqlılığını gerçəkləşdirmək və daxili bazarda qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində mühüm vəzifələr tapşırılıb.

Torpaq–iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəltmək üçün Prezident İlham Əliyevin 2022-ci il iyulun 9-da imzaladığı “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq ötən ildən pivot suvarma tətbiq edilməklə Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına istehsal olunaraq təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının ödənilməsinə başlanılıb.

Bütün bunlarla bərabər, respublikada ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə dövlət başçısının müvafiq fərmanına əsasən, ərzaqlıq buğdaya 2023-cü ildən etibarən 5 il müddətində məhsul subsidiyasının verilməsinə başlanılıb.

Respublikada aqrar sığorta sisteminin təşkili, inkişafı və dayanıqlılığının təmin edilməsi məqsədilə 2019-cu ildə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Aqrar Sığorta Fondu təsis edilib və “Aqrar sığorta haqqında” Qanun qəbul olunub. Bununla da taxılçılıq məhsullarının sığortalanmasına başlanılıb.

Aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi, aqrotexniki xidmətlərə əlçatanlığın reallaşması məsələləri diqqət mərkəzində saxlanılıb və toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi yüksəlib, kənd təsərrüfat sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Qarabağ və Şərqi Zəngəzurun ölkəmizin kənd təsərrüfatına reinteqrasiyası istiqamətində mühüm layihələr həyata keçirilməsi də qarşıya prioritet vəzifə kimi qoyulub. Bu məqsədlə 2022/2023-cü illər mövsümündə artıq 70 min hektardan çox sahə əkinə cəlb edilib. Qısa müddət ərzində bu regionlar üzrə əkin dövriyyəsinə cəlb edilməsi proqnozlaşdırılan sahələrin az qala yarısında təsərrüfat işlərinin aparılması üçün tələb olunan texnika və digər istehsal vasitələri ilə təminatın yüksək səviyyədə gerçəkləşdirilməsi təcrübəsi yaradılıb. Eyni zamanda, azad olunan ərazilərdə taxıl əkininin müasir texnologiyalardan istifadə olunmaqla həyata keçirilməsi üçün minlərlə hektar sahəni əhatə edəcək pivot suvarma infrastrukturunun qurulmasına başlanılıb.

Ölkədə taxılçılığın inkişafına müsbət təsir göstərən amillər sırasında bu sahə üzrə ixtisaslaşan texnikanın sayının davamlı olaraq artması da önəmli rol oynayıb. Belə ki, respublikada son 20 il ərzində müasir kənd təsərrüfatı texnikası, təqribən, 2,8 dəfə artılb.

***Vaqif BAYRAMOV***
***XQ***

# Millətin gələcək taleyinə biganə qalmayaq

**Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bugünün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ona görə də uşaqlara dövlət səviyyəsində hər zaman diqqət və qayğı göstərilir, onların düzgün tərbiyə olunmalarına, problemlərinin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına nəzarət edilir. Bugünkü "dəyirmi masa"nın iştirakçıları uşaqlarla bağlı layihələrin müəllifləridir.**



**"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov** tədbiri giriş sözü ilə açaraq bildirdi ki, bu gün ölkəmizdə çiçəklənmə, in-



kişaf və tərəqqi dolu günlər yaşanır. İşğaldan azad olmuş rayonlarımız, yaşayış məskənlərimiz yenidən qurulur. Otuz ilədək düşmənin viran qoyduğu ərazilərimiz öz həqiqi sahiblərinə qaytarılıb. İndi orada Azərbaycan ailələri yaşayır, evlərdən xoşbəxt uşaq sədaları gəlir. Hər birimizin yalnız bir qayəsi, istəyi var: sülh və əmin-amanlıq mühitində bütün uşaqların, o cümlədən xalqımızın hər bir üzvünün xoşbəxt, sağlam və bərabər imkanlar daxilində yaşaması təmin olunsun.

Ə.Amaşov təəssüflə əlavə etdi ki, uşaqların cəmiyyətə adaptasiyası yolunda çoxlu maneələr, əngəllər qarşıya çıxır. Bu əngəllərdən olan zorakılıq və onun gündən-günə artan formaları dünyanın ən qorxulu ictimai problemlərindəndir. Zorakılıq azyaşlı uşaqlara qarşı yönələndə isə problem daha təhlükəli olur. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, dünyada hər il 1 milyon 500 min uşaq zorakılığa məruz qalır. Uşaqların toxunulmazlığına qəsd edilir, mənəvi inkişafına ziyan dəyir. Statistikaya görə, ilk sıralarda psixoloji və fiziki zorakılıq yer alsa da, kiberzorakılıq, uşaq pornoqrafiyası ilə bağlı müraciətlər də az deyil. Zorakılığın qarşısının alınması üçün düzgün tərtib edilmiş kompleks sosial xidmətlər və mütəxəssislərin doğru müdaxiləsi riskə məruz qalan və sosial təcridolunma səbəblərindən çətin həyat şəraitində olan uşaqlar üçün nəzərdə tutulmuş müdafiənin səviyyəsini artıra bilər.

Uşaqların narkomaniyaya cəlb edilməsini cəmiyyətin ən aktual problemlərindən hesab edən baş redaktor dedi: "Valideyn min bir əziyyətlə övladını böyüdüb cəmiyyətə yararlı vətəndaş kimi yetişdirmək istəyir. Lakin uşaq təsadüf nəticəsində bir qrup cinayətkarın (narkomanın) toruna düşür. Onlar da öz mənafeləri üçün uşaqların, yeniyetmələrin, gənclərin həyatını oğurlayıb, onu yarıda qırırlar".

Uşaqların sağlam, cəmiyyətə yararlı vətəndaş kimi böyüməsi üçün dövlət qurumlarına dəstək olaraq QHT-lərin müxtəlif layihələr həyata keçirdiklərini diqqətə çatdıran baş redaktor qeyd etdi ki, həmin layihələrdə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji reabilitasiyası, gənc ailələrdə uşaqların zorakılıqdan müdafiəsi, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla iş, müharibə iştirakçıları və şəhid övladları üçün sosial proqramların təşkili, uşaq istismarına qarşı mübarizəyə dair sosial işin aparılması, uşaqların narkomaniyadan qorunması kimi vacib məsələlər yer alır. Belə problemlərin yaşanmaması, heç olmasa azalması üçün dövlət qurumları ilə bir yerdə QHT-lər də əsas diqqəti uşaqlara, yeniyetmələrə yönəltmək istəyirlər. Bugünkü "dəyirmi masa"nın məqsədi QHT təmsilçilərinin bu il uşaqlarla bağlı icra edəcəyi layihələr barədə ictimaiyyəti məlumatlandırmaqdır. Necə etməliyik ki, uşaqlar, yeniyetmələr cəmiyyət üçün yararlı vətəndaş olsunlar?

**Məlahət ABBASOVA,**
**"Sahibsiz uşaqlara kömək" İctimai Birliyinin sədri:**



– 2000-ci ildən küçə uşaqlarının problemləri ilə üz-üzəyik. Bu illərdə dəfələrlə yapışqan iyləyən, diş pastasından istifadə edən və digər zərərli vərdişlərə qurşanmış və uçurumun kənarında olan uşaqlarla, himayədarları ilə görüşüb onlara yardım etmişik. Təşkilatımız 2006-cı ildə rəsmi qeydiyyatdan keçib. İlk layihəmiz 2016-cı ildə Bakıda və Nabranda fiziki imkanları məhdud yeniyetmə və uşaqlarla iş məqsədilə icra etdiyimiz "İrəliyə doğru bir addım" olub. 2017-ci ildə Qızıldaş qəsəbəsində "Etibarlı gələcəyin qurulması üçün birgə fəaliyyət", 2019-cu ildə Oğuzda "Regionlarda sahibkarlığın inkişafına dəstək olaq", Oğuz, Zaqatala və Lənkəranda insan alverinə qarşı preventiv addımların atılmasına həsr olunmuş "Köləliyin qurbanı olma!" layihələrini həyata keçirmişik.

2021-ci ilin birinci yarısında təşkilata müraciət edən valideynlərin xahişi ilə C.Məmmədquluzadə (Papanin), Rasim Səfərov, Novruzov qardaşları küçələrində, Sabunçu rayonunda, Maştağada həm könüllü, həm də layihə çərçivəsində iş aparmışıq. Bizə Daxili İşlər, Elm və Təhsil nazirliklərinin, KİV-in əməkdaşları yardım etmişdir. Xüsusilə, DİN əməkdaşları ilə demək olar ki, bütün tədbirlərdə maarifləndirici söhbətlər aparmışıq. Əvvəlki layihələr çərçivəsində biz Qəbələ, Oğuz, Zaqatala, Beyləqan, Lənkəran, Masallı rayonlarında hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə maarifləndirici tədbirlər keçirib, bukletlər, flayerlər, plakatlar paylamışıq. 40-dan çox tam orta məktəbdə, 4 orta ixtisas və 3 ali məktəbdə görüşlər keçirmişik. Bu söhbətləri apararkən biz vacib bir məqamı – valideynlərlə işi unutduğumuzdan düşündük ki, növbəti layihələrimizlə bağlı təşkil edəcəyimiz bütün tədbirlərə valideynlər də dəvət olunsun.

2022-ci ildə Bakı, Oğuz, Qəbələ, Beyləqan, Zaqatalada "Uşaqlar arasında narkomaniya. Zərərli vərdişlər və onların fəsadları və təhlükəsi barədə məlumatlandırmanın keçirilməsi" mövzusunda və Bakı, Masallı və Lənkəranda "Gözəl gələcək üçün sağlamlığı seçirəm" layihələrini icra etmişik. İctimai birlik məqsəd və vəzifələrinə uyğun olaraq, ailədaxili münasibətlərin öyrənilməsi və ailələrin dağılmasının qarşısının alınması istiqamətində xeyli iş görüb. Bu il təşkilat 45 ailəyə hüquqi yardım göstərib, 4 ailədə tərəflərlə söhbət nəticəsində barışıq əldə edib, 17 ailəyə müvafiq orqanlara müraciət üçün sənəd hazırlanmasına kömək göstərib. Nümayəndələrimiz mülki məsələ, əmək hüquqlarının pozulması ilə bağlı məhkəmə proseslərində iştirak edərək vətəndaşların hüquqlarını qoruyub.

İctimai birliyin bu il agentliyə təqdim etdiyi layihə "Uşaqların narkomaniyadan qorunması" adlanır. Layihəyə iyun ayından start verib 2 ay müddətində başa çatdıracağıq. Məqsəd istər orta məktəblərdə, istərsə də bazarlarda, vağzallarda, küçələrdə əhalinin, xüsusilə, uşaqların narkomaniyadan uzaq durması istiqamətində maarifləndirilməsidir. Bütün tədbirlərimizi DİN əməkdaşları ilə birgə icra edəcəyik. Layihə çərçivəsində əhaliyə narkomaniya problemi ilə bağlı maarifləndirici bukletlər də paylanacaq.

**Samirə MUSTAFAYEVA,**
**"Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri:**



– İctimai birliyimiz 2004-cü ildə dövlət qeydiyyatına alınıb. Adından göründüyü kimi, təşkilat gəncləri müxtəlif sahələrdə maarifləndirir, onların sosial rifahının yaxşılaşdırılmasına, bu sahədə dövlətin həyata keçirdiyi tədbirlərə dəstək verir, sağlamlıq imkanları məhdud uşaqlara və ailələrinə sosial, psixoloji və hüquqi yardım edir.

Təşkilatın üzvləri fərqli ixtisas sahibləridir. İndiyə qədər müxtəlif sahələrdə 100-dən çox layihə həyata keçirmişik. Bunlardan Azərbaycan, Gürcüstan, Ermənistan QHT-ləri ilə birgə regional "Qafqaz bizim ümumi evimizdir", "Bakı İslam Dünyasının Mədəni Paytaxtıdır", Sumqayıtda "Xəzərin ekologiyası və ətraf mühitin qorunması üçün yeniyetmə gənclərin maarifləndirilməsi", Gəncə və Mingəçevirdə "10–11-ci sinif şagirdləri üçün test imtahanlarına hazırlıq kurslarının keçirilməsi", Suraxanıda məskunlaşmış qaçqın və məcburi köçkünlər üçün "Kompüter və mühasibat uçotu kurslarının təşkili" adlı layihələri icra etmişik. Amsterdamda və Berlində Azərbaycan həqiqətlərinin təbliği ilə, Londonda ölkəmizin ərazi bütövlüyünün bərpası ilə bağlı tədbirlər keçirmiş, "Erkən nikaha meyil salmağa dəyərmi?", "Erkən nikahla bağlı maarifləndirmə tədbirlərinin təşkili", "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası", "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi qayğı mərkəzi xidmətinin göstərilməsi" (Göyçay rayonu) və digər bir sıra layihələri reallaşdırmışıq.

Bu il həyata keçirəcəyimiz "Gənc ailələrdə uşaqların zorakılıqdan müdafiəsi" adlı layihənin məqsədi uşaqlara qarşı zorakılıqla mübarizənin gücləndirilməsi, belə halların gizlədilməsinin qarşısının alınmasıdır. Layihəni həyata keçirərkən uşaqlara qarşı cinsi zorakılıqla bağlı maarifləndirici məlumatların, internet zorakılığı, uşaqların birbaşa hüquq-mühafizə orqanlarına müraciət imkanları barədə biliklərin yayılmasına, habelə zorakılığa məruz qalmış uşaqlara yardım göstərilməsinə diqqət edəcəyik. Lanzarote Konvensiyasına qoşulmaqla bağlı Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təklifləri hazırlayıb Milli Məclisə təqdim etməyi nəzərdə tutmuşuq.

Layihənin tərəfdaşı Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və regionlarda yerləşən Uşaq və Ailələrə Dəstək mərkəzləri olacaq. Göyçay, İsmayıllı və Qəbələdə reallaşdıracağımız layihədə nəzərdə tutulmuş əhali qrupu zorakılığa məruz qalmış və ya zorakılıq riski altında olan uşaqlar və valideynlərdir. İştirakçıların yaş həddi nəzərə alınmasa da, gender nisbəti gözlənəcək. Risk qrupuna daxil olan uşaqların və onların valideynlərinin, müəllimlərin iştirakı ilə seminar keçiriləcək. Uşaqlara qarşı zorakılıqla bağlı bütün cəmiyyət, müxtəlif yaş qruplarından insanlar əhatə olunacaq.

**Elməddin MURADOV,**
**"Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri:**



– 2006-cı ildə rəsmi qeydiyyatdan keçən təşkilatımız ötən müddətdə yalnız paytaxtda deyil, Ağdam, Tərtər, Mingəçevir, Qəbələ və Şamaxıda bir slra layihələrə imza atıb. İctimai birliyə ad seçərkən düşündük ki, jurnalistika bütün sahələri əhatə edir və inkişaf da həmin sahələrə aid olar. Bakıda müxtəlif ərazilərdə, bir sıra təşkilatlarla əməkdaşlıq çərçivəsində işləmişik. Reallaşdırdığımız layihələrdə bizim seçdiyimiz kontingent, əsasən, yeniyetmələr, gənclər, orta yaşlı insanlar, yəni, polis – vətəndaş münasibətlərinə aid istənilən əhatə dairəsində olanlar iştirak ediblər.

Həyata keçirdiyimiz ilkin layihələr məhkumlarla bağlı olub. Onların sosial həyatı ilə bağlı yaddaş kitabçaları hazırlayıb məhkumlara təqdim etmişik. Jurnalistikaya həsr olunan layihələr icra olunub. Həmin layihələrin rəhbərləri fərqli olsalar da, təşkilat olaraq biz icra etmişik. Bir neçə layihəni reallaşdırandan sonra ictimai birlik olaraq, ixtisaslaşmağa üstünlük verdik. Bir istiqamətə – çox maraqlı və xeyli problemləri olan yol hərəkəti təhlükəsizliyi ilə bağlı sahəyə fokuslandıq. Artıq uzun illərdir ki, bu sahəyə aid layihələri icra edirik.

Təxminən, 12 ilə yaxındır ki, reallaşdırdığımız layihələrin çoxu yol hərəkəti təhlükəsizliyi ilə bağlı olub. Layihəni həyata keçirərkən hədəf seçdiyimiz topluma sürücülər, piyadalar, əlillər, bir sözlə, bütün hərəkət iştirakçıları cəlb edilir. Bunlar bizim seçdiyimiz kontingent sayılır və biz onlarla müxtəlif üsullarla daim ünsiyyətdə oluruq. Tədbirlər, sosial şəbəkələr media vasitəsilə əlaqə yaradır və layihələrimizi icra edirik. 2014-cü ildə QHT-yə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə həyata keçirdiyimiz bir layihədə Avtosfer. az saytını yaratdıq və gördük ki, çox uğurlu alındı. Aprel ayında saytın 10 yaşını qeyd etdik. Media reyestrindən keçərək bir media orqanına çevrildik.

Builki layihəmiz uşaq travmatizminin artması fonunda, əsasən, yeniyetmələrlə bağlı olub, "Uşaq və yeniyetmələri yol qəzalarından qorumaq üçün media vasitəsilə maarifləndirmə və təbliğat" adlanır. Layihəni məkan olaraq qəzaların böyük əksəriyyətinin baş verdiyi Bakıda reallaşdıracağıq. İyunun 15-də dərs ili bitdiyinə görə, orta məktəbdə yalnız bir tədbir planlaşdırmışıq. Ardınca media vasitəsilə maarifləndirici aksiyalarımızı həyata keçirəcəyik. Burada həm sosial şəbəkələr, həm müxtəlif saytlar, eləcə də radionun köməyindən istifadə etməyi nəzərdə tutmuşuq. Çünki sadaladığım bu vasitələrlə cəmiyyətə çıxışımız daha geniş və təsirli olur.

Layihənin icrası zamanı əməkdaşlıq edəcəyimiz qurumlar Daxili İşlər Nazirliyi, Dövlət Yol Polis İdarəsi və Elm və Təhsil Nazirliyi olacaq. Əminliklə deyə bilərəm ki, indiyə qədər həyata keçirdiyimiz layihələrin hamısı uğurlu olub. Çünki dəfələrlə ictimai birliyimiz ən yaxşı layihə icra edən təşkilat seçilib və müxtəlif diplom və hədiyyələr qazanıb. Son vaxtlar belə dəyərləndirilmələr olmasa da, əvvəllər biz təltiflərə layiq olduğumuzu qeyd etməliyik. QHT-yə Dövlət Dəstəyi Şurasının fəaliyyəti dövründə olan bu fərqləndirmələrin davam etməsi təklifini agentliyə təqdim etmişəm. Ümid edirəm ki, təklifimiz nəzərə alınar və layihə rəhbərlərinin fəaliyyətinə stimul vermək baxımından bu, faydalı olar.

Sonuncu layihəmiz iyunun 1-dən başlayacaq və sentyabrın 1-də bitəcək. 3 ay ərzində əminəm ki, biz faydalı bir iş görəcəyik. Builki layihəmizin hədəfi uşaq travmatizminə qarşı mübarizə çərçivəsində cəmiyyətə töhfə verməkdir və düşünürəm ki, bununla bağlı ciddi işlər görməyə ehtiyac var. Layihəmiz böyük məbləğ üzərində qurulmasa da məqsədimizə nail olmağa çalışacağıq.

**Lamiyə İSAYEVA,**
**"Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri:**



– "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyi rəsmi fəaliyyət göstərdiyi 2017-ci ildən bir çox layihələr həyata keçirib. Cəmiyyətdə intiharların yolverilməzliyinin təlqin edilməsi, regionda baş verən belə halların sayının azalmasına nail olmaq məqsədilə "Həyata pozitiv baxaq!" layihəsi çərçivəsində "Özünü sev! İntihar çıxış yolu deyil" adlı kitabça çap edib məktəbli və tələbələrlə keçirilən tədbirlərdə onlara hədiyyə etmişik. Valideyn məsuliyyətinin artırılması, yaşlı nəslə diqqət və hörmətin təbliğ edilməsi, ana və uşaqların psixoloji sağlamlığının möhkəmləndirilməsi, uşaqların, gənclərin milli-mənəvi dəyərlərimizlə tərbiyə olunması, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam və arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılmasını nəzərdə tutan "Sağlam ailə sağlam cəmiyyətin, güclü dövlətin özülüdür" layihəsini icra etmişik. Gəncədə 8 orta məktəbdə həyata keçirdiyimiz "Dövlətimizin inkişafı və tərəqqisi naminə təhsildən yayınmayaq!" adlı layihə ilə qızların dərsə davamiyyəti, bilik səviyyəsi, psixoloji vəziyyəti öyrənilib. "Koronavirus pandemiyasına birlikdə qalib gələk!" adlı layihə çərçivəsində işsiz qalmış, sosial əlaqələri və işgüzar münasibətləri olmayan, aztəminatlı uşaqlı ailələrə ərzaq yardımı göstərilib, vətəndaşlar virusla bağlı ətraflı maarifləndirilib. "Uşaqları və gəncləri məişət zorakılığından qorumaq üçün cəmiyyətin maarifləndirilməsi" layihəsi ilə ölkəmizdə məişət zorakılığına qarşı mübarizə, zorakılığın doğurduğu mənfi hüquqi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkənlərin sosial müdafiəsi istiqamətində regionlarda maarifləndirici tədbirlər həyata keçirmişik. "Dekorativ-tətbiqi sənətdə uşaqların özlərini tapması" layihəsi çərçivəsində isə valideyn himayəsindən məhrum olan, sığınacağa yerləşdirilən uşaqlara Gəncə şəhər gənclər evində 3 aylıq dekorativ-tətbiqi sənət kursu təşkil etmişik. Kursun yekununda uşaqların Gəncə və Bakıda əl işlərinin sərgisi təşkil edilib.

Milli-mənəvi dəyərlərimizin ciddi aşınmaya məruz qalması, ölkədə din azadlığı adı altında uşaqların məqsədli şəkildə ayrı-ayrı təriqətlərə cəlb edilməsinin qarşısını almaq məqsədilə "Uşaqların zərərli dini cərəyanlardan qorunması üçün regionlarda seminarların təşkili" adlı layihə ilə valideynlər maarifləndirilib.

İctimai birliyimiz bu il "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji reabilitasiyası" adlı layihəyə start verəcək. Üç aylıq layihənin Gəncədə həyata keçirilməsi nəzərdə tutulub. Məqsədimiz həssas qrupa daxil olan uşaqlarla yerləşdirildikləri müəssisələrdə fərdi işin aparılması, onlara psixoloq tərəfindən yardım göstərilməsidir. Layihə çərçivəsində dəstəyə daha çox ehtiyacı olan, sığınacaqdakı digər uşaqlara nisbətən daha çox mənəvi, fiziki zərbə alan 12 uşaq layihəyə cəlb olunacaq. Onlara ixtisaslı psixoloq tərəfindən 12 mövzu üzrə yardım göstəriləcək.

**Sənan AĞAYEV,**
**"Sosial İş" İctimai Birliyi İdarə Heyətinin üzvü, layihə rəhbəri:**



– "Sosial İş" İctimai Birliyi 2009-cu ildə rəsmi qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatıdır. İctimai birliyin missiyası Azərbaycanda sosial iş peşəsinin tanıdılması və sosial iş təhsilinin inkişaf etdirilməsidir. 2012-ci ildən Beynəlxalq Sosial İşçilər Federasiyasının üzvüyük. İndiyədək bir sıra yerli, regional və beynəlxalq layihələrin həyata keçirilməsində iştirak etmişik.

Təşkilat 2013-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Dünya Bankının sifarişi ilə sosial işçilər və sosial xidmətçilər üçün milli keyfiyyət standartları və meyarları üzrə sənədin – "Sosial Xidmətlər haqqında" Qanunun hazırlanmasında, 2014–2015-ci illərdə isə Təhsil Nazirliyinin (hazırkı Elm və Təhsil Nazirliyi) sifarişi və maliyyə dəstəyi ilə sosial iş peşəsinin milli standartlarının inkişaf etdirilməsində yaxından iştirak etmişdir. Sosial işlə bağlı layihələr Milli Məclis, müvafiq nazirliklər və komitələr, dövlət qurumları, beynəlxalq və yerli təşkilatlar, eləcə də yerli və xarici universitetlərlə əməkdaşlıq çərçivəsində reallaşdırılıb.

Ölkəmizin Beynəlxalq Sosial İşçilər Federasiyasında təmsil olunması Azərbaycanın mənafelərinin qorunması üçün önəmlidir. Ermənistan Sosial İşçilər Assosiasiyası antiterror əməliyyatı zamanı Beynəlxalq Sosial İşçilər Federasiyasına yanlış məlumatlar vermiş və həqiqəti əks etdirməyən bəyanatın federasiya tərəfindən yayılmasına nail olmuşdu. Bəyanat paylaşıldıqdan dərhal sonra Azərbaycan "Sosial İş" İctimai Birliyinin İdarə Heyəti adından federasiyasının prezidentinə və digər rəsmi şəxslərə Ermənistan tərəfinin yaydığı bəyanatın doğru olmadığı ilə bağlı məlumat ünvanlandı və Beynəlxalq Sosial İşçilər Federasiyası dərhal yaydığı bəyanata düzəliş etdi.

Bu il icra edəcəyimiz layihə "Uşaq istismarı ilə mübarizəyə dair sosial işin aparılması" adlanır. Layihənin məqsədi uşaq zorakılığı ilə mübarizədə potensial sosial işçilərin peşə hazırlığına töhfə vermək və Azərbaycanın da dəstəklədiyi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin "Uşaqlarla pis rəftar, onların istismarı, uşaq alveri və uşaqlara qarşı zorakılığın bütün formalarına və işgəncələrə son qoyma" maddəsinin icrasında iştirakın artırılmasına dəstəyin verilməsidir. Bu məsələdə əsas diqqət uşaq zorakılığının aradan qaldırılması üçün məlumatlılığın artırılmasına, zorakılıqla mübarizədə mexanizmlərin yaradılmasına, zorakılığa məruz qalan uşaqlar üçün keyfiyyətli cavab xidmətlərinə çıxışın təmin edilməsinə, istismara məruz qalan uşaqlara ödənişsiz qayğı, təhlükəsiz, qayğıkeş ailə mühitinin yaradılmasına dəstək göstərilməsinə yönəldiləcək.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq layihəmiz Bakıda potensial kadr hesab edilən sosial iş ixtisası üzrə təhsil alan 20 tələbəyə və gələcəkdə bu sahədə fəaliyyət göstərəcək şəxslərə, uşaq istismarı ilə mübarizə mövzusunda təlim və maarifləndirmə işlərinin artırılmasına dəstək verəcək.

Layihə çərçivəsində seçilmiş sosial iş ixtisasında təhsil alan tələbələrə 3 modulda, 6 təlimdən ibarət proqram keçiriləcək. Layihəni Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Universiteti ilə əməkdaşlıq çərçivəsində icra edəcəyik.

**Zeynəb GÖYÜŞOVA,**
**"Azərbaycan uşaqları" İctimai Birliyinin hüquqşünası:**



– 1993-cü ildən fəaliyyət göstərən təşkilatımız uşaqları, yeniyetmələri və böyükləri özündə birləşdirən, qarşılıqlı yardım, demokratiya prinsiplərinə əsaslanan könüllü birlikdir. Uşaq və yeniyetmələri müstəqil həyata hazırlamaq, layiqli vətəndaş böyütmək məqsədinə nail olmaq üçün ictimaiyyətin diqqətini uşaq problemlərinin həlli ətrafında səfərbər etməyə çalışırıq. Uşaq və yeniyetmələrin sosial və hüquqi mənafelərinin müdafiəsi, onların hərtərəfli inkişafı, istedad və bacarıqlarının aşkara çıxarılması, eləcə də asudə vaxtlarının təşkili "Azərbaycan Uşaqları" İctimai Birliyinin əsas vəzifələridir. Birlik öz fəaliyyətində təhsil, ekoloji, səhiyyə, təlim-tərbiyə və asudə vaxtın təşkili sahəsində proqramlar hazırlayır, küçə uşaqlarını sığınacaqla təmin edir, onların sosial vəziyyətlərinin yaxşılaşmasına, risk qrupuna daxil olan yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşmasına yardım göstərir, insan alveri qurbanları və əməyin istismarına məruz qalan və yaxud qalmaq ehtimalı olan yeniyetmə və uşaqlarla, onların valideynləri ilə söhbətlər aparır, zorakılıq və erkən nikah qurbanlarına kömək edir.

Təşkilatımız insan alverinə qarşı mübarizə aparan Daxili İşlər, Elm və Təhsil, Səhiyyə, Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Sosial Xidmətlər Agentliyi, Azərbaycan Gənclər Fondu, QHT-lərə Dövlət Dəstəyi Agentliyi, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Qlobal Fond kimi yerli və beynəlxalq strukturlarla əməkdaşlıq edir. Birliyimiz Çevik Ekspert Qrupu, "Təhsildə Bərabərlik" və İnsan alverinə qarşı mübarizə aparan QHT Koalisiyasının üzvüdür.

İndiyədək 200-dək müxtəlif yerli və beynəlxalq layihələr icra etmişik. Həmin layihələr qısa və uzunmüddətli olmaqla respublikanın bütün rayonlarını əhatə edib. İcra edilən layihələrdən 10 minlərlə uşaq və yeniyetmə, eləcə də, onların ailə üzvləri və ərazi icma nümayəndələri birbaşa və yaxud dolayısı ilə bəhrələniblər.

Bu il təşkilat "Uşaq Forum Teatrı" İncəsənət əsaslı öyrənmə layihəsini həyata keçirməyə başlayıb. Layihənin məqsədi forum teatrının tətbiqi ilə əhalinin müxtəlif həssas qruplarından olan uşaq və yeniyetmələr arasında yaradıcı mühiti inkişaf etdirmək, sosial problemlərin həllinə dəstək olmaqdır.

Layihəyə icra müddətində Bakıda və Neftçalada uşaq, yeniyetmə və gənclərdən ibarət qruplarla təlimlərin təşkili, Uşaq Forum Teatr Festivalında nümayiş etdiriləcək tamaşanın məşqləri və festivalın təşkili daxildir. Bundan əlavə, Forum Teatrı tamaşalarından ibarət peşəkar video çəkiliş və montaj, müxtəlif ümumtəhsil məktəbləri, kollec, peşə məktəbləri şagirdləri və universitetlərdəki tələbələr arasında təlimlərdə hazırlanan və festivalda nümayiş etdirilən tamaşalar göstəriləcək. Layihə avqustda yekunlaşacaq.

*Təqdim etdi:*
*Zərifə HÜSEYNOVA*
*XQ*

# Azərbaycan və Moldova Daxili İşlər nazirlikləri Saziş imzalayıb

**Mayın 24-də Moldova Respublikasının daxili işlər naziri cənab Adrian Efrosun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Qonaqlar Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Həmin gün Azərbaycan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov moldovalı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

V.Eyvazov Moldova ilə Azərbaycan arasında əlaqələrin və qarşılıqlı münasibətlərin getdikcə daha da dərinləşdiyini məmnunluqla vurğulayıb. O qeyd edib ki, Azərbaycanın Daxili İşlər Nazirliyi Moldovanın hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi ilə münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli formatda inkişaf etdirilməsinə böyük önəm verir.

Ölkələrimizin müvafiq strukturları arasında uzun illərdir ki, mövcud olan sıx və işgüzar əlaqələri diqqətə çatdıran general-polkovnik V.Eyvazov qabaqcıl təcrübə və məlumat mübadiləsində maraqlı olduğumuzu, belə görüşlərin münasibətlərin daha da inkişaf etdirilməsinə, əməkdaşlığın möhkəmləndirilməsinə yeni töhfə verəcəyinə əminliyini bildirib.



Mövcud problemlərə toxunan nazir transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Moldova Respublikasının daxili işlər naziri cənab Adrian Efros səmimi qəbula və yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib, səfərin iki ölkənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyinə əminliyini, rəhbərlik etdiyi qurumun bu istiqamətdə öz səylərini əsirgəməyəcəyini, azərbaycanlı həmkarlarının cinayətkarlıqla mübarizə, ictimai asayişin təmini sahəsində əldə etdikləri müsbət təcrübənin öyrənilməsində maraqlı olduğunu bildirib.

Görüş zamanı nazirlər “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Moldova Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş”i imzalayıblar.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının “N” saylı hərbi hissəsinə, “102” və “Təhlükəsiz şəhər” xidmətlərinə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

***XQ***

# İtaliyalı baş prokurorun ölkəmizə səfəri

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsinin Baş prokuroru Luici Salvatonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**




Baş Prokurorluqda keçirilən görüşdə Kamran Əliyev dövlət başçısının həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlətimizin başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı, bu prosesdə italyan şirkətlərinin də yaxından iştirak etdiyi barədə həmkarına məlumat verib.

Kamran Əliyev prokurorluq orqanlarının rəqəmsallaşması və bu sahədə aparılan islahatlara toxunaraq, müasir tələblərə cavab verən “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti barədə danışıb.

Səfərə dəvətə görə təşəkkürünü bildirən Luici Salvato ölkəmizin dinamik inkişafının canlı şahidi olmaqdan məmnunluğunu bildirib. Qonaq prokurorluq orqanlarımız arasında əlaqələrin qurulmasında maraqlı olduqlarını qeyd edib.

Luici Salvato ölkələrimizin tərəfdar çıxdığı beynəlxalq konvensiyalar çərçivəsində cinayətkarlığa qarşı mübarizədə hüquq-mühafizə orqanlarımız arasında əməkdaşlığın müvəffəqiyyətlə həyata keçirildiyini vurğulayıb.

***XQ***

# İstiqlalımız – iftixarımız





**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 28 May Müstəqillik Günü qarşısında “Yaşa, yaşa, çox yaşa!” adlı ədəbi-musiqili toplantı keçirilib.**

Məclisi giriş sözü ilə açan muzeyin direktoru akademik Rafael Hüseynov müsəlman Şərqində ilk demokratik parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, milli istiqlalımızın gerçəkləşməsi ilə bağlı 23 ayda atdığı addımlardan söz açıb. Alim dövlət müstəqilliyinin ömrünün qısa olmasına baxmayaraq, görülən işlərin demokratik dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib, bu dövrü tariximizin şanlı səhifələrindən biri kimi dəyərləndirib.

Daha sonra bildirilib ki, 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra mürəkkəb siyasi proseslər və keşməkeşli tarixi hadisələr yaşansa da, məhz ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində Azərbaycan öz müstəqilliyini qorudu və əbədiləşdirdi. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində hazırda ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş Azərbaycan gündən-günə daha da güclənən qüdrətli dövlətə çevrilib.

Fəlsəfə doktoru Cəmilə Dəmirova Azərbaycanın milli istiqlal uğrunda qələmi, düşüncəsi ilə mübarizə aparmış Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlunun məfkurəvi mübarizəsindən danışıb.

Məclisdə Bakı məktəbliləri Məhəmməd Əmin Rəsulzadənin “Əsrimizin Siyavuşu”, Hüseyn Cavidin “İblis”, Cəfər Cabbarlının “Ədirnə Fəthi”, Üzeyir Hacıbəylinin “Bisavad və basavad” əsərlərindən parçaları, AXC dövründə yaranmış şeir və musiqiləri təqdim ediblər. Azərbaycan Milli Konservatoriyasının baş müəllimi Svetlana Əhmədovanın fortepianoda müşayiəti ilə müğənni Cavid Hüseyn ifasında “Ölkəm” və tələbə İsmayil Məmmədovun ifasında “Çırpınırdın, Qara dəniz” mahnıları iştirakçıları duyğulandırıb, hamıya istiqlalımızdan doğan öyünc yaşadıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# İlmələrə köçən “Ata vəsiyyəti – Oğul Zəfəri”

**Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyinin və Bakı Abadlıq Xidmətinin birgə təşkilatçılığı ilə Laçın şəhərində “Xalça belə yarandı” adlı təqdimat keçirildi.**



Ekspozisiyada əslən laçınlı, Azərbaycan Rəssamlar İttifaqının üzvü Elnarə Rəsulovanın müəllifi olduğu eskiz və xalçalar, şəxsi kolleksiyasındakı qədim xalça nümunələri nümayiş olunur. Həkəri çayının sahilində çobanın qoyun otarması, qoyun qırxımı, yunun daranması, əyrilməsi və boyanmasından başlamış xalçanın toxunmasına qədər bütün proses tablolara köçüb.

E.Rəsulovanın ideyası ilə toxunmuş “Qarabağ atı” (2023), “Çələbi” (2023), “Ərciman” (2023), “Borçalı” (2024) adlı xalçalarda kompozisiyanın əsasını təşkil edən əriş iplərinin aşkar şəkildə görünməsi onlara xüsusi rəng qatır. Tamaşaçılar burada xalçanın hasilə gəldiyi yola şahidlik edirlər. Mərasimdə “Laçın zirvəsi” adlı xalçasının dəzgahdan kəsimi təntənəli şəkildə icra olundu. “Ata vəsiyyəti – Oğul Zəfəri” kompozisiyalı xalçasının təqdimatı isə xüsusilə yaddaqalan oldu. İpək və yundan toxunmuş bu sənət əsəri 2 il 4 aya ərsəyə gətirilib. Xalçanın birinci hissəsində ümummilli lider Heydər Əliyevin İlham Əliyevə vəsiyyəti, ikinci hissədə isə böyük Zəfər qazanan oğulun ata vəsiyyətini yerinə yetirməsi təsvir olunub.

Tədbir iştirakçıları xalçanın təqdimatını video formatda izləyiblər.

***Ramilə QURBANOVA***
***XQ***

# İsveçdə Məhəmməd Əmin Rəsulzadə konfransı



**İsveçdə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri, istiqlal mücahidi M.Ə.Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr edilmiş konfrans keçirilib. Stokholmdakı “Qobustan” Aydınlar Ocağının təşkil etdiyi yubiley mərasimində ölkədə fəaliyyət göstərən milli dərnək və icmaların təmsilçiləri ilə yanaşı, Azərbaycan Respublikasının İsveç Krallığındakı Səfirliyinin, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, Stokholm ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**

Yubiley mərasimində AMEA Şərqşünaslıq institutunun əməkdaşı, professor Solmaz Rüstəmova-Tohidi “Rəsulzadə və Azərbaycan milli dövlətçiliyi”, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Qulu Məhərrəmli “Mətbuat azadlığı demokratik dəyər kimi M.Ə.Rəsulzadənin siyasi baxışları kontekstində” mövzularında məruzələrlə çıxış ediblər. İştirakçılar S.Tohidinin tərtib etdiyi "İkinci Beynəlxalq Rəsulzadə qiraətləri" toplusunu və Q.Məhərrəmlinin Bakıda və Təbrizdə nəşr olunmuş "Məmməd Əmin Rəsulzadə" kitablarını da maraqla qarşılayıblar.

"Qobustan" cəmiyyətinin sədri, Geteburq Universitetinin professoru Səadət Kərimi və İsveçdə yaşayan kinorejissor Rahim Sadıqbəyli Məhəmməd Əmin Rəsulzadə irsini tanıtmaq baxımından hər iki kitabın dəyərli mənbə olduğunu söyləyiblər. Müəlliflər imzalı kitablarını Azərbaycan icmasının fəallarına, yerli diaspor təşkilatlarına və ölkəmizin İsveçdəki səfirliyinin nümayəndələrinə hədiyyə ediblər.

Konfransda “Rəsulzadənin virtual ev-muzeyi” və “Bütöv Azərbaycan” video çarxları, Xalq artisti Alim Qasımovun ifasında “Məhəmməd Əmin” musiqi parçası nümayiş etdirilib.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Soydaşımıza Türkiyənin “Vəfa Mükafatı” verildi



**Türkiyənin Dəyanət İşləri İdarəsi və bu ölkənin Diyanət Vəqfinin təsis etdiyi “7-ci Beynəlxalq Xeyirxahlıq Mükafatları” Prezident Rəcəb Tayyib Ərdoğan və Diyanət İşləri İdarəsinin sədri Əli Ərbaşın iştirakı ilə keçirilən mərasimdə sahiblərinə təqdim edildi. Mükafat alanlar sırasında azərbaycanlı Sərvər Bəşirli də var.**

Türkiyənin ölkəmizdəki səfirliyindən XQ-yə bildirildi ki, 2023-cü il fevral ayının 6-da Türkiyənin yaşadığı əsrin fəlakətində - Türkiyə zəlzələsindən dərhal sonra Bakıdan minik avtomobilinə yüklədiyi yardımlarla yola çıxan Sərvər Bəşirli o zaman xeyriyyəçiliyin ən gözəl nümunələrindən birini nümayiş etdirmişdi. Türkiyə və Azərbaycan arasındakı sarsılmaz bağları, qardaşlığı daha da möhkəmləndirib könlümüzdə yuva quran Sərvər Bəşirliyə Prezident Rəcəb Tayyib Ərdoğan “Vəfa mükafatı” təqdim edib.

Mərasimdə qeyd edilib ki, Türkiyə ilə Azərbaycan qardaşlığı ürəklərimizdə o qədər dərin kök salıb ki, hər iki tərəfdə də bir-biri üçün gözünü qırpmadan canını fəda etməyə hazır minlərlə insan var. Qardaşlığımız sözdə deyil, əməldə də davamlıdır.

Sərvər Bəşirli isə deyib: “Mən, sadəcə, qardaşlarıma yardım etmək üçün yola çıxmışdım. Avtomobilim köhnə olsa da, ürəyimdə olan qardaşlıq hissləri təzə və güclü idi. Qardaşlarımıza kömək etmək bizim vəfa borcumuzdur”

***XQ***

# Milli rəqslərdən modern baletlərə yüksələn yol



**Hər bir xalqın tarixində və taleyində olduğu kimi, bu cür nailiyyətlərin ərsəyə gəlməsi Vətənini sevən, bu yolda yorulmadan çalışan fədakar tarixi şəxsiyyətlərin siyasi arenaya gəlməsi və öz əlahiddə xidmətləri sayəsində xalqın öndəri olması ilə sıx bağlıdır. Azərbaycanda yeni tariximizi öz əvəzsiz xidmətləri ilə yazan belə dahi şəxsiyyət müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevdir.**

Həyatın elə bir sahəsi yoxdur ki, respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmləri ərzində ümummilli lider Heydər Əliyevin fəaliyyətindən kənarda qalsın. Milli xoreoqrafiya sənəti də bu baxımdan istisna deyil.

Ulu öndərin 1969–1982-ci illərdə Azərbaycana rəhbərliyi dövründə mədəniyyət və incəsənət sahəsində də böyük intibah dövrü yaşanmışdır. O, mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə, kütləvi şəkildə kinoteatrların, teatr binalarının, muzeylərin inşası, mövcud mədəniyyət müəssisələrinin təmiri və yenidən qurulmasına xüsusi diqqət yetirirdi. Mədəniyyətimizin kadr potensialı da gücləndirilirdi. Azərbaycan gəncləri SSRİ-nin nüfuzlu incəsənət yönümlü ali məktəblərində təhsil alıb Bakıya qayıdırdılar. O zaman Sankt-Peterburq, Moskva və digər şəhərlərdə teatr, rəssamlıq, musiqi, xoreoqrafiya üzrə ali təhsil ocaqlarını bitirmiş gənclər bu gün Azərbaycan mədəniyyətinin görkəmli sənətkarlarıdır.

Xoreoqrafiya sənəti incəsənət növləri arasında öz incəliyi, zərifliyi, sintetikliyi və əməksevərliyi ilə seçilir. Bu cür xüsusiyyətləri olan sənət sahəsi böyük diqqət və qayğı ilə əhatə olunmalıdır. Xoşbəxtlikdən Ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dönəmində bu sənətə layiqincə diqqət və qayğı göstərilib. Bu qayğının nəticəsidir ki, Azərbaycan klassik baleti və milli rəqs sənəti dünya mədəniyyətində bir fenomenə çevrilib.

Görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baleti 1952-ci ildə keçirilən premyerasından sonra dünya balet inciləri xəzinəsinə daxil olub. Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə, 1970-ci ildə "Yeddi gözəl" baleti VII Beynəlxalq Rəqs və Balet Teatrları Festivalı çərçivəsində Parisdə səhnələşdirilib. 1979-cu ildə görkəmli bəstəkar Fikrət Əmirov özünün şah əsərlərindən biri olan "Min bir gecə" baletini yazıb. Ulu öndərin birbaşa qayğısı və sənətsevərliyi sayəsində 1980-ci ildə həmin baletin müvəffəqiyyətinə görə bəstəkar Fikrət Əmirov, baletmeyster Nailə Nəzirova, rəssam Toğrul Nərimanbəyov, dirijor Nazim Rzayev və baş rolların ifaçıları, o cümlədən məşhur balet artisti Tamilla Şirəliyeva SSRİ Dövlət mükafatına layiq görülüblər. Ümummilli liderin uzaqgörən mədəniyyət siyasəti nəticəsində Ukrayna, Gürcüstan, Mərakeş və Bolqarıstandan sonra 15 oktyabr 1983-cü ildə "Min bir gecə" baleti Azərbaycan Akademik Opera və Balet Teatrı truppasının ifasında Moskvanın Kreml sarayının səhnəsində göstərilib. Bu həmin zaman üçün ən böyük uğur idi.

Heydər Əliyev milli rəqs sənətinə də böyük dəyər, qiymət vermişdir. 1970-ci ildə Azərbaycan Dövlət Rəqs Ansamblının yaranması və aktiv fəaliyyətə başlaması bunun göstəricisi idi. Ulu öndərin hamiliyi ilə İtaliya, Fransa, Rusiya, Danimarka, Almaniya, Avstriya, Rusiya, Hindistan kimi ölkələrdə qastrol səfərlərində olan ansambl ümumittifaq və respublika festivallarının laureatı olub, 1979-cu ildə Tunisdə keçirilən beynəlxalq folklor sənəti festivalında qızıl medala layiq görülüb.

Bununla yanaşı, Azərbaycanın 2-ci böyük şəhəri olan Gəncənin 50 ildən artıq fəaliyyətdə olan "Göygöl" ansamblı qeyd olunan müddət ərzində dünyanın bir çox ölkələrinə səfərlər edib, xarici ölkələrin ən nüfuzlu konsert salonlarında konsertlər verib, Azərbaycan incəsənətini ölkə hüdudlarından kənarda təbliğ edib. 1977-ci ildə ümummilli liderin göstərişi ilə kollektivə Dövlət Mahnı və Rəqs Ansamblı statusu verilib.

Əlamətdar haldır ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə 80-ci illərin ortalarında Bakı Xoreoqrafiya Məktəbi üçün xüsusi layihə üzrə bina inşa edilib. Lakin Azərbaycanda peşəkar xoreoqrafiya sənəti və təhsilinin formalaşması və inkişaf yolu elə də hamar olmayıb. Ötən əsrdə ölkədə arabir baş qaldıran dini mövhumat, yalançı mühafizəkarlıq və psevdomillətçilik meyilləri milli xoreoqrafiya sənətinin taleyini də böyük sual altına qoymuşdu. Yaxın keçmişimizə nəzər salsaq, görərik ki, respublikada Xalq Cəbhəsi hakimiyyəti dövründə klassik balet sənətinə etinasızlıq, hətta nifrət hissləri o dövrün xoreoqrafiya ustaları, görkəmli sənətkarlarını qorxu içində saxlayırdı. Görkəmli balerina, Xalq artisti Leyla Vəkilova Xoreoqrafiya Məktəbinin bədii rəhbəri olaraq, o ağır günlərdə bu sənətin qayğıkeşliyini çəkməyə çalışırdı. Ağlasığmazdır ki, Xalq Cəbhəsinin hakimiyyəti dövründə xoreoqrafiya məktəbinin klassik şöbəsinin məzunları buraxılış-hesabat konserti zamanı səhnəyə çadra və örpəklərlə çıxmağa məcbur qalmışdı. Bu, dünyanın sivil xalqlarından birinə, eyni zamanda ən tolerant ölkəsinə qarşı böyük xəyanət idi.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra bu kimi mənfi hallar aradan qalxmışdır. Sözə, ədəbiyyata, musiqiyə, mədəniyyət və incəsənətin bütün sahələrinə yüksək qiymət verən, onları dərindən bilən Heydər Əliyev xalqımızın əsrlər boyu formalaşmış mədəniyyətinin tərkib hissəsi olan rəqs sənəti və bununla da bütöv xoreoqrafiya sənətinin inkişafına nail olmuşdur.

Ulu öndər mütəmadi olaraq balet tamaşalarına və konsertlərə gəlir, tamaşa və konsertlərdən sonra səhnə arxasına keçərək yaradıcı heyətlə görüşür, səhnədə nümayiş olunanları təhlil edir, bu və ya digər artistin ifasını dəyərləndirirdi. Bu da onun həm Azərbaycan, həm də dünya incəsənətini dolğun və əhatəli bilməsindən irəli gəlirdi.

Bununla yanaşı, balet və ansambl artistlərinin rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsini təmin etmək məqsədilə imzalanan çoxsaylı fərman və sərəncamlar Heydər Əliyevin xoreoqrafiya sənətinə olan ehtiramının mücəssəməsidir.

Bu gün xoreoqrafiya sənəti və təhsili yeni mərhələyə qədəm qoyub. Ulu öndər Heydər Əliyevin başladığı işləri layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyev 10 il öncə milli xoreoqrafiya sənəti ənənələrinin qorunması məqsədilə 90 ilə yaxın tarixi olan Bakı Xoreoqrafiya Məktəbinin bazasında Bakı Xoreoqrafiya Akademiyasının yaradılması barədə sərəncam imzalamışdır. Bununla da uzun illər ərzində xoreoqrafiya sahəsində əldə olunan sənət, təhsil və elmi nailiyyətlər akademizm səviyyəsinə qaldırılaraq çox az bir müddət ərzində öz bəhrəsini verəcəkdir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Heydər Əliyev Mərkəzində "Görünməyənin cizgiləri" sərgisi



**Heydər Əliyev Mərkəzində dünən italiyalı heykəltaraş Canfranko Megiatonun fərdi sərgisi açılıb. Oktyabrın 26-dək davam edəcək "Görünməyənin cizgiləri" adlı ekspozisiyada müəllifin 40-dək əsəri nümayiş olunur.**

Bakı sərgisi üçün hazırlanmış əsərlər sırasında "Cücərmə" ("Germination"), "Kvant nəfəsi" ("Quantum Breath"), "Mistral" ("Mistral"), "Elm və bilik" ("Science and Knowledge"), "Oyanış" ("Awakening"), "Yaradılış" ("Creation") və digərləri izləyicilərdə böyük maraq yaradacaq.

Mərkəzin park ərazisində, foye və sərgi zalında qurulan sərginin açılışında Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov sərgidə yer alan əsərlərin ziyarətçilərdə böyük maraq doğuracağını deyib və cənab Megiatoya bu işə həssas yanaşdığına görə təşəkkürünü bildirib.

Xalq rəssamı Fərhad Xəlilov sərginin Heydər Əliyev Mərkəzinin binası ilə unikal uyğunluq yaratdığını söyləyib. İtaliyanın Roma şəhərində Kolizey Arxeoloji Parkı Direktorlar Şurasının üzvü Alberto Samona bildirib ki, əsərləri seyr edəndə, sanki, gözə görünməyən aləmlə əlaqə qurulur. Canfranko Megiato isə deyib: " Bu möhtəşəm Mərkəzdə bütün bu əsərləri müvafiq yerlərə yerləşdirmək bizim qarşımızda duran böyük bir vəzifə idi. Düşünürəm ki, biz bunun öhdəsindən uğurla gəldik".

**XQ**

# Şuşanı dünyaya tanıdan nəşrlər

**Qarabağ tarixinin görkəmli tədqiqatçısı, bütün şüurlu həyatını bu ulu mahalın tarixinin, içtimai-siyasi həyatının araşdırmalarına sərf edən Vasif Quliyevin "Şuşa qalası" broşürlər seriyasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində təqdimatı keçirilib.**



Yeni layihə təkcə tanıtım xarakterində olan silsilə kimi yox, həm də bu gün dünyada gedən informasiya müharibəsində Qarabağla bağlı çox ümdə həqiqətlərin, Şuşa şəhərinin tarixini və maddi-mənəvi dəyərlərini əhatə edən 10 mövzuda, Azərbaycan və ingilis dillərində, orijinal tərtibatda çap edilmiş dəyərli informasiya daşıyıcıları və həm tərtibatına, həm də mövzusunun zənginliyinə görə maraqlı nümunələrdir.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev təqdimat mərasimində çıxış edərək bildirdi ki, broşürlər seriyasının nəşri mədəniyyət paytaxtı olan Şuşanın zəngin mədəni-tarixi irsinin təbliği baxımından böyük əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin Şuşanı əcdadlarımızın yaratdığı böyük tarixi abidə adlandırdığını xatırladan komitə sədri möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin misilsiz qəhrəmanlığı sayəsində bu qədim şəhərin 28 illik işğaldan azad edilməsinin hər bir azərbaycanlıda qürur doğurduğunu, qısa müddət ərzində onun bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlər görüldüyünü, şuşalıların doğma yurda qayıdışının başlandığını bildirib. Şəhərin maddi-mənəvi dəyərlərinin bərpasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun mühüm rol oynadığı xüsusi vurğulanıb.

"Şuşa qalası" broşürlər seriyasının nəşri işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Dövlət Komitəsinin icra etdiyi məlumatlandırma, təbliğat-izahat və təşviqat tədbirləri çərçivəsində nəşr edilib.

Təqdimat mərasimində Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor İlham Rəhimli, "Xalq qəzeti"nin baş redaktorunun müavini, Əməkdar jurnalist Tahir Aydınoğlu, Azərbaycan Yazıçılar Birliyinin üzvü, tədqiqatçı-jurnalist Elşad Qoca, "Vətən səsi" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Elşən Əliyev çıxış edərək, "Şuşa qalası" broşürlər seriyasının nəşrini yüksək qiymətləndirib, Qarabağ tarixinin tədqiqi sahəsində Vasif Quliyevin uzunmüddətli fəaliyyətindən danışıb, onun dəyərli yaradıcılıq işinin Böyük Qayıdışa layiqli töhfə olduğunu qeyd ediblər.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılmasında, müəllif kimi "Şuşa qalası" broşürlər seriyasının hazırlanmasında iştirakına görə Vasif Quliyevə Dövlət Komitəsinin təşəkkürnamə plaketi təqdim olunub. Müəllif yaradıcı əməyinə verilən dəyərə görə minnətdarlıq edib, doğma Qarabağın, əziz Şuşanın tarixini 50 ildən artıq müddətdə araşdırdığını və bu işdən zövq aldığını deyib. O, doğma şəhərinin işğaldan qurtarılmasından və sürətlə bərpa olunmasından hədsiz sevinc hissi keçirdiyini vurğulayıb, bu möhtəşəm quruculuq prosesini şəxsən nəzarətdə saxlayan Prezident İlham Əliyevə, şuşalılara daim qayğı göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib.

"Şuşa qalası" seriyasından broşürlərin nəşrinin davam etdirilməsi nəzərdə tutulur. Bu barədə məlumat verən müəllif – Qarabağ tarixinin tanınmış tədqiqatçısı, yazıçı-publisist, "Şuşa" qəzetinin redaktoru Vasif Quliyev deyib ki, Şuşa və Qarabağ tarixi ilə bağlı 30-dan artıq kitabım nəşr olunub. Onlardan 10-u tərcümədir, 20-si isə müəllifi olduğum kitablardır. Çox şadam ki, redaktoru olduğum və sonradan Azərbaycan dilinə tərcümə etdiyim "Köhnə Şuşa" kitabına Birinci vitse-prezident Mehriban xanım Əliyeva ön söz yazıb.

Qarşıda Şuşa haqqında bir neçə cildlik kitab nəzərdə tuturam. İki min nəfər şuşalı elm, ədəbiyyat və mədəniyyət xadiminin fəaliyyəti, şəhərin tarixində rolu haqqında yazmaq olar. 20–30 il əvvəl Şuşanın tarixi ilə çox az sayda yazılırdı. Tarixi zəfərdən sonra isə Şuşadan yazan tarixçi və araşdırmaçıların sayı o qədər ortalığa çıxdı ki... Əksər məlumatların çox vaxt yanlış, köçürmə olduğu görünür. Tarixi həqiqətlərdən uzaq olan, bu yerlərin adət-ənənəsini bilməyən adamlar Şuşanın, Qarabağın tarixindən məqalələr yazırlar. Firudin Şuşinskidən başqa Şuşanı sanballı, dərin tədqiq edən görmədim. Hətta o da müəyyən qədər araşdıra bildi, tarixi şərait, ömür, vaxt imkan vermədi ki, çox dərinə getsin. Şuşa haqqında yazarkən də ən çox mədəniyyət, musiqi sahəsini qələmə alıb. Şuşadan, bəlkə, 100-dən çox elmi iş yazılıb. Tarix elmləri namizədi Yunis Hüseynov istisna olmaqla, hamı da bir-birindən köçürüb. Düz 53 ildir bütün həyatımı Şuşaya həsr etmişəm və Şuşaya aid başdan-ayağa nə məlumat varsa, hamısını toplamışam, yavaş-yavaş yazıram. Onlardan, demək olar, tək musiqi sahəsi üzrə 1000-dən artıq məqaləm, oçerk və ensiklopedik yazım dərc olunub. "Şuşa" qəzetinin hər nömrəsində "Qarabağ ensiklopediyası" başlığı ilə məlumatlar dərc edirik. Əsas məqsədim "Şuşanın tarixi" kitabımı və 52 ildir üzərində işlədiyim "Qarabağ ensiklopediyası"nı nəşr etdirməkdir. Pənahəli xan haqqında sənədli-tarixi romanımı bitirib çap etdirmək arzusundayam. "Şuşa qalası" broşürlar seriyası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə ortaya çıxdı. Hələlik bu seriyadan olan 10 nümunə nəşr edilib, amma davam etdirilməlidir. Əminəm ki, bunun siyasi-ictimai əhəmiyyəti çox böyük olacaq. Ən azı Şuşaya səfər edən çoxsaylı qonaqlara bu broşürlərin paylanması müqəddəs Şuşa haqqında tarixi həqiqətlərin tanıdılmasında xüsusi əhəmiyyət kəsb edəcək.

***Namiq QƏDİMOĞLU***
***XQ***

**Aşıq Bəylər Qədirov-110**

# Ozan sənətinin "bülbülü"

**Ustad aşıqlar saz sənətimizin döyünən ürəkləridir. Məşhur aşıq Bəylər Qədirov da belə aşıqlarımızdandır. O, öz sənəti ilə saz-söz aləmində silinməz izlər buraxıb. Sənətdə özünün dəst-xətti olub.**

Bəylər şikəstə, ustadnamə, peşro (məclisin girişi) və digər məqamlara yaradıcı yanaşıb, sənətə yeniliklər gətirib. Bu mənada Şirvan aşıq məktəbinin inkişafında onun xidmətləri danılmazdır. Aşıq Bəylərin oxuduğu "Şirvan şikəstəsi"ni yalniz yaniqli səs xirdalıqlarına malik olan aşıq və xanəndələr ifa edə bilər.

Aşıq Bəylərin "Peyvənd şikəstə"si, "Kərəmi"si, "Peşro"su əvəzolunmaz ifalar kimi tanınıb. Onun müəllifi və mahir ifaçısı olduğu şux, oynaq "Kəndimiz" mahnısı bu gün də müxtəlif tədbirlərdə, el şənliklərində sevilə-sevilə ifa olunur.

Mən özüm də Aşıq Bəylərin ifalarını təkrar-təkrar dinləyib xüsusi zövq alıram. Onun səsi insanı sirli-sehrli bir aləmə aparır. Bəylər Qədirovun sinəsi aşıq sənətimizlə bağlı yazılmış kitab kimi məclislərdə vərəq-vərəq açılırdı. Danışdığı "Abbas və Gülgəz", "Koroğlu", "Əsli və Kərəm" dastanları çoxlarının yaddaşındadır. O dastanları obraza girərək, şirin bir avazla tamaşaçılara çatdırıb. Bu dastanlar indi də Azərbaycan Radiosunun "Qızıl Fond"unda saxlanılır.

…Bəylər hələ kiçik yaşlarından saza-sözə könül verib və sənətin sirlərinə inadla yiyələnib. Atasının yaxın dostu, Şamaxının Cəyirli kəndindən olan Aşıq Abbasdan dərs alıb. Şifahi xalq ədəbiyyatına erkən yaşlarından maraq göstərib. El şairlərinin şeirlərini, dastanlarımızı həvəslə oxuyub öyrənib. Özü də bədahətən sözü-sözə qoşub şeirlər deməyə başlayıb. Klassik aşıq ədəbiyyatının ənənələrinə söykənən şeirləri mətbuatda işıq üzünə çıxıb, yayılıb. Indi bir çox qoşma və gəraylılarını onun yetirmələri olan Şirvan aşıqları el şənliklərində, məclislərdə oxuyurlar. Yeri gəlmişkən, Aşıq Bəylər Rza Qobustanlının, Mirzəlinin, Ağababa Bədəlovun, Aslan İsmayılovun, oglu İxtiyar Qədirovun və onlarca başqa aşıqların ustadı və müəllimi olub. O, təkcə Şirvan–Muğan məktəbi yox, eyni zamanda Gəncə–Tovuz və Göycə–Borcalı məktəblərinə məxsus olan klassik aşıq havalarını da özünəməxsus ustalıqla ifa edib.

Aşıq Bəylər yüksək ifaçılıq qabiliyyəti və istedadı sayəsində qısa zamanda Azərbaycanın hər yerində tanınıb. Onun səsi-sorağı Azərbaycanın hüdudlarından kənarda da geniş yayılıb. Daha geniş üfüqləri fəth edərək İranda və Türkiyədə də sevilib. Beləcə, ömrünün sonunadək sənəti ilə baş-başa qalıb. Bülbül kimi cəh-cəh vuran şirin zəngulələrinə görə aşıq sənətinin "bülbülü" adlandırılıb. Onun zəngulələsində çeşmələrin həzin zümzüməsi, çayların məcrasına sığmayan, coşub daşan səsi var idi.

Aşığın repertuarında əsas yer tutan "İbrahim peşrosu", "Misri Koroğlu","Şəşəngi" , "Döymə Kərəmi", "Ordubadi", "Şakir gözəlləməsi", "Qara qafiyə", "Göyçə gülü", "Aran gözəlləməsi", "Kərəmi," "Peyvəndi", "Şirvan şikəstəsi" və başqa ifaları bu gün də yaddaşlarda muncuq kimi sıralanır, sapa düzülür.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar Elm Xadimi, professor Məhərrəm Qasımlı söhbət zamanı ustad Aşıq Bəylərin yüksək ifaçılıq bacarığından və istedadından söz açdı. Onun 20-ci əsr aşıq sənətinin inkişafında oynadığı rolun əhəmiyyətini xüsusi qeyd etdi. Bildirdi ki, aşıq Bəylər mükəmməl aşıq olub və Şirvan aşıq mühitinin bütün göstəricilərini özündə ehtiva edib. Aşığın pərəstişkarları respublikamızın nüfuzlu konsert salonlarında onun ifalarını dəfələrlə dinləyib. "Ustad sənətkar şikəstə havalarının mahir ifaçısı idi, bənzərsiz səsi, avazı vardı," – deyə Məhərrəm Qasımlı əlavə etdi.

Professor, eyni zamanda onun yaradıcılığında maraqlı məqamlara toxundu.



Dedi ki, Bəylər Qədirov həm də ustadnamə, müxəmməs, gözəlləmə kimi aşıq şeir şəkillərində onlarca sanballı əsəri var. Onun yaradıcılığı aşıq şeirimizdə özünə yer alan dolğun nümunələrdir. "Azərbaycan-ana yurdum" şeirində olduğu kimi:

***Tamaşa istəsən, tamaşa burda,***
***Bürünüb pərilər qumaşa burda,***
***Çox ömür istəsən, gəl yaşa burda,***
***Aşıq Bəylər mahnı qoşar bu yerdə***
***Azərbaycan – ana yurdum!..***

Aşıq Bəylər Qədirov respublika və beynəlxalq səviyyəli tədbirlərdə Azərbaycan aşıqlarını uğurla təmsil edib. O, aşıqların II və III qurultaylarının, Moskvada keçirilmiş Azərbaycan mədəniyyəti günlərinin iştirakçısı olub.

Aşıq Bəylər Qədirovun əslən Şamaxının Çuxanlı kəndindən olan nəsli 1902-ci ildə Şamaxıda baş verən zəlzələdən sonra Salyan rayonuna köçərək orada yeni bir Çuxanlının təməlini qoyub.

O özü 20 yaşlarından sənətə gəlişi ilə məclislərdə başa çəkilib. Xalq yaradıcılığı və aşıq sənəti sahəsində xidmətlərinə görə, müxtəlif medal, fəxri fərman, digər mükafat və təltiflərə layiq görülüb. Ömrünün sonuna kimi sazı sinəsindən yerə qoymayıb.

Ustad aşıq 3 iyun 1997-ci ildə doğulduğu Çuxanlı kəndində vəfat edib. Dövrünün ustad aşığı, şairi, dastançısı kimi sevilən Bəylər Qədirovun adı onu tanıyanların yaddaşında xoş xatirələri ilə yaşayır.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

## "Cəlilabad Broyler" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

(manatla)

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Tikili və avadanlıqlar | 2,290,008.49 | 2,674,248.20 |
| Qeyri-maddi aktivlər | - | 171,000.00 |
| Kapitallaşdırma üçün aktivlər | - | 1,257,680.91 |
| Digər aktivlər | 2,510,000.00 | - |
| | **4,800,008.49** | **4,102,929.11** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Qısamüddətli debitor borcları | 18,880.00 | 897,238.91 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,109.62 | - |
| Dövlət büdcəsindən vergilər üzrə debitor borcları | - | - |
| Ehtiyatlar | - | 359,220.14 |
| | **20,989.62** | **1,256,459.05** |
| **CƏMİ AKTİVLƏR** | **4,820,998.11** | **5,359,388.16** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 849,238.00 | 849,238.00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | - | - |
| Kapital ehtiyatları | 3,886,966.33 | 1,434,099.00 |
| **CƏMİ KAPİTAL** | **4,736,204.33** | **2,283,337.00** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| Uzunmüddətli borclar | - | 525,808.85 |
| Bank kreditləri | - | 60,907.56 |
| Gələcək dövrün gəlirləri | - | 235,932.20 |
| | **-** | **822,648.61** |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 84,251.03 | 155,427.71 |
| Sair qısamüddətli kreditor borcları | 542.75 | 2,097,974.84 |
| Digər öhdəliklər | - | - |
| | **84,793.78** | **2,253,402.55** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **84,793.78** | **3,076,051.16** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,820,998.11** | **5,359,388.16** |

### Mənfəət və zərər haqqında hesabat

| | | |
|---|---|---|
| **GƏLİRLƏR** | **116,000.00** | **90,000.00** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 2,450.00 | 11,922.00 |
| DSMF | 449.75 | 2,899.00 |
| İcarə haqqı | 12,900.00 | - |
| Amortizasiya | 240,694.49 | - |
| Audit xərcləri | - | - |
| Bank xidmətləri üzrə xərclər | 152.02 | - |
| Torpaq vergisi | 5,592.52 | - |
| Əmlak vergisi | 24,821.28 | - |
| Sığorta xərcləri | 59.80 | - |
| Hüquq xidməti | - | - |
| Rabitə xərci | - | - |
| Poçt xidməti | - | - |
| Notarius xərci | - | - |
| Sair cərimə və rüsumlar | - | - |
| Sair xərclər | 387.72 | - |
| | **287,507.58** | **14,821.00** |
| **ZƏRƏR VƏ YA MƏNFƏƏT** | **(171,507.58)** | **75,179.00** |
| Gəlirdən çıxılmayan xərclər | - | - |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | - | **75,179.00** |
| Mənfəət vergisi | - | 15,035.80 |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **(171,507.58)** | **60,143.20** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Kapital ehtiyatları |
|---|---|---|---|
| **2023-cü il yanvarın 1-nə qalıq** | **849,238.00** | **-** | **1,434,099.00** |
| Xalis mənfəət / (zərər) | | **-** | **2,452,867.33** |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **849,238.00** | **-** | **3,886,966.33** |
| **2022-ci il yanvarın 1-nə qalıq** | **849,238.00** | **-** | **1,434,099.00** |
| Xalis mənfəət / (zərər) | | **-** | **-** |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **849,238.00** | **-** | **1,434,099.00** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| Digər gəlirlərdən daxilolmalar | 118,000.00 | - |
| Mallar və xidmətlərə görə xaricolmalar | - | - |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (1,675.61) | - |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | (114,214.77) | - |
| Digər ödənişlərə görə xaricolmalar | - | - |
| | **2,109.62** | **-** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üzrə pul vəsaitlərinin xaricolmaları | - | - |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | - | - |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | **-** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **2,109.62** | **-** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | - | - |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **2,109.62** | **-** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

**Biz, "CƏLİLABAD BROYLER" ASC-nin** 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**"Audit Consulting 17" MMC-nin direktoru**
**Nazim Suxənvər oğlu Cəfərov**
**Bakı, 13 may 2024-cü il**

## "DƏZGAHQAYIRMA ZAVODU" ASC səhmdarlarının nəzərinə!

30 avqust 2024-cü il saat 15.00-da, Şirvan şəhəri, Cənub Sənaye Qovşağında "DƏZGAHQAYIRMA ZAVODU" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi.

1. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin 2023-cü ilin yekunlarına dair maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatın müzakirəsi və təsdiqi.
2. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirməsi məqsədilə "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin aktivlərinin satılması və onların dəyərinin müəyyən edilməsi.
3. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin təşkilati-hüquqi formasının dəyişərək MMC-yə çevrilməsi.
4. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin ləğv olunaraq cəmiyyətə məxsus bütün səhmlərinin dövriyyədən çıxarılması.
5. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-yə müraciət etmiş səhmdarlara məxsus səhmlərin ləğv edilərək cəmiyyətdən ayrılması və çıxan səhmdarlarla səhmlərə uyğun payın natura şəklində təhvil-təslim olunması, həmçinin təhvil-təslim aktının, razılaşma müqaviləsinin imzalanması səlahiyyətinin icra orqanının rəhbərinə həvalə edilməsi.
6. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin tərkibindən yenidən təşkilin ayrılma formasında yeni hüquqi şəxsin ayrılması.
7. "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin nizamnaməsinin yeni redaksiyada təsdiqi.
8. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində nəzərdə tutulmuş səlahiyyətlərin "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin icra orqanının rəhbərinə həvalə edilməsi.

**Milli idmanın şərəf səhifəsi**

# Tarixi nəticə: Dünya çempionatında 2 qızıl

## Cüdoçularımızdan Paris Olimpiya zirvəsinə yüksəlməyi gözləyirik

**Azərbaycan cüdo komandası daha bir möhtəşəm qələbəyə imza atdı. İlk dəfə dünya çempionatında 2 təmsilçimiz qızıl medal əldə etdi. Bu mühüm nailiyyət dördilliyin ən mötəbər idman hadisəsi olan Paris Olimpiadası ərəfəsində qazanıldığı üçün daha qiymətlidir. Bununla da, Azərbaycan komandası Paris Yay Olimpiya Oyunlarında yalnız geniş heyəti ilə yox, həm də çox güclü yığma kimi diqqət mərkəzində olacaq.**



İlk dəfə 2011-ci ildə Azərbaycan cüdoçusu Elxan Məmmədov dünya çempionatının qalibi olduqdan sonra, bu nailiyyəti təkrarlayan olmamışdı. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında komandamızın üzvləri Hidayət Heydərovdan (73 kq) sonra Zelim Kotsoyevin (100 kq) də yarışın ali mükafatını qazanması son illər bu idman növü üzrə yığmamızın potensialının daha da yüksəlməsinin göstəricisidir.



**Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu Elnur Məmmədli qəzetimizə açıqlamasında qeyd etdi ki, Dünya çempionatında əldə edilən bu nailiyyət Azərbaycan idmanının parlaq uğurudur:**

– Bu böyük qələbəni illərdir gözləmişik. Bu, tək cüdonun deyil, Azərbaycan idmanının şərəf kitabına yazıldı. Xoşbəxtik ki, ölkəmizdə idmana dövlət tərəfindən belə böyük qayğı var. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın idmana, idmançılarımıza diqqəti bizim üçün böyük dəstəkdir. Bu ciddi nailiyyətin əldə edilməsində Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Cüdo Federasiyası, eləcə də məşqçilər, həkimlər korpusunun, bizə dəstək olan hər bir kəsin böyük əməyi var.

Olimpiya çempionu daha sonra bildirdi ki, uzun illər dünya çempionatlarında cüdoçular mükafatçılar sırasında yer alsalar da, qızıl medal qazana bilməyiblər. Təsəvvür edin, 11 ildən sonra 2 cüdoçumuz bu çətin maneəni aşdı, zirvəyə yüksəldi. Həm Hidayət Heydərov, həm də Zelim Kotsoyev öz çəkilərində Olimpiya reytinqində liderdirlər. Hər 2 idmançıdan Olimpiya çempionluğunu da gözləyirik.

**Elnur Məmmədli, ümumiyyətlə, Azərbaycan cüdo komandasında son illər güclü potensialı olan çoxlu idmançıların yetişdiyini bildirdi. O qeyd etdi ki, Dünya çempionatında, əslində, onların hər biri mükafat qazanmağa layiq idi:**

– Dünya çempionatında, ümumiyyətlə, zəif idmançı olmur. Medal qazana bilməyən tatami ustalarımız da ruhdan düşməməlidirlər. Onların gücünə bələd olduğumuz üçün hər birindən mükafat gözləyirdik. Amma bu, idmandır. İndi çalışmalıyıq ki, növbəti yarışlarımız üçün səhvlərimizi düzəldək. Qarşıda bizi Paris Olimpiadası gözləyir. Pekin Olimpiadasında mənim çempionluğumdan uzun illər sonra 1 yox, 2 Olimpiya qızılı qazanmağın vaxtıdır. Cüdoçularımıza inanırıq.



**Qeyd edək ki, Hidayət Heydərovdan sonra çempion titulunu qazanan Avropa çempionu, Dünya çempionatının ikiqat bürünc mükafatçısı Zelim Kotsoyev yarışda qələbə ruhunun əsas rol oynadığını bildirdi. O qeyd etdi ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi instaqram səhifəsində Hidayət Heydərovu təbrik etməsi ona əlavə güc, həvəs verib:**

– Hidayət mənə həmin təbrik paylaşımına görə çox xoşbəxt olduğunu dedi. O, qızıl medalı qazandıqdan sonra bunu mənim də bacaracağıma inandığını bildirdi. Bütün bunlar məni qələbəyə ruhlandırdı.

Azərbaycan bayrağını beynəlxalq arenada dalğalandırdığı üçün iftixar duyduğunu söyləyən Z.Kotsoyev Olimpiadada da uğur qazanmaq üçün əlindən gələni edəcəyini dedi:

– Mən bütün yarışlarda ölkəmin üçrəngli bayrağını yüksəklərə qaldırmaq arzusundayam. Paris Oyunlarında fəxri kürsüyə yüksəlmək üçün fiziki qüvvəmi, mənəvi enerjimi toplayacağam.

Beləliklə, cüdoçularımızın Əbu-Dabidə son dünya çempionatında tarixi nəticəsi, bundan əvvəl "Böyük dəbilqə" turnirlərində, Avropa çempionatlarında, Dünya, Avropa kuboku və digər yarışlarda parlaq nailiyyətləri Paris Oyunlarında yeni zirvələrin fəthi üçün geniş imkanlar açır. Olimpiya tatamisində bütün çəki dərəcələrində mübarizə aparacaq Azərbaycan cüdoçularından Olimpiya qızıllarını gözləmək üçün gerçək əsas var.

***Leyla QURBANOVA***
***XQ***

## "Ağsu Konserv-1" ASC səhmdarlarının nəzərinə!

"Ağsu Konserv-1"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2024-cü il saat 12.00-da keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. Təşkilati məsələlər.
3. Cari məsələlər.

Yığıncaqda iştirak etmək vacibdir.
Telefon- 050 352 21 82.
Ünvan-Ağsu şəhəri, M.Ə.Rəsulzadə küçəsi 47.

***"Ağsu Konserv-1" ASC-nin idarə heyəti***

## "Xəzər Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

"Xəzər Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 13 iyul 2024-cü il saat 10.30-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

• 2023-cü ilin illik hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
• Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə əlaqədar sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Telefon- 050 – 268 – 05 – 29 .
Ünvan- Lənkəran rayonu, Liman şəhəri, H.Aslanov küçəsi 44.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələrə yük kəmərlərinin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il mayın 29-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələrə zəncirlər, takelaj qıfılları və əl tallarının satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il mayın 31-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 109 (30513) 25 may 2024-cü il, şənbə

25 May Ümumdünya Futbol Günüdür

# Yaşasın futbol – əfsunlu oyun!

**Dünyanın ən ali beynəlxalq qurumu olan Birləşmiş Millətlər Təşkilatı (BMT) hər yerdə sevinclə qarşılanan təşəbbüs göstərmişdir. Bu gün planetin ən ucqar kənd və qəsəbələrindən tutmuş nəhəng şəhərlərədək hər yerdə ən çox işlədilən söz, bəlkə də, futbol olacaq. Elə "Xalq qəzeti" də səhərin gözü açılmamış 25 mayın Ümumdünya Futbol Günü olduğunu bir daha hörmətli oxucularına xatırladıb, milyonlarla insanı həyəcanlandıran, sevindirən, birləşdirən bu ecazkar oyun haqqında ona rəğbət hissi ilə söhbət açır.**

Görünür, taleyin Azərbaycan futboluna bir töhfəsidir ki, BMT-nin elan etdiyi gün həm də Beynəlxalq Futbol Federasiyasının (FİFA) hakimlər korpusunun respublikamızda Tofiq Bəhramovdan sonra ikinci səlahiyyətli nümayəndəsi olmuş Eldar Əzimzadənin doğum gününə təsadüf edir. Yaşasaydı, bir vaxtlar bu gözəl oyundan aldığı böyük zövqü özünün "Məhəbbətim mənim—futbol" kitabında tam səmimiyyətlə təsvir etmiş Eldar müəllim bu gün 90 yaşını qeyd edəcəkdi…

Futbolun qəlbləri riqqətə gətirməsi, xoş mərama xidmət etməsi, bununla da dünyaya layiqli töhfə verməsi heç kimə sirr deyil. Planet əhalisinin böyük hissəsinin biganə qalmadığı bu çox sevimli oyun xalqların bir-birinə yaxınlaşmasında və onlar arasında dostluq əlaqələrinin möhkəmlənməsində, qarşılıqlı anlaşmanın, əmin-amanlığın qorunmasında mühüm vasitədir. Məhz buna görə də idmanın şahı adlandırılan futbol hamının sevimlisidir. İnsanların öz komandalarının oyunlarını izləmək üçün, bəlkə də, aylarla yığdıqları vəsaitə heyfslənmədən bəzən dünyanın bir başından o biri başına getmələri təsadüfi deyil. Onlar belə səfərlər zamanı özlərini futbol deyilən sehrli bir aləmdə xoşbəxt sanırlar.

İndi futbolun qüdrətini, onun nəyə qadir olduğunu bilməyən yoxdur. Prezidentlər, baş nazirlər, krallar, parlament rəhbərləri, sərkərdələr, generallar da istisna deyil.

Mən 1986-cı ildə o zaman Azərbaycan Dövlət İdman Komitəsində futbol şöbəsinin müdiri vəzifəsində çalışan Rauf Adıgözəlovla birlikdə sovet jurnalistləri və mütəxəssisləri qrupunda Meksikada dünya çempionatı oyunlarını izləmək imkanı qazanmışdım. Mundialın necə parlaq bayrama çevrildiyinin əyani şəkildə, birbaşa hadisə yerində şahidi olduq.

Çempionat günlərində Meksika qəzetləri ölkənin ovaxtkı prezidenti Migel de la Madridin tez-tez ailə üzvləri ilə birlikdə Mexikonun fəxri sayılan əzəmətli "Asteka" stadionunun hökumət tribunasında göründüyünü, Braziliya parlamentinin oyunlardan birini televizorda izləmək üçün öz iclasını 3 saat təxirə saldığını, Mərakeş futbolçularının Portuqaliya millisi üzərində gözlənilməz və inamlı qələbəsindən (3:0) sonra Mərakeş Kralı II Həsənin gecəyarısı paytaxt Rabatdan uzaq Qvadalaxara şəhərinə zəng vurub komandasını təbrik etdiyini diqqətə çatdırmışdı.

Leon şəhərində qollarla zəngin SSRİ—Belçika səkkizdəbir final görüşündə (3:4) sovet komandasından hər üç topu Kiyev dinamoçusu İqor Belanovun vurduğu da yadımdadır.

Tribunadan izlədiyimiz digər oyunlar sırasında Puebla şəhərində əfsanəvi Diyeqo Maradonanın komandası Argentinanın Uruqvay ilə prinsipial görüşü də (1:0) çox gərgin keçdi. Çempionatın bağlanış mərasimində Dünya Kuboku da elə Maradonanın və onun dostlarının, bütün Argentinanın üzünə güldü.

Mexico—86-dan bir il əvvəl bu ölkənin gənclərdən ibarət yığma komandasını Bakıda, Respublika stadionunda gördüyümüz günlər də xatirələrdən silinməyib. FİFA 1985-ci ildə gənclər komandalarının dünya çempionatının təşkilini SSRİ-yə həvalə etmişdi. İlkin mərhələdə qruplarda oyunlar ölkənin bir neçə şəhəri ilə yanaşı, Bakıda və Sumqayıtdakı Mehdi Hüseynzadə adına stadionda keçirilirdi. Bizim qrupa Meksika, Çin, Paraqvay və İngiltərə komandaları daxil idi. Qrupun qalibi hər üç rəqibini məğlubiyyətə uğradan Meksika oldu.





Açılış mərasimində FİFA-nın həmin illərdə prezidenti Joao Avelanjın da iştirak etdiyi Bakı turnirini ona görə xüsusi qeyd edirəm ki, futbol xeyrxahlığı sevir. Meksika komandasının oyunlardan birində meydana üzərində rus dilində yazılmış və təşkilatçılara, azarkeşlərə qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən "Spasibo, Baku!" lövhəsi ilə çıxması da rəğbət doğuran addım idi.

Ümumdünya Futbol Günündə Azərbaycan futbolunun qürur mənbəyi Ağdamın "Qarabağ" komandasının ötən payızda, builki erkən baharda bütün ölkəyə yaşatdığı gözəl günləri bir daha böyük razılıq hissi ilə xatırlayaq. Qurban Qurbanovun futbolçularının "Braqa" (Portuqaliya) və "Bayer"ə (Almaniya) qarşı keçirdiyi görüşlər unudulası oyunlar deyil. Tezliklə komanda yenə avrokuboklar meydanına çıxacaq. Təbii ki, əsas məqsəd Çempionlar Liqasında mümkün qədər uzağa getmək olacaq.

Azərbaycan çempionundan növbəti nailiyyət gözləyənləri başa düşmək olar. Çünki artıq elə bilirik ki, bir həftə əvvəl Bundesliqada məğlubiyyətsiz çempion olmaqla tarix yazan "Bayer" kimi, "Qarabağ" da evdə və ya səfərdə oynamasından asılı olmayaraq həmişə uğurlu nəticə göstərməlidir. Bunun özü qürurverici inamdır.

Misli Premyer Liqasında son turun Ümumdünya Futbol Günü ilə eyni vaxta təsadüf etməsi də maraq doğuran faktdır. Finiş ərəfəsində olan milli çempionatımızın vida turundan sonra Avroliqa və Konfrans Liqasında mübarizə aparacaq klublarımız da qəti məlum olacaq.

Yeni mövsümdə beynəlxalq meydanda mübarizəyə qoşulacaq kollektivlərə, eləcə də, uğurları həsrətində olduğumuz, amma qələbələrinə heç vaxt ümidimizi itirmədiyimiz milli komandaya, ölkənin bütün futbol həvəskarlarına Azərbaycan təmsilçilərinin ifasında məzmunlu və məhsuldar futbol arzulayırıq.

Bu arada iyunun 14-də Almaniya stadionlarında başlayıb, düz bir ay gecə və gündüz dünyanın diqqət mərkəzində olacaq növbəti Avropa çempionatının startı ərəfəsinə gəlib çatmışıq. Bizim azarkeşlər, həmişəki kimi, yenə qardaş Türkiyə millisinin oyunlarını daha böyük həyəcanla izləyəcəklər.

Növbəti, 2028-ci il qitə çempionatında Azərbaycan komandasını da görmək arzusu ilə.

Hələlik isə, günün mübarək, əlahəzrət futbol!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

İDMAN

## Avropa çempionatında qadın güləş millimizin tarixi uğuru

**Bakıda keçirilən U-23 Avropa çempionatında qadın güləşi üzrə yarışa yekun vurulub.**



Millimiz qitə birinciliyində uğurla çıxış edərək tarixinin ən yüksək nəticəsinə imza atıb. Belə ki, 1 dəst (1 qızıl, 1 gümüş, 1 bürünc) medal qazanan yığmamız 76 xal toplayaraq ilk dəfə komanda hesabında U-23 Avropa çempionatında 33-cü yeri tutub. Ukrayna (168) birinci, Türkiyə (118) isə ikinci yerdə qərarlaşıb.

Xatırladaq ki, komandamızın tərkibində Jalə Əliyeva (57 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub. Elnurə Məmmədova (53 kq) gümüş, Ruzanna Məmmədova (59 kq) isə bürünc medal qazanıb.

## Atletimiz dünya çempionatının finalında

**Azərbaycan paraatleti Lamiyə Vəliyeva Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında 400 metr məsafəyə qaçışda finala yüksəlib.**




İdmançımız təsnifat mərhələsində 56.57 saniyə ilə finiş xəttinə çatıb.

Qeyd edək ki, bundan əvvəl paraatletimiz 100 metr məsafəyə qaçış üzrə yarışda milli komandamıza ilk qızıl medalı qazandırmışdı. Yığmamızın digər üzvləri Orxan Aslanov və Səid Nəcəfzadə uzunluğa tullanma üzrə yarışda eyni uğuru təkrarlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## MMA döyüşçümüzün növbəti qələbəsi

**Azərbaycanın MMA (qarışıq döyüş sənəti) döyüşçüsü Məhərrəm Həsənzadə növbəti görüşünü keçirib.**



İdmançımız Qazaxıstanın Almatı şəhərində keçirilən "Naiza & Fight nights" ilə birləşmiş beynəlxalq turnirində rinqə çıxıb.

Onun rəqibi qazaxıstanlı Bekzhan Utemisov olub. Qarşılaşma M. Həsənzadənin qələbəsi ilə başa çatıb.

***L.QURBANOVA***
***XQ***

***✓ 1994-cü il avqustun 3-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikası İctimai "Səhhət" fonduna verilmiş kollegiya qərarından çıxarış itdiyi üçün etibarsız sayılır.***

Hava

## Yağmurlu və dumanlı bir gün...



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər yarımadanın bəzi yerlərində qısamüddətə intensivləşəcəyi ehtimalı var.***

Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 12-16°, gündüz 17-21° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunu , nisbi rütubət gecə 65-75, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 17-22°, dağlarda gecə 2-6°, gündüz 6-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Müğənni xanımın əbədiləşmiş 1 anı

**Azərbaycan təsviri sənətində öz dəst-xətti ilə seçilən görkəmli rəssam Böyükağa Mirzəzadə milli rəngkarlıq sənətinin inkişafında böyük rol oynayıb. Onun çoxşaxəli yaradıcılığında portret janrı xüsusi yer tutur.**



Rəssam yaratdığı obrazların mənəvi dünyasına nüfuz edərək onların hər birini əlvan rəng çalarları ilə məharətlə təsvir edib.

B.Mirzəzadə yaradıcılığı boyu bir çox tanınmış şəxsiyyətlərin portretlərini yaradıb. Bu əsərlər arasında Xalq artisti Zeynəb Xanlarovaya həsr olunmuş "Müğənni xanımın portreti" əsərini misal çəkmək olar.

Əsərdə gənc ifaçı qadının qızılı paltarı, al qızılgüllərlə bəzənmiş saçları olduqca canlı və real təsvir olunub. Tabloda əlvan qırmızı boyalar əsərin emosional təsir qüvvəsini daha da qüvvətləndirir.

***S.FİDAN***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi qocaman mətbuat işçisi, Əməkdar jurnalist

**BƏBİR HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3979
SİFARİŞ 1128
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00